RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN




№ 73 (9240) 9 APREL 2023-cü il BAZAR

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Yaxın qonşu həm də dost olanda...



## İrakli QARİBAŞVİLİ: "Azərbaycan təkcə qonşumuz və dostumuz deyil, bizim mühüm strateji tərəfdaşımızdır"

**Prezident İlham Əliyev və Gürcüstanın Baş naziri İrakli Qaribaşvilinin Qəbələdə keçirilən görüşünün nəticələri belə qənaətə gəlməyə əsas verir ki, Azərbaycanın sülh səyləri Qafqazda gedən bütün iqtisadi proseslərin aparıcı qüvvəsidir.**

Əvvəlcə onu qeyd edək ki, bu iki dövlət bir-birinə uzun illərdir ki, sıx dostluq, müttəfiqlik əlaqələri ilə bağlıdır və müasir dövrdə ölkələrimiz arasındakı diplomatik əlaqələrin tarixi 1992-ci il noyabrın 18-dən başlayır. Hazırda Gürcüstan regionda Azərbaycanın ən yaxın müttəfiqlərindən biridir. Bu gün Gürcüstanla Azərbaycanı Bakı-Supsa, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, TRASEKA, Bakı-Tbilisi-Qars və Trans-Anadolu Qaz Boru Kəməri kimi qlobal enerji, nəqliyyat-kommunikasiya layihələri birləşdirir və ildən-ilə bu əməkdaşlıq dərinləşməkdədir. Gürcüstanın Azərbaycanla strateji tərəfdaşlığını rəsmiləşdirən məqamlardan biri də 2002-ci ilin aprelində Türkiyənin də imzaladığı "Trabzon razılaşması"dır.

Prezident İlham Əliyev belə hesab edir ki, Gürcüstan və Azərbaycan bu gün Avropanın enerji təhlükəsizliyi üçün önəmli rol oynayan ölkələrdir və bu rol getdikcə artmaqdadır: "Əlbəttə ki, bizim aramızda olan dostluq əlaqələri və bu sahədə əməkdaşlıq Avropanın enerji təhlükəsizliyi üçün də böyük töhfədir".

→ 2

## Zərifə Əliyeva - 100

# Görkəmli alim, mərhəmətli insan, müqəddəs ana

### Azərbaycan Milli Elmlər Akademiyası, Milli Məclisin Səhiyyə komitəsi və "Azərbaycan" qəzetinin birgə elmi konfransı

Zərifə xanım oftalmologiya elminin korifeyi, ziyalı və işıqlı bir şəxsiyyət, görmə problemli insanlara və ümumən, ətrafındakı hər kəsə nur paylayan, gözlərə işıq, qəlblərə həyat eşqi bəxş edən, ətrafına gözəlliklər saçan mələkmisallı bir insan olmuşdur.

Görkəmli alim və təbibin zəngin elmi irsi, oftalmologiyanın müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, əldə etdiyi mühüm nailiyyətlər, bunların əsasında yaratdığı fundamental əsərlər Azərbaycan tibb elminin parlaq səhifələridir.

Bəşəriyyətin ən qiymətli sərvəti olan xeyirxahlıq, həya və saflıq fani aləmdə əbədiyyəti, daimi mənəvi ucalığı təmin edir. Yüksək mənəviyyata, mərhəmətli, kövrək qəlbə, ən saf mənəvi dəyərlərə sahib olmuş Zərifə xanım Əliyeva həyatı və əməlləri ilə hələ sağlığında müqəddəslik qazanmış bir şəxsiyyətdir. Onun malik olduğu və qazandığı nə varsa, Allah tərəfindən verilmiş nemətlərdir.

Zərifə xanımın oftalmologiyanın inkişafında xidmətləri çoxdur, onlardan biri 1977-ci ildə Bakıda yeni Oftalmoloji Mərkəzin tikintisi haqqında irəli sürülmüş təşəbbüsüdür. Belə mərkəzin yaradılması Zərifə xanımın arzularından biri idi.

Zərifə Əliyeva - üç dövlət xadimini qovuşdurub birləşdirən akademik, oftalmoloq həkim, birinci xanım, ictimai xadim, Prezident anasıdırsa, bu paralellər vəhdətində Mehriban xanım da oftalmoloq həkim, humanizmdən elmi-fəlsəfi iş yazan, Prezident gəlini, Prezident xanımı, ictimai-siyasi dövlət xadimidir. Bənzər tale yolları aydın görünür.

→ 4-5

# İlham Əliyevin qlobal layihələri möhtəşəm uğurların təminatçısıdır

### Azərbaycan mövcud potensialı ilə Avropanın vacib enerji təchizatçısı rolunu oynayır

**İkinci Qarabağ müharibəsindəki böyük Zəfərdən sonra Cənubi Qafqazda yaranan reallıqları dəyərləndirən Prezident İlham Əliyev irəli sürdüyü qlobal təşəbbüslərlə, həyata keçirdiyi mütərəqqi islahatlarla Azərbaycanın gələcək uğurlarının konturlarını müəyyənləşdirir.**

Məhz İlham Əliyevin təşəbbüsü ilə reallaşan qlobal enerji layihələri ilə Azərbaycanın beynəlxalq nüfuzu, siyasi çəkisi artmaqdadır. Dünyanın geosiyasi və geoiqtisadi gündəmini düzgün qiymətləndirən dövlət başçısı verdiyi sözünə, vədinə sadiqliyi ilə Azərbaycana dünyada ən etibarlı tərəfdaş statusunu qazandırıb.

Hazırda Azərbaycan Avropanın enerji təminatında açar rolunu oynayan dövlətlərdən biri kimi qəbul olunur. Bu, ölkə sərhədlərindən kənarda, özü də ən yüksək səviyyələrdə etiraf olunur. Bu prosesi dəyərləndirən İlham Əliyev deyir ki, Azərbaycanın başlatdığı və Avropa İttifaqının, o cümlədən tərəfdaş ölkələrin dəstəklədiyi enerji layihələri Avropanın enerji xəritəsini tamamilə dəyişib. Azərbaycan tərəfdaşları ilə birgə Xəzər dənizini Qara dəniz və Aralıq dənizi ilə birləşdirən neft kəməri çəkməklə yeni rekordlara imza atıb.

"Əsrin müqaviləsi" ilə əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan neft strategiyasını uğurla davam etdirən İlham Əliyevin təşəbbüsü ilə həyata keçirilən qlobal layihələr Azərbaycanın gələcək uğurlarının təminatçısıdır. Aprelin 4-də Prezidentin iştirakı ilə "Azəri-Mərkəzi-Şərqi" platformasının üst modullarının dənizə rəmzi yola salınması mərasimində səslənən fikirlər də deyilənləri bir daha təsdiqləyir. 6 milyard dollarlıq layihəyə yeni dəniz platforması və gündəlik 100 000 barel neft hasilatını təmin edə biləcək qurğular daxildir. İstismar müddətində isə 300 milyon barel neftin hasil olunacağı proqnozlaşdırılır. Layihə üzrə yekun investisiya qərarı 2017-ci ildə "Azəri-Çıraq-Günəşli" (AÇG) üzrə Hasilatın Pay Bölgüsü Sazişinin 2049-cu ilə qədər uzadılmasından sonra AÇG tərəfdaşlarının ilk böyük investisiya qərarıdır. Layihə çərçivəsində dənizdə suyun dərinliyinin təxminən 140 metr olan sahəsində - "Mərkəzi Azəri" və "Şərqi Azəri" platformalarının arasında 48 şaxtadan ibarət yeni hasilat, qazma və yaşayış platforması quraşdırılacaq. Layihəyə həmçinin yataqdaxili yeni sualtı boru kəmərləri də daxildir.

→ 2

# İran həm də narkotik terrorçusudur

Narkotik terroru törədənlərin başında duran isə SEPAH-dır. Rəsmi Tehran narkotik qaçaqmalçılığından əldə etdiyi gəlirləri ayrı-ayrı ölkələrdə saxlanılan terrorçu qruplaşmalara yönəldir. Otuz il ərzində molla rejimi işğalda qalan Azərbaycan-İran sərhədi vasitəsilə bu çirkin planlarını reallaşdırıb, ərazilərimizdən cinayətkar əməlləri üçün sui-istifadə ediblər. İkinci Qarabağ müharibəsində zəfər qazanmağımıza baxmayaraq, onlar hələ də Azərbaycan əraziləri vasitəsilə Hayastana qanunsuz yolla narkotik vasitələr göndərməyə cəhdlər edirlər.

Son illərdə narkotik qaçaqmalçılığı ilə bağlı aşkarlanmış cəhdlərin sayında ciddi artımın olması da İranın Qarabağda narkotik terroru ilə məşğul olduğunu sübut edir. Vaxtilə sərhəd xətti işğalçıların nəzarətində olduğuna görə, İran bu fürsətdən lazımi qədər faydalanırdı. Lakin bu cinayətkarlığına görə Hayastana, eləcə də qanunsuz dövriyyələrin əsas təşkilatçısı olan İrana heç kim bir kəlmə də demirdi.

Azərbaycan 44 günlük müharibədə zəfər qazandıqdan sonra bu qanunsuzluğun qarşısını almağa müvəffəq olub. Sözsüz ki, müharibədən əvvəlki dövrdə İran, Fransa kimi dövlətlərin regionumuza olan təzyiqlərinin gücü başqa idi. İndi bundan məhrum qaldıqlarına görə qanunsuz əməllərini ürəkləri istəyən kimi həyata keçirə bilmirlər. Lakin məkrli planlarından əl çəkmir, terror aktları törətməkdə davam edirlər.

→ 6

# İranın xain əməlləri

### Molla rejiminin səfirlik əməkdaşları da diplomatik statusa uyğun olmayan "fəaliyyət" sərgiləyirlər

Hər kəsə bəllidir ki, İranda uzun müddətdir davam edən aksiyalar molla rejiminə qarşı çevrilib. Bu da təsadüfi deyil. Dinlə pərdələnən bu saxtakar ölkə insan hüquq və azadlıqlarını kobudcasına pozur, vətəndaşlarının haqlarını əlindən alır. Günahsız insanları dar ağacından asdırır, əsassız yerə ölümə məhkum edir. Səbəb isə uzun illər ərzində molla rejimindən təngə gəlmiş əhalinin haqlı etirazlarıdır.

Azərbaycan tərəfi dəfələrlə İrana düşmən mövqeyindən əl çəkməsini, ölkəmizlə münasibətlərini normaya salmasının hər iki dövlətin xeyrinə olduğunu bildirsə də, görünür, Tehran tutduğu çirkli yoldan dönmək istəmir.

→ 6

# Laçın-Xankəndi yolunda ekoterrora qarşı etirazlar davam edir




→ 6

# Kəndli yeni ümidlə sahəyə çıxır

Taleyini torpağa, halal zəhmətə bağlayan kəndlidə bu gün işləmək həvəsi yetərincədir. Çünki işləməyin, əkib-becərməyin yaxşı güzəran olduğunu bilir. Böyük zəfərəcən Tərtər çayının suyuna həsrət qalan, əkinləri suvarmaq üçün minbir əzaba qatlaşan rayon sakinlərinin artıq bu problemi yoxdur. Həm də əsasən ona görədir ki, cari ilin məhsulu üçün 11231 hektar sahədə əkilən, qayğıkeşliklə becərilən taxıl zəmilərindən bol məhsul gözlənilir. Çiyid səpininə də mütəşəkkilliklə başlanmışdır. Lazım olan qədər çiyid tədarük edilmiş, səpində və becərmədə istifadə olunacaq texnika təmir olunub saz vəziyyətə gətirilmişdir.

→ 13

# Bakı və ətrafı gündən-günə gözəlləşir



→ 14



# Yaxın qonşu həm də dost olanda...

## İrakli QARİBAŞVİLİ: "Azərbaycan təkcə qonşumuz və dostumuz deyil, bizim mühüm strateji tərəfdaşımızdır"

*Əvvəli 1-ci səh.*

Azərbaycanın Qafqazda uğurla tətbiq etdiyi sülh modeli Gürcüstan üçün faydalı olmaqla yanaşı, həm də bizim təbii qazımızın Avropa istiqamətində stabil ixracının təminatçısı kimi çıxış edir. Bu il dünya bazarlarına 24,5 milyard kubmetr qaz ixrac ediləcək. Maraqlısı isə odur ki, bu rəqəm ildən-ilə artmaqdadır. 2027-ci ilə qədər təkcə Avropaya nəql ediləcək qazın həcmi 20 milyard kubmetrə çatdırılmalıdır. Artan iqtisadi qüdrətimiz imkan verir ki, beynəlxalq iqtisadi layihələrin həllində aparıcı qüvvəyə çevrilək.

Məlum olduğu kimi, Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniya 2022-ci il dekabrın 17-də Buxarestdə önəmli sazişə imza atmış, bu ilin fevralında isə Bakıda "yaşıl enerji" layihəsinin birinci rəhbər komitəsinin iclası keçirilmişdir. Prezident İlham Əliyev bu layihənin xüsusi əhəmiyyət kəsb etməsini Avropa İttifaqının artan diqqəti ilə izah edir: "Təsadüfi deyil ki, Avropa Komissiyasının prezidenti imzalanma mərasimində də iştirak etmişdir".

Azərbaycan üçün bu gün ikitərəfli və həm də çoxşaxəli əlaqələrin inkişafının önəmli hissəsi nəqliyyatla bağlıdır. Həm Azərbaycan, həm də Gürcüstan bu sahə üzrə də uğurla əməkdaşlıq edirlər. Bu səbəbdən Prezident İlham Əliyevin proqnozları nikbindir: "Beləliklə, yeni yüklərin Orta dəhliz üzrə nəql edilməsi üçün çox gözəl imkanlar var. Burada həm bütün inzibati məsələlər öz həllini tapmalıdır, tarif siyasəti vahid prizmadan həll edilməlidir, eyni zamanda yüklərin cəlb edilməsi və nəqli üçün birgə səylər göstərilməlidir".

Gürcüstan da özünü etibarlı tranzit ölkəsi və tərəfdaşı kimi sayır və bu istiqamətdə daim fəaliyyətini genişləndirir. Gürcülər Qara dənizin dibi ilə elektrik kabeli çəkməyə hazırlaşır, Orta dəhliz məsələsini inkişaf etdirirlər. İrakli Qaribaşvili "yaşıl enerji"ni Avropaya nəql etmək üçün Gürcüstanın nəhəng potensiala malik olduğunu və çox böyük perspektivlərin mövcudluğunu bildirir: "Bu bir gələcəkdir. Hər iki ölkə bu sahəyə daha çox sərmayə qoyacaq. Biz bunu da müzakirə etdik".

Etibarlı tərəfdaş kimi Azərbaycanla Orta dəhliz layihəsində Gürcüstanın məqsədi yaxın gələcəkdə bütün maneələri aradan qaldıraraq infrastrukturu - dəniz limanlarını, dəmir yollarını Azərbaycanla birgə inkişaf etdirməkdir. Gürcüstanın Baş naziri mətbuata açıqlamasında həm də onu qeyd etdi ki, onlar yeni limanın inşası üzərində çalışır. Bir ildən sonra isə Bakı-Tbilisi-Qars dəmir yolunun fəaliyyətinin genişləndirilməsi layihələrini həyata keçirəcəklər. Bir sözlə, gürcülər də onun marağındadırlar ki, Orta dəhlizə daha çox yükün cəlb edilməsi reallaşsın. Qonşumuz üçün regionda sülhün və sabitliyin təmin edilməsi və qorunması xüsusi əhəmiyyət kəsb edən məsələdir. Qaribaşvili belə hesab edir ki, sülh regionda daha çox layihələrin həyata keçirilməsi və qardaşlıq mühitinin qorunması üçün vacibdir.

Bu məqamda onu demək yerinə düşərdi ki, iki ölkənin münasibətlərini gərginləşdirmək, aralarını vurmaq istəyən qüvvələr də var. Amma onların niyyətləri baş tutan deyil. Bu gün Azərbaycanla Gürcüstan arasında mövcud olan əməkdaşlıq bütün sahələri - ticarət, investisiya, maliyyə, bank, enerji, nəqliyyat, kənd təsərrüfatı, idman, təhsil, mədəniyyət və sair məsələləri əhatə edir. Təsadüfi deyil ki, Gürcüstan Azərbaycanın əsas ticarət tərəfdaşlarından biridir. İki ölkə arasında ticarət dövriyyəsi ildən-ilə artmaqdadır. Bundan başqa, ölkəmiz Gürcüstanın ən əhəmiyyətli investisiya tərəfdaşlarındandır. İndiyədək Azərbaycan Gürcüstana milyardlarla ölçülən investisiyalar yatırmışdır. Gürcüstana yatırılan investisiyaların həcminə görə ölkəmiz 2012-ci ildən etibarən ilk yerdədir. Azərbaycanda 300-dən çox Gürcüstan şirkəti qeydiyyata alınıb. 700-dən çox Azərbaycan sərmayəli şirkət, o cümlədən SOCAR Gürcüstanda uğurla fəaliyyət göstərir. Bunu da xüsusi vurğulamaq lazımdır ki, Gürcüstan büdcəsinə ən çox vergi ödəyən şirkət də SOCAR-dır.

Bundan başqa, Bakı-Tbilisi-Qars dəmir yolunun inşası zamanı Azərbaycan Gürcüstan ərazisindən keçən dəmir yolu xəttinin inşası üçün Tbilisiyə 775 milyon dollar həcmində kredit ayırmışdı. Həmçinin "SOCAR Energy Georgia" MMC Gürcüstanın qazla təmin edilməsində mühüm rol oynayır. 2006-cı ildə qurulan bu şirkət yalnız Gürcüstan ərazisində fəaliyyət göstərir. "SOCAR Energy Georgia" MMC-nin əsas fəaliyyət sahəsi Gürcüstanda neftin topdan və pərakəndə satışı, neft və neft məhsullarının, həmçinin mayeləşdirilmiş qazın ölkəyə idxalı, neft terminalı və anbarlarının tikintisidir. Şirkət Gürcüstandakı neft satışının 72 faiz, dizel satışının isə 61 faizinə nəzarət edir. Üstəlik, Kulevi neft terminalı da bu şirkətin ixtiyarındadır. ARDNŞ Gürcüstana hər ay 20.000 ton neft məhsulu, həmçinin 15.000 ton benzin ixrac edir.

Ölkələrimiz Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu, "Cənub-Qərb" və digər beynəlxalq tranzit dəhlizlərinin inkişafında da fəal əməkdaşlıq edir. Belə səmərəli münasibətlərin nəticəsində hər iki ölkənin ərazisindən keçən tranzit yükdaşımaların həcmi də artır. İqtisadi əlaqələrin perspektivləri isə nikbin gələcəyə köklənir. Gürcüstanın Baş naziri səmimi etiraf edir ki, Azərbaycanla, Azərbaycan xalqı ilə bu sıx dostluq və qardaşlıq münasibətləri olduqca önəmlidir: "Bizim dostluğumuzun çox qədim tarixi var və Azərbaycan təkcə qonşumuz və dostumuz deyil, bizim mühüm strateji tərəfdaşımızdır. Uzun illər ərzində biz müxtəlif sahələrdə tarixi layihələri həyata keçirmişik və o layihələr bizim xalqları, ölkələri daha da sıx birləşdirdi. Biz yaxşı mənada bir-birimizdən asılıyıq və əminəm ki, bundan sonrakı uzun illərdə də bu belə olacaqdır".

***Bahadur İMANQULİYEV, "Azərbaycan"***

# İlham Əliyevin qlobal layihələri möhtəşəm uğurların təminatçısıdır

## Azərbaycan mövcud potensialı ilə Avropanın vacib enerji təchizatçısı rolunu oynayır



*Əvvəli 1-ci səh.*

Bu xətlər platformadan hasil ediləcək neft və qazın Səngəçal terminalına ötürülməsi üçün mövcud AÇG "Faza 2" sualtı ixrac kəmərlərinə qoşulacaq.

Göründüyü kimi, təkcə bu layihə Azərbaycanın enerji potensialının hələ uzun müddət ixrac ediləcəyini və ölkəmizə iqtisadi dividendlər gətirəcəyini deməyə əsas verir.

2023-cü il üçün Azərbaycanda neft hasilatının 31,2 milyon ton səviyyəsində olması proqnozlaşdırılır. Valyuta daxilolmalarında əsas paya malik olan neft və neft məhsullarının ixracı ölkəmiz üçün mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan neft sahəsində həyata keçirilən layihələrin davamlılığı Azərbaycanın valyuta gəlirlərini artırır. Dünya bazarında neftin qiymətinin artmasının da ölkəmiz üçün müsbət tərəfləri xüsusi qeyd olunur.

Bu bir həqiqətdir ki, hazırda Rusiya-Ukrayna müharibəsinə görə, rəsmi Moskvaya tətbiq edilən sanksiyalar üzündən Avropanın enerji təminatında əsas ümidi Azərbaycana qalıb. Ötən il iyulun 18-də Azərbaycan ilə Avropa İttifaqı arasında "Azərbaycan Respublikası ilə Avropa Komissiyası tərəfindən təmsil olunan Avropa İttifaqı arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu"nun imzalanması da bir daha təsdiqlədi ki, Avropanın bu gün Azərbaycan qazına böyük ehtiyacı var.

Həmin sənədin imzalanma mərasimində Avropa Komissiyasının prezidenti xanım Ursula Fon der Lyayen də Azərbaycanı Avropa üçün enerji sektorunda etibarlı tərəfdaş adlandırıb. Əlbəttə ki, Azərbaycanın nailiyyətlərinin bu cür qiymətləndirilməsi böyük şərəfdir. Həqiqətən də, real hədəf olan yerdə Azərbaycan bir çox Avropa ölkələrini neft, neft məhsulları, neft-kimya məhsulları ilə təchiz edir.

Rusiya-Ukrayna müharibəsi başlayandan sonra isə Azərbaycana qaz təchizatı və ya mövcud qaz təchizatının artırılması ilə bağlı 10-dan çox Avropa ölkəsindən müraciət olunub. Təbii ki, ölkəmiz də tərəfdaşlarının ehtiyaclarını qarşılamaq üçün əlindən gələni əsirgəmir. Çünki hazırda Azərbaycanın qaz təchizatının kifayət qədər şaxələndirilmiş coğrafiyası var. Bəzi ölkələr artıq Azərbaycandan elektrik enerjisi almağa başlayıblar. Lakin Avropada yeni mənbələrdən təbii qaza olan tələbatın artması ilə əlaqədar hazırda Azərbaycan kəmər imkanlarını genişləndirməyi planlaşdırır. Belə ki, 16 milyard kubmetr tutumu olan TANAP-ın 32 milyard kubmetrədək, 10 milyard kubmetr tutumu olan TAP-ın isə 20 milyard kubmetrədək genişləndirilməsi nəzərdə tutulur. Bu, əlbəttə ki, Avropada təbii qaza tələbatın artması ilə əlaqədardır.

Son illərdə dünyanın yeni enerji mənbələri axtarışı və əsasən də "yaşıl enerji"yə olan tələbatın artması nəticəsində ölkələr öz potensiallarını ortaya qoymağa başlayıblar. Əlbəttə ki, Azərbaycan da bu prosesdən yan keçə bilməz. Çünki ölkəmizdə külək və günəş enerjisi mənbələrinin 200 qiqavata yaxın potensialı var. Hazırda Azərbaycan bu prosesə həm xarici sərmayədarları cəlb edir, həm də həmin enerji həcmlərini ixrac etmək məqsədilə lazımi ötürmə imkanlarını yaradır.

İkinci Qarabağ müharibəsindən sonra Azərbaycanın imkanları daha da genişlənib. İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur bölgələri artıq "yaşıl enerji" zonası elan edilib. Bu ərazilərimizdə yalnız bərpaolunan enerji mənbələrindən istifadə ediləcək. Bu mənbələr nəinki həmin yerlərdə insanların və sənayenin tələbatını ödəyəcək, o cümlədən ölkənin qalan hissəsinə də xidmət edəcək.

Azərbaycanın bərpaolunan enerji potensialı hələ bununla yekunlaşmır. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ilə yanaşı, Naxçıvanı da "yaşıl enerji" zonasına çevirmək planı mövcuddur. Naxçıvanda su-elektrik stansiyasının tikintisi üçün böyük potensial var. Bu yaxınlarda orada ekspertizanın da aparıldığını bildirən Prezident deyib ki, yaxın vaxtlarda 500 meqavatlıq günəş-elektrik enerjisi stansiyasının tikintisi ilə bağlı bəzi addımlar atıla bilər. Eyni zamanda Naxçıvanda ənənəvi elektrik stansiyalarının da tikilməsi çox münasibdir. Çünki Naxçıvanın böyük enerji ixracı potensialı var. Türkiyə və İranla sərhədi olan Naxçıvan bu prosesdə hər iki ölkənin elektrik enerjisinə artan tələbatını ödəyə bilər.

Ötən il dekabrın 17-də Buxarestdə ölkəmizdən Avropaya "yaşıl enerji"nin ötürülməsi üçün Qara dənizin dibi ilə kabelin çəkilməsi üçün Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında imzalanan saziş də İlham Əliyevin təşəbbüsü ilə reallaşan möhtəşəm layihələrdən biridir.

Bu layihə "Cənub qaz dəhlizi"ndən fərqlənəcək. Çünki orada Cənub Qafqaz Boru Kəməri, TANAP və TAP olduğu halda bu layihə Xəzər dənizində külək enerjisi stansiyalarından başlayan və Avropa istehlakçılarına xidmət edən vahid layihə olacaq. Qara dənizin dibi ilə ötürmənin birinci mərhələsində 4 qiqavatlıq güc nəzərdə tutulur.

Layihənin potensialını dəyərləndirən İlham Əliyev əminliklə vurğulayıb ki, Azərbaycan mövcud resursları ilə, həqiqətən də, Avropa üçün vacib "yaşıl enerji" təchizatçısına çevriləcək. Azərbaycanda olan "yaşıl enerji" tezliklə təbii qaz qədər Qərbə əhəmiyyətli olacaq. Azərbaycanla enerji sahəsində əməkdaşlığa daim xüsusi maraq göstərən dövlətlərin sayı daha da artacaq və bu da ölkəmizin geoiqtisadi, geosiyasi mövqelərini hərtərəfli şəkildə möhkəmləndirəcək.

Bütün bunlar İlham Əliyevin enerji diplomatiyasının uğurla həyata keçirilməsinin bariz təcəssümüdür. Bu diplomatiya Azərbaycanın iqtisadi potensialını getdikcə daha da gücləndirir və əldə edilən gəlirlərin iqtisadiyyatın qeyri-neft sektoruna yönəldilməsinə real imkan yaradır.

***Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"***

# Gürcüstanın Baş naziri İrakli Qaribaşvilinin Azərbaycana işgüzar səfəri başa çatıb

**Gürcüstanın Baş naziri İrakli Qaribaşvilinin Azərbaycan Respublikasına işgüzar səfəri aprelin 8-də başa çatıb.**



AZƏRTAC xəbər verir ki, hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Qəbələ Beynəlxalq Hava Limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Baş nazir İrakli Qaribaşvilini rəsmi şəxslər yola saldılar.

# Azərbaycanın və İranın xarici işlər nazirləri arasında telefon danışığı olub

**Aprelin 7 və 8-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə İran İslam Respublikasının xarici işlər naziri Hüseyn Əmir Abdullahian arasında telefon danışığı olub.**




Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyindən AZƏRTAC-a verilən məlumata görə, tərəflər qarşılıqlı şəkildə hər iki ölkənin ərazi bütövlüyü və suverenliyinə hörmətlə yanaşdıqlarını bildiriblər.

Telefon danışığı zamanı iki ölkə arasında mövcud olan narazılıq və anlaşılmazlıqlarla bağlı müfəssəl müzakirə aparılıb. Anlaşılmazlıqların aradan qaldırılması üçün danışıqların davam etdirilməsinin vacibliyi vurğulanıb.

Azərbaycanla İran arasında mövcud olan layihələrin icrası istiqamətində iş aparılmasına dair razılıq ifadə olunub.

Nazir Ceyhun Bayramov Azərbaycanın milli maraqlarına əsasən həyata keçirdiyi müstəqil xarici siyasətinə və region ölkələri ilə ikitərəfli münasibətlərinə hörmətlə yanaşılmasının vacib olduğunu diqqətə çatdırıb.

Nazirlər qarşılıqlı təmasların davam etdirilməsinin vacib olduğunu qeyd ediblər.

# Müdafiə naziri yeni istifadəyə verilmiş hərbi hissədə yaradılan şəraitlə tanış olub





**Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən işğaldan azad edilmiş ərazilərdə inşa edilən növbəti hərbi obyekt istifadəyə verilib.**

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, azad edilmiş ərazilərə səfər edən müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti yeni istifadəyə verilən hərbi hissəyə baxış keçirib, burada yaradılan şəraitlə tanış olub.

Müdafiə nazirinə məruzə edilib ki, şəxsi heyətin xidməti-döyüş fəaliyyətinin yüksək səviyyədə təşkili üçün burada qərargah binası, yataqxana, xidməti otaqlar, tibb məntəqəsi və digər infrastruktur obyektləri tikilib, müasir avadanlıqlarla təchiz olunub.

Bildirilib ki, döyüş əməliyyatları zamanı bölmələrin operativ idarə olunması, eləcə də digər qoşun növləri ilə qarşılıqlı əlaqənin təmin edilməsi üçün yeni qərargahda müasir kommunikasiya və informasiya vasitələri ilə təchiz olunmuş rabitə qovşağı və server otağı mövcuddur.

Yaradılan şəraitlə tanış olan müdafiə naziri qərargah zabitlərinin və komandir heyətinin fərdi bacarıqlarının, eləcə də bölmələri idarəetmə qabiliyyətinin daha da artırılması istiqamətində müvafiq tədbirlərin görülməsi barədə göstərişlər verib.

# Azad edilmiş ərazilərdə yeni hərbi obyektlər istifadəyə verilib





**Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin diqqət və qayğısı nəticəsində ordunun maddi-texniki təminatı daha da gücləndirilir və müasir standartlara cavab verən hərbi infrastruktur qurulur.**

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti azad edilmiş ərazilərdə yeni istifadəyə verilən hərbi obyektlərə baxış keçirib.

Müdafiə naziri ilk olaraq yeni istifadəyə verilmiş texniki-təmir məntəqəsində görülən işlərlə tanış olub. Məruzə edilib ki, texniki-təmir məntəqəsində avtomobil, zirehli texnika, eləcə də raket-artilleriya silahlarının cari və orta təmirinin aparılması üçün bütün imkanlar yaradılıb. Məntəqədə ehtiyat hissələrin saxlanılma anbarı da mövcuddur.

Sonra rəhbər heyət Birləşmiş Anbarlar Mərkəzində və yeni istifadəyə verilən Raket-Artilleriya Silahları anbarında olub.

Yaradılan infrastrukturla tanış olan müdafiə nazirinə Azərbaycan Ordusunun müvafiq istiqamətdə dislokasiya olunan bölmələrini silah və döyüş sursatı ilə fasiləsiz təmin etmək üçün anbarda bütün növ şəraitin yaradıldığı barədə məlumat verilib.

Bildirilib ki, yeni istifadəyə verilən anbarda silah və döyüş sursatının müxtəlif iqlim şəraitində uzunmüddətli saxlanılması zamanı keyfiyyətinin qorunması üçün müasir standartlara cavab verən şərait mövcuddur. Birləşmiş Anbarlar Mərkəzinin və yeni istifadəyə verilən hərbi infrastrukturun imkanları ilə tanış olan müdafiə naziri xüsusilə sərt iqlim və kəskin relyefli ərazilərdə dislokasiya olunan bölmələrin fasiləsiz təminatı, o cümlədən bütün növ təminat vasitələrinin - ərzaq, əşya-əmlak, yanacaq, silah-sursat, döyüş texnikasının ehtiyat hissələrinin və digər əmlakın qorunub-saxlanılması ilə bağlı müvafiq vəzifəli şəxslərə tapşırıqlar verib.

# Azərbaycan və Moldova XİN-ləri arasında siyasi məsləhətləşmələr aparılıb

**Aprelin 6-7-də Azərbaycan Respublikasının xarici işlər nazirinin müavini Xələf Xələfovun başçılıq etdiyi nümayəndə heyəti Moldova Respublikasında səfərdə olub.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, səfər çərçivəsində Azərbaycan Respublikası və Moldova Respublikası xarici işlər nazirlikləri arasında siyasi məsləhətləşmələr və Moldova dövlət rəsmiləri ilə ikitərəfli görüşlər keçirilib.

Aprelin 6-da Moldova Respublikasının Xarici İşlər və Avropaya İnteqrasiya Nazirliyində Azərbaycan və Moldovanın XİN-ləri arasında siyasi məsləhətləşmələrin növbəti mərhələsi baş tutub. Məsləhətləşmələrdə Azərbaycan tərəfini xarici işlər nazirinin müavini Xələf Xələfov, Moldova tərəfini isə xarici işlər və Avropaya inteqrasiya nazirinin müavini Ruslan Bolboçan təmsil edib. Məsləhətləşmələr zamanı ticari-iqtisadi, humanitar, kənd təsərrüfatı, enerji və investisiya sahələrində əməkdaşlığın inkişafı, yüksəksəviyyəli qarşılıqlı səfərlərin təşkili məsələləri müzakirə olunub. Siyasi dialoqun davamlı şəkildə aparılmasının vacibliyinə vurğu edilib. Eyni zamanda tərəflər iki ölkənin BMT, Avropa Şurası, ATƏT, QDİƏT, GUAM kimi beynəlxalq və regional təşkilatlarda qarşılıqlı fəaliyyətin gücləndirilməsinin əhəmiyyətinə toxunublar. Son bir ildə ölkələr arasında ticarət dövriyyəsinin önəmli dərəcədə artması qeyd olunaraq, bu sahədə daha böyük potensialın mövcudluğuna diqqət çəkilib. Hüquq-müqavilə bazasının genişləndirilməsi imkanları müzakirə olunub.

Səfər çərçivəsində nazir müavini X.Xələfovun Moldova Respublikası parlamentinin sədri İqor Qrosu, Moldova xarici işlər və Avropaya inteqrasiya naziri Niku Popesku, Moldova Baş nazirinin reinteqrasiya məsələləri üzrə müavini Oleq Serebrian, Moldova Respublikasının Prezident Administrasiyasının rəhbəri Andrey Spinu və Prezidentin xarici siyasət məsələləri üzrə müşaviri Kristina Gerasimov, Kənd Təsərrüfatı Nazirliyinin dövlət katibi Sergiu Qerçu ilə ikitərəfli görüşləri keçirilib.

Keçirilmiş görüşlərdə Azərbaycan və Moldova arasında ənənəvi dostluq əlaqələrinin möhkəmləndirilməsinin əhəmiyyəti vurğulanıb, regional vəziyyət, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq və qarşılıqlı maraq kəsb edən digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Son illərdə iki ölkə rəsmiləri arasında fəal siyasi görüşlər yüksək qiymətləndirilərək, bu istiqamətdə mövcud tendensiyanın davam etdirilməsinin vacibliyi qeyd olunub. Azərbaycan və Moldova arasındakı münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə qədər yüksəlməsindən məmnunluq ifadə olunub.

Moldova tərəfi Azərbaycanın Cənubi Qafqaz regionunda sülh gündəliyinin reallaşması istiqamətində səyləri və addımları barədə ətraflı məlumatlandırılıb. İşğaldan azad edilmiş ərazilərimizdə həyata keçirilən bərpa və quruculuq işləri, əhalinin öz yurdlarına qayıtması istiqamətində icra olunan layihələr, Qarabağın erməni əhalisinin Azərbaycanın hüquqi, iqtisadi və sosial mühitinə reinteqrasiyası ilə bağlı atılan addımlar qarşı tərəfin diqqətinə çatdırılıb. Görüşlərdə Azərbaycan Respublikası ilə Moldova Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın fəaliyyətinin əhəmiyyəti xüsusi qeyd olunub. Aqrar sahədə investisiya qoyuluşu, ixracyönümlü ortaq müəssisələrin yaradılması istiqamətində perspektivdə həyata keçirilə biləcək layihələr barədə fikir mübadiləsi aparılıb.

Səfər çərçivəsində nazir müavini Xələf Xələfov Moldova Dövlət Tarix Muzeyində Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş sərginin açılış mərasimində iştirak edərək əhatəli nitqlə çıxış edib.

Moldovaya səfər zamanı nazir müavini X.Xələfov həmçinin Moldovadakı soydaşlarımız, Moldova Azərbaycanlıları Konqresinin fəalları ilə görüşüb.

# Şuşada TÜRKSOY-a üzv ölkələrin UNESCO üzrə Milli komissiyalarının 9-cu iclasının bağlanış mərasimi keçirilib








Aprelin 8-də türk dünyasının mədəniyyət paytaxtı olan Şuşa şəhərində Azərbaycan Respublikası Prezidenti yanında UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının TÜRKSOY-a üzv ölkələrin UNESCO üzrə Milli komissiyalarının 9-cu dövr üçün sədrliyi çərçivəsində sözügedən Milli Komissiyanın Daimi Katibliyi, Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı (TÜRKSOY), ADA Universiteti və Universitetin İnkişaf və Diplomatiya İnstitutunun birgə təşkilatçılığı ilə TÜRKSOY-a üzv ölkələrin UNESCO üzrə Milli komissiyalarının 9-cu iclasının bağlanış mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov işğaldan azad olunmuş Şuşa şəhərində tarixi və mədəni irsimizə qarşı Ermənistan tərəfindən törədilmiş vandalizm aktları, həmçinin Azərbaycan dövləti tərəfindən burada həyata keçirilən bərpa-quruculuq işləri ilə bağlı tədbir iştirakçılarına məlumat verib.

Tədbirdə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Qarabağ İrsini Araşdırma Mərkəzinin rəhbəri, beynəlxalq münasibətlər üzrə professor, siyasi elmlər doktoru Elçin Əhmədovun müəllifi olduğu "Şuşa - Azərbaycanın Tarixi və Strateji Əhəmiyyətli Mədəniyyət Paytaxtı" adlı kitabın təqdimatı keçirilib.

Bağlanış mərasimində TÜRKSOY-un üzv ölkələrini, Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkiyə, Türkmənistan və Özbəkistan, eləcə də Beynəlxalq Türk Akademiyası, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu, Türkdilli Ölkələrin Parlament Assambleyası, Macarıstan və Monqolustanı təmsil edən 35 iştirakçıya sertifikat və hədiyyələr təqdim olunub.

Mərasimdə Azərbaycan Respublikasının UNESCO üzrə Milli Komissiyası və ADA Universitetinin İnkişaf və Diplomatiya İnstitutu tərəfindən ölkəmizdə sayca ikinci dəfə təşkil edilən təlim proqramının iştirakçısı olan Benin, Niger, Toqo, Burkina Faso, Qvineya, Qabon, Cibuti, Kot-d'İvuar və Ekvatorial Qvineyanın UNESCO üzrə Milli komissiyalarının baş katibləri qonaq qismində iştirak ediblər.

Bağlanış mərasimindən sonra xarici qonaqlar Şuşa şəhəri ilə tanış olublar. Onlar Şuşa şəhər mərkəzi meydanı, Qala divarları, Cıdır düzü və Molla Pənah Vaqifin muzey-məqbərə kompleksini ziyarət ediblər. Şuşaya səfərdə iştirak edən iclas iştirakçıları və Afrika ölkələrinin UNESCO Milli komissiyalarının baş katibləri Şuşanın ecazkar təbiətinə və qədim tarixinə heyran qalıblar.

Tədbir Xalq artisti Mənsum İbrahimovun rəhbərliyi ilə "Qarabağ" muğam qrupu tərəfindən təqdim edilən konsert proqramı ilə sona çatıb. Konsert proqramında həmçinin Aytən Məhərrəmova və Sona Əzizovanın ifasında müxtəlif mahnılar səsləndirilib. Təqdim edilən ifalar dinləyicilərdə xoş təəssürat yaradıb.

# Qərbi Azərbaycan İcması BMT-ni Ermənistana missiya göndərməyə çağırıb

**Qərbi Azərbaycan İcması BMT-nin Baş katibi Antonio Quterreşə məktub göndərərək, Ermənistandan qovulmuş azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə geri qayıtması prosesinə başlamaq üçün bu ölkəyə BMT-nin xüsusi missiyasının göndərilməsini xahiş edib.**

AZƏRTAC xəbər verir ki, Qərbi Azərbaycan İcmasının müraciətində bildirilir:

"Biz bu məktubu Ermənistandan qovulmuş azərbaycanlıların sülh yolu ilə, təhlükəsiz və ləyaqətlə geri qayıtmasına yardım etmək üçün Ermənistana BMT missiyası göndərməyi xahiş etmək üçün yazırıq.

1989-cu ildə yaradılmış təşkilatımız Ermənistandan qovulmuş azərbaycanlıların hüquqlarının müdafiəsi ilə məşğul olur.

Azərbaycanlıların vaxtilə mütləq əksəriyyət təşkil etdikləri Ermənistanın indiki ərazisindən qovulması 1991-ci ildə başa çatdırılıb. Etnik təmizləmə nəticəsində Ermənistanda bir nəfər belə azərbaycanlı qalmayıb. Ermənistandakı Azərbaycanın tarixi-mədəni irsi, o cümlədən məscidlər və qəbiristanlıqlar geniş miqyasda dağıdılıb, bütün Azərbaycan toponimləri dəyişdirilib.

Azərbaycanlıların Ermənistandan qovulması siyasi, hüquqi və humanitar ölçüləri nəzərə alsaq, misli görünməyən ədalətsizlikdir. Biz istərdik ki, bu haqsızlıq aradan qaldırılsın. Ümumdünya İnsan Hüquqları Bəyannaməsində, Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Paktda və digər mühüm beynəlxalq aktlarda təsbit olunmuş geri qayıtmaq hüququna əsaslanaraq, biz öz evlərimizə təhlükəsiz və ləyaqətlə qayıtmağa can atırıq.

Biz dinc, təhlükəsiz və ləyaqətli qayıdış konsepsiyamızı hazırlamışıq və həmin sənəd A/77/801-S/2023/134 və E/2023/53 saylı qeydiyyat nömrələri ilə BMT Təhlükəsizlik Şurasının, Baş Assambleyanın və İqtisadi və Sosial Şuranın rəsmi sənədləri kimi yayılmışdır.

Digər oxşar vəziyyətlərdə olduğu kimi, Ermənistandan qovulmuş azərbaycanlıların könüllü, təhlükəsiz və ləyaqətli qayıdışına şərait yaratmaq üçün əsaslı beynəlxalq töhfə gərəkdir. Öncə qeyd edək ki, geri qaytarma ən yaxşı şəkildə müvafiq beynəlxalq hüquqi razılaşma çərçivəsində baş verdikdə təmin edilir. Qayıdış prosesi beynəlxalq ictimaiyyətdən müvafiq təhlükəsizlik, humanitar və sosial-iqtisadi yardım tələb edəcək. Geri qayıtmış əhalinin yenidən qovulmasının, onlara qarşı ayrı-seçkiliyin və zərərin qarşısını almaq üçün beynəlxalq sülhü qoruma, monitorinq, hesabatlılıq, müdaxilə və digər zəruri fəaliyyətlər zəruri olacaq. Qayıdanların davamlı reabilitasiyasını və yenidən inteqrasiyasını təmin etmək üçün beynəlxalq nəzarət altında müvafiq yenidənqurma və barışıq tədbirlərinə ehtiyac duyulacaq.

Bir daha qeyd etmək istərdik ki, bizim təhlükəsiz və ləyaqətli qayıdış hüququmuzun təmin edilməsinə dair Ermənistandan qanuni tələbimiz bu ölkənin ərazi bütövlüyünə və ya suverenliyinə xələl gətirəcək şəkildə yanlış tövsif edilə bilməz.

İnsan hüquqlarına əsaslanan ədalət və barışığa nail olmaq üçün dialoqa başlamaq xahişi ilə biz birbaşa Ermənistan hökumətinə müraciət etmişik.

Biz insan hüquqlarına və insanların qanun qarşısında bərabərliyinə inanırıq. Ermənistandan qovulmuş azərbaycanlıların hüquqlarına məhəl qoymamaq ədalətsizliyin davam etməsidir. Bu, beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasına heç cür yardım etmir.

Odur ki, sizdən xahiş edirik ki, BMT-nin Baş katibi kimi xoş niyyətlərinizlə bizim işimizə dəstək olasınız və aşağıdakı vəzifələri yerinə yetirə biləcək BMT-nin qurumlararası missiyasını Ermənistana göndərəsiniz:

- ümumi vəziyyəti qiymətləndirmək, təhlükəsiz və ləyaqətlə könüllü qayıdışa əlverişli şəraitin yaradılması üçün addımlar müəyyən etmək;

- beynəlxalq humanitar yardım və uzunmüddətli reabilitasiya, reinteqrasiya proqramları kimi repatriasiya prosesinin ehtiyaclarını müəyyən etmək;

- geri qayıdan azərbaycanlıların hüquqlarını, azadlıqlarını və təhlükəsizliyini, onların reinteqrasiyasını təmin etmək üçün Ermənistanın həyata keçirməli olduğu qanunvericilik və icraedici tədbirləri, habelə barışığa nail olmaq üçün atmalı olduğu addımlarını müəyyən etmək;

- Azərbaycan mədəni irsinin vəziyyətini qiymətləndirmək, zərər vurulmuş və məhv edilmiş irs nümunələrinin bərpası üçün tələb olunan addımları müəyyən etmək;

- azərbaycanlılara məxsus qanunsuz zəbt olunmuş əmlakın inventarlaşdırılmasını aparmaq;

- münaqişənin Ermənistandakı evlərini tərk etməyə məcbur qalmış etnik azərbaycanlıların hüquqlarına təsiri barədə məlumat toplamaq;

- Ermənistanın qovulmuş azərbaycanlı sakinlərinin bu ölkədəki evlərini, qəbiristanlıqlarını, müqəddəs yerlərini və mədəni irsini ziyarət etmələrinə imkan yaradan etimad quruculuğu tədbirləri hazırlamaq və həyata keçirmək;

- repatriasiyanın dəstəklənməsi məqsədi ilə beynəlxalq aləmin mümkün təhlükəsizlik rolunu müəyyən etmək üçün təhlükəsizlik vəziyyətinin texniki-səhra qiymətləndirməsini həyata keçirmək.

Maraqlı tərəf olaraq biz Ermənistandan qovulmuş azərbaycanlıların geri qayıtmaq hüququnun təmin edilməsi istiqamətində fəaliyyətin həyata keçirilməsində BMT ilə qarşılıqlı əməkdaşlıq etməyə və bununla da regionda ədalətin, sülhün və təhlükəsizliyin bərqərar edilməsinə yardım etməyə hazırıq".

# Azərbaycanın adekvat tədbirləri hər zaman təxribatçı və təhrikçi addımlara cavab olub

**"İranın Azərbaycandakı səfirliyinin 4 əməkdaşının diplomatik statusa uyğun olmayan və Diplomatik Əlaqələr haqqında 1961-ci il Vyana Konvensiyası ilə ziddiyyət təşkil edən fəaliyyətinə görə "persona non-grata" elan edilməsi ilə bağlı İranın Xarici İşlər Nazirliyinin mətbuat katibi Nasir Kənaninin 7 aprel tarixli şərhi qərəzli və emosionaldır".**

AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə sözügedən məsələyə dair şərhində bildirib.

"Azərbaycan tərəfindən görülmüş tədbirin qonşuluq prinsiplərinə zidd olduğu barədə İran tərəfinin iddiası ilə bağlı bildiririk ki, Azərbaycan ərazisində qanunsuz fəaliyyət qonşuluq əlaqələri ilə uzlaşmır və cavab olaraq atılan addımlar Vyana Konvensiyası çərçivəsindədir", - deyə Ayxan Hacızadə bildirib.

Onun sözlərinə görə, İslam həmrəyliyi dindən siyasi məqsədlər üçün istifadəni, müsəlman qonşuların daxili işlərinə müdaxiləni istisna edir, eyni zamanda digər müsəlman ölkənin ərazilərinin hərbi işğalına dəstəyi ehtiva etmir.

Diqqətə çatdırılıb ki, Azərbaycan öz qonşuları ilə münasibətləri daim qarşılılıq prinsipi əsasında qurub və bu münasibətlərin pozulmasında heç zaman maraqlı olmayıb. Azərbaycan tərəfindən görülən adekvat tədbirlər hər zaman təxribatçı və təhrikçi addımlara cavab olub.



# Zərifə Əliyeva - 100

# Görkəmli alim, mərhəmətli

## Azərbaycan Milli Elmlər Akademiyası, Milli Məclisin Səhiyyə

*Azərbaycan Milli Elmlər Akademiyası, Milli Məclisin Səhiyyə komitəsi və "Azərbaycan" qəzetinin birgə təşkilatçılığı ilə görkəmli oftalmoloq alim, Əməkdar elm xadimi, akademik Zərifə Əliyevanın anadan olmasının 100 illik yubileyinə həsr edilmiş elmi konfrans keçirilib. Tədbirdən əvvəl konfrans iştirakçıları Fəxri xiyabanda müasir Azərbaycan dövlətinin qurucusu, Ümummilli Lider Heydər Əliyevin və görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın xatirəsini anıb, məzarları önünə tər çiçəklər düzüblər.*

*AMEA Rəyasət Heyətinin binasında keçirilən konfransda AMEA-nın prezidenti, akademik İsa HƏBİBBƏYLİ, Milli Məclisin Səhiyyə komitəsinin sədri, akademik Əhliman ƏMİRASLANOV, səhiyyə nazirinin müavini Nadir ZEYNALOV, "Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Bəxtiyar SADIQOV çıxış etmişlər. Konfrans materiallarının davamını təqdim edirik.*

***AMEA-nın vitse-prezidenti, akademik İradə HÜSEYNOVA** qeyd etdi ki, dünya tarixində az sayda alim, pedaqoq və ictimai xadimlər olmuşdur ki, yaşayıb-yaratdıqları, insanlıq qarşısında əvəzsiz xidmətləri, xeyirxah əməlləri, yolunu davam və inkişaf etdirən mötəbər ardıcılları, gözəl tərbiyə və təhsil almış övladları ilə sağlığında müqəddəslik qazansın, cismani yoxluğuna baxmayaraq, əbədi həyatla mükafatlandırılsın.*



- Qədirbilən Azərbaycan xalqının əziz övladı, yüksək mənəviyyata, güclü genetik istedada, mərhəmətli, kövrək qəlbə, ən saf mənəvi dəyərlərə və milli ruha sahib olması ilə fərqlənmiş görkəmli alim və təbib, Əməkdar elm xadimi, AMEA-nın həqiqi üzvü, tibb elmləri doktoru, professor Zərifə xanım Əliyeva məhz xalqımızın yaddaşında heç zaman silinməyəcək şərəfli bir yer tutmuş bu cür şəxsiyyətlərdəndir.

Nursuz gözlərə işıq, qəlblərə həyat eşqi bəxş edən, ətrafına gözəlliklər saçan mələk misallı bu böyük insanın əməl dəftəri yoxluğunda belə təsirini itirməyən xeyirxah işləri, insanlara və insanlığa fayda verən elmi, valideynlərinə və Vətəninə daim xeyir-dua ilə yanaşan gözəl övladları səbəbindən, məşhur bir hədisdə deyildiyi kimi, bu gün də qapanmamışdır və heç zaman qapanmayacaqdır.

Azərbaycanda olduğu kimi, onun hüdudlarından kənarda da tanınmış ziyalı nəslin layiqli davamçısı, sədaqətli ömür-gün yoldaşı, qayğıkeş ana, dünya tibb elminə əvəzolunmaz töhfələr vermiş görkəmli oftalmoloq alim və xeyirxah insan kimi şərəfli bir ömür yaşamış Zərifə xanımın həyatının hər bir anı mənəvi kamillik və müdriklik məktəbidir. Geniş dünyagörüşü, fitri istedadı və intellekti ilə seçilmiş bu böyük insan ömrünü zərrə-zərrə ailəsinin, övladlarının və xalqının gələcəyi üçün şam kimi əritmiş, insanlara sevgisi, geniş dünyagörüşü və dərin bilikləri sayəsində böyük uğurlara imza atmışdır.

Oftalmologiya elminin korifeyinin zəngin elmi irsi, oftalmologiyanın müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, əldə etdiyi mühüm nailiyyətlər, bunların əsasında yaratdığı fundamental əsərlər Azərbaycan tibb elminin parlaq səhifələridir.

Zərifə Əliyeva 28 aprel 1923-cü ildə Naxçıvanın Şahtaxtı kəndində seçilən Əməkdar həkim, professor Əziz Əliyevin ailəsində dünyaya göz açmışdır. Əziz müəllim ömür-gün yoldaşı Leyla xanımla övladlarını Vətənə, torpağa, xalqa sədaqət, əslə, kökə bağlılıq, elmə, biliyə, zəhmətə hörmət və məhəbbət ruhunda böyüdə bilmişdi. Uşaqların şəxsiyyət kimi formalaşmasında ailə mühiti və genetik faktorlarla yanaşı, Əziz Əliyevin yaxın dostları olan Üzeyir bəy Hacıbəyli, Müslim Maqomayev, Mirəsədulla Mirqasımov, Bülbül, Səməd Vurğun və digər öz dövrünün tanınmış elm və mədəniyyət xadimlərinin onların evində apardıqları söhbətlər, dünyaya və həyata baxışlara dair fikir mübadilələri önəmli rol oynamışdır.

Əziz Əliyev 1941-1942-ci illərdə Azərbaycan KP MK katibi, sonra isə altı il Dağıstan Respublikası MK-nin birinci katibi işləmiş, həmçinin müəyyən müddət İranda səlahiyyətli partiya işçisi kimi fəaliyyət göstərmişdi. Ailə başçısını evdə az gördüklərindən ailə qayğıları, uşaqların təhsil məsələlərinə nəzarət Leyla xanımın üzərinə düşürdü. Leyla xanım da Əziz müəllim kimi, qızının institut seçimini dəstəkləmiş, ona ürəkdən xeyir-dua vermişdi.

Zərifə xanım 1947-ci ildə institutu əla qiymətlərlə bitirdikdən sonra Moskva şəhərində Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda oftalmologiya üzrə ikiillik ixtisas kursu keçmiş, SSRİ-nin bu nüfuzlu elm müəssisəsində Bakıda əldə etdiyi biliklərini xeyli zənginləşdirmişdir. Qarşısına qoyduğu məqsədlərə sadiqliyi və elmi tədqiqatlara böyük marağı Zərifə xanımı vətənə dönərək Azərbaycan SSR Səhiyyə Nazirliyinin Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutuna gətirmişdir. O, 1949-cu ildə bu institutda ordinator kimi fəaliyyətə başlamış, eyni zamanda aspiranturaya daxil olmuşdur. Zərifə xanımın ilk tədqiqatının mövzusunu yaşadığı dövr özü diktə etmişdi. 1953-cü ildə aspiranturanı bitirdikdən sonra Zərifə Əliyeva traxoma ilə mübarizə üzrə müalicə-profilaktika tədbirlərinin təşkilində və həyata keçirilməsində fəal iştirak edirdi.

Alim tərəfindən hazırlanmış və apardığı ciddi əsaslı tədqiqatlarla effektivliyi həm nəzəri, həm də praktiki şəkildə isbat olunmuş müalicə metodu traxomanın sosial xəstəlik kimi ləğv edilməsində əhəmiyyətli rol oynamışdır. Bu istiqamətdə Zərifə xanım Əliyevanın tarixi xidmətləri danılmazdır və dünya elmi ictimaiyyəti tərəfindən hər zaman yüksək qiymətləndirilmişdir.

Zərifə Əliyeva 1967-ci ildə Azərbaycan SSR Səhiyyə Nazirliyinin Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Göz xəstəlikləri kafedrasının dosenti vəzifəsinə dəvət olunmuş, 1969-cu ildən burada Göz xəstəlikləri kafedrasının Görmə orqanının peşə patologiyası laboratoriyasının müdiri vəzifəsində çalışmışdır. Ömrünün sonuna kimi institutda çalışan Zərifə xanım 1977-1979-cu illərdə kafedranın professor əvəzi, 1979-1982-ci illərdə professoru, 1982-1985-ci illərdə müdiri vəzifələrində çalışmışdır.

Həmin illərdə alim-təbib təcrübi təbiblik fəaliyyəti ilə məşğul olur, çoxsaylı mürəkkəb əməliyyatları icra edir, xəstələrə və müxtəlif peşə sahibləri olan sağlam insanlara məslələhətlər verirdi.

1968-ci ildən Zərifə xanım Əliyevanın elmi tədqiqatlarının əsas istiqamətini görmə orqanının patologiyaları və xüsusən peşə ilə əlaqədar əmələ gələn göz xəstəliyi problemləri təşkil etmişdir. Həmin dövrlərə



qədər müxtəlif sənaye müəssisələrində çalışan şəxslərin görmə orqanına təsir edən amillər, bu amillərin doğurduğu patologiyalar az tədqiq edilmişdi. Zərifə xanım məhz yüksəkixtisaslı həkim-oftalmoloq və həssas qəlbli, yüksək insani keyfiyyətlərə malik alim kimi qeyd edilən problemlərə diqqət yetirməyə bilməzdi.

Alim bu problem üzərində iş apararkən çox vaxt sənaye müəssisələrinə gedir, zərərli peşə sahələrində çalışan şəxsləri oftalmoloji müayinədən keçirirdi. Bakının və Sumqayıtın bir sıra sənaye müəssisələrinin, o cümlədən Şin zavodunun sexlərində laboratoriya şəraitində elmi təcrübələr aparırdı. Bununla da Zərifə xanım genişmiqyaslı klinik və təcrübi tədqiqatlar nəticəsində zərərli maddələrin görmə orqanına təsirinin əsas qanunauyğunluğunu aşkara çıxara bilmişdi.

Görkəmli alim oftalmologiyanın müxtəlif istiqamətlərinə aid 150-dən çox elmi məqalə, 14 monoqrafiya, 12 səmərələşdirici təklifin müəllifi kimi dünya tibb elmində silinməz izlər buraxmışdır. Bir alim kimi çox böyük zirvələri fəth etməyi bacarmış Zərifə Əliyevanın əsərləri, elmi monoqrafiyaları bu gün də öz aktuallığını qoruyub saxlamaqla, oftalmoloqların stolüstü kitablarına çevrilmişdir.

Zərifə xanımın elmi-pedaqoji fəaliyyəti bununla məhdudlaşmır, bütün oftalmoloji müəssisə və şöbələri, kadrların təkmilləşdirilməsi prosesini də əhatə edirdi. Qeyd etmək lazımdır ki, Zərifə xanım Əliyeva yüksəkixtisaslı kadrların hazırlanmasına böyük əmək sərf etmişdir. Onun birbaşa rəhbərliyi ilə gənc alimlərin və həkim-oftalmoloqların böyük bir nəsli yetişmişdir. Görkəmli alim tələbələrinə zəngin elmi təcrübəsini öyrətmiş, onlara diqqət və qayğı ilə yanaşmışdır.

Zərifə Əliyeva hər zaman ətrafına bacarıqlı və savadlı gənc həkimləri toplamaqla elmi tədqiqat işlərini uğurla təşkil etmişdi. 1977-ci ildə onun təşəbbüsü ilə ilk dəfə olaraq Bakıda keçirilən Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti İdarə Heyətinin plenumunun təşkilati işləri böyük təcrübə və idarəçilik qabiliyyəti tələb edirdi ki, Zərifə xanım bunun öhdəsindən uğurla gələ bilmişdi. Bu plenum həm Azərbaycanda, həm də keçmiş ittifaqın tanınmış akademik müəssisələrində oftalmoloji xidmətin inkişafında, elmi və elmi-pedaqoji kadrların hazırlanmasında böyük rol oynamışdı.

Akademik Zərifə Əliyeva çoxillik gərgin elmi axtarışlar və eksperimental tədqiqatlar nəticəsində istehsalatda aşağı intensivlikli zərərli maddələrin görmə orqanına təsirinin mühüm qanunauyğunluqlarını aşkar etmişdir. Onun çoxşaxəli elmi fəaliyyətinin əsas istiqamətlərini traxoma xəstəliyinin klinikası, görmə orqanının fiziologiyası və peşə xəstəliklərinin təsiri nəticəsində baş verən göz patologiyalarının profilaktikası, diaqnostikası və müalicəsi, kimya sənayesi müəssisələrinin işçilərində görmə orqanının vəziyyəti, herpetik göz xəstəlikləri, görmə orqanının virusla zədələnməsi, ağır virus konyunktivitləri, gözün hidrodinamik sisteminin fizioloji-anatomik xarakteristikası, göz sulanmasının müasir cərrahiyyə üsulları ilə müalicəsi, şəkərli diabet zamanı göz xəstəlikləri, terapevtik oftalmologiya, iridodiaqnostikanın əsasları, qlaukoma problemləri və sair təşkil etmişdir.

Alimin Azərbaycan xalqı qarşısında ən böyük xidmətlərindən biri də traxomanın kökünün kəsilməsini qarşısına məqsəd qoyması və buna nail olmasıdır.

Zərifə Əliyeva həmçinin göz zədələrinin qarşısının alınması və onlara nəzarət imkanlarını öyrənmişdir. O, gözün zədələnməsinin nəticələrinin cərrahi müalicəsinə mövcud metodoloji yanaşmaları təhlil etmiş və onların təkmilləşdirilməsi üçün bir sıra faydalı tövsiyələr vermişdir.

Tibb elmində "peşə oftalmologiyası"nın əsasını qoymuş Zərifə xanım Əliyeva keçmiş SSRİ-nin oftalmologiya elminə görmə orqanının peşə xəstəliklərinin öyrənilməsi və profilaktikası üçün yeni üsulların işlənməsi kimi elmi yenilik gətirmişdir. Bu yeniliklər "Görmə orqanının peşə patologiyası", "Yod sənayesində peşə xəstəliklərinin profilaktikası", "Xroniki yod intoksikasiyası zamanı oftalmopatologiya", "Şin istehsalında gözün peşə patologiyası" kimi kitab və monoqrafiyalarında əks edilmişdir. Oftalmologiyanın sənaye ilə bağlı problemlərinin öyrənilməsinə həsr etdiyi fundamental tədqiqatları alimə dünya miqyasında böyük şöhrət qazandırmışdır.

Zərifə xanımın təxminən 40-50 il bundan əvvəl apardığı tədqiqatlarda müasir elm qarşısında qoyulan əsas tələblərdən birinin, yəni elmlə istehsalatın sıx əlaqəsinin təmin edilməsinin bariz nümunəsini görmək mümkündür.

Zərifə Əliyeva gözün çoxsaylı oftalmoloji müayinələri ilə yanaşı, ilk dəfə olaraq, elektrofizioloji metodlardan da geniş istifadə etmişdir. Aparılan eksperimental tədqiqatlarda toksik maddələrin və bəzi fiziki amillərin gözün torlu qişasında funksional vəziyyətə, sərbəst radikal proseslərə, neyromediatorların səviyyəsinə təsiri öyrənilirdi. Həmin tədqiqatların nəticələri bu gün də mütəxəssislər arasında böyük maraq doğurur.

Zərifə xanım əsl ziyalılığın genetik yaddaşına malik bir insan idi. Ziyalı zəkası onun bilik və təhsilində, ətrafına yaydığı işıqda, zəriflik, təmkin və nəcibliyində, insanlığa və insanlara sevgisində, sevimli peşəsinə və ailəsinə bağlılığında özünü göstərirdi.

Ulu Tanrının ən yüksək mənəvi xüsusiyyətlər bəxş etdiyi Zərifə xanım müasir Azərbaycan dövlətinin memarı və qurucusu, bütün mənalı ömrünü Vətəninin və xalqının tərəqqisinə həsr etmiş dahi şəxsiyyətin - Ulu Öndər Heydər Əliyevin məslək, əqidə və əməl silahdaşı, vəfalı ömür-gün yoldaşı olmuş, müasir Azərbaycanın lideri, millətin müzəffərlik və qalibiyyət tarixinə yeni-yeni səhifələr yazan görkəmli dövlət xadimi, cənab Prezident İlham Əliyevin insan və şəxsiyyət kimi təşəkkülündə şəfqətli ana kimi həlledici rol oynamışdır.

Zərifə xanım oftalmologiya elminin korifeyi, ziyalı və işıqlı bir şəxsiyyət, görmə problemli insanlara və ümumən ətrafındakı hər kəsə nur paylayan, gözlərə işıq, qəlblərə həyat eşqi bəxş edən, ətrafına gözəlliklər saçan mələk misallı bir insan olmuşdur.

Görkəmli alim və təbibin zəngin elmi irsi, oftalmologiyanın müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, əldə etdiyi mühüm nailiyyətlər, bunların əsasında yaratdığı fundamental əsərlər Azərbaycan tibb elminin parlaq səhifələridir.

Bəşəriyyətin ən qiymətli sərvəti olan xeyirxahlıq, həya və saflıq fani aləmdə əbədiyyəti, daimi mənəvi ucalığı təmin edir. Yüksək mənəviyyata, mərhəmətli, kövrək qəlbə, ən saf mənəvi dəyərlərə sahib olmuş Zərifə xanım Əliyeva həyatı və əməlləri ilə hələ sağlığında müqəddəslik qazanmış bir şəxsiyyətdir. Onun malik olduğu və qazandığı nə varsa, Allah tərəfindən verilmiş nemətlərdir.

Ölkəmizin sürətli inkişafı, möhtəşəm uğurları, dünyadakı nüfuzu ilə fəxr edərək, cənab Prezidentin bilik və bacarıqlarının, qətiyyət və müdrikliyinin əsasında həm Ulu Öndərin, həm də Zərifə xanımın təsirini aydın görürük.

Dünyasını dəyişsə də, böyük alimin elmdə açdığı cığırlar nəinki boş qalmadı, hətta genişləndikcə genişləndi, elmi məktəbi inkişaf edərək şaxələndi, xalqa, insanlara fayda verməyə, nur paylamağa davam etdi, ərsəyə gətirdiyi elmi və həkim kadrlar öz fəaliyyətləri, gözəl əməlləri ilə müəllimlərinin adını daha da ucaltdılar.

Elmdə və həkimlik fəaliyyətində əldə etdiyi nailiyyətlər, irəli sürdüyü ideyalar, yeni metodlar həm ölkədə, həm də xaricdə bu günə qədər tətbiq olunmaqda, yeni-yeni tədqiqatlara başlanğıc verməkdədir.

*Zərifə xanımın əsas həyat amalının insanların gözlərinə nur vermək, onların həyatlarına işıq bəxş etmək olduğunu söyləyən **akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin baş direktoru, AMEA-nın müxbir üzvü Elmar QASIMOV** bildirdi ki, bu müqəddəs yolda əlindən gələni əsirgəməyən, hər zaman öz peşəsini uca zirvələrə qaldıran güclü və əzmkar alim həm də oftalmologiya elmi üçün əvəzsiz miras qoyub:*

- Akademik Zərifə Əliyeva deyirdi ki, "Həkim insanlardan özünü ayırmamalı, özünü sevən, laqeyd insan olmamalıdır". Onun həyatı özündən sonrakı nəsillər üçün bir örnək olmuşdur. Elə şəxslər var ki, onların xalqı qarşısında xidmətləri əvəzolunmazdır. Belə insanlar həmin zirvəni qeyri-adi əməksevərliyi, təmənnasız xeyirxahlığı, fitri istedadı, nadir bilik və qabiliyyətləri hesabına fəth edirlər. Məhz bu insanlardan biri humanist, görkəmli ictimai xadim, oftalmoloq-alim Zərifə xanim Əliyevadır. Zərifə xanımın çox mənalı və şərəfli həyat yolu olmuşdur.

1947-ci ildə N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunda təhsilini tam yekunlaşdırdıqdan sonra Zərifə xanım Moskva Həkimləri Təkmilləşdirmə İnstitutunda oftalmologiya üzrə ixtisaslaşma kursunu bitirmiş və əmək fəaliyyətini 1949-cu ildə Azərbaycan Elmi-Tədqiqat Oftalmologiya İnstitutunda ordinator vəzifəsində başlamışdır. 1950-1953-cü illərdə akademik Zərifə Əliyeva institutun aspiranturasında elmi hazırlığını keçib, burada kiçik elmi işçi vəzifəsində fəaliyyətinə başlamışdır.

XX əsrin 40-50-ci illərində Azərbaycanın bir çox cənub rayonlarının əhalisi arasında traxoma xəstəliyinin şiddətli yayılması ilə əlaqədar Zərifə xanım Elmi-Tədqiqat Oftalmologiya İnstitutu tərəfindən bu xəstəliyə qarşı aparılan mübarizədə fəal iştirak etmiş, ona həvalə edilmiş Əli Bayramlı (indiki Şirvan) rayonunda çətinliklərə baxmayaraq traxomaya qarşı tədbirlər kompleksini yerinə yetirmişdir. Aparılan böyük praktiki iş Zərifə xanımın ilk elmi əsərlərinin əsası olmuşdu. Fəal elmi



axtarışlar traxomanın və onun fəsadlarının bir neçə müalicə üsullarının işlənilməsi ilə nəticələnmişdir. 1959-cu ildə Zərifə Əliyeva "Traxomanın digər terapiya üsulları ilə birgə sintomisinlə müalicəsi" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir. Zərifə xanım Azərbaycan Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda 1967-ci ilə qədər 18 il ərzində böyük əmək yolu keçmişdir.

Həmin illərdə o, virus və bakterial konyunktivitləri, keratitlər və gözün ön kəsiyinin digər kəskin və xroniki xəstəliklərinə dair bir sıra elmi əsərləri, o cümlədən "Kəskin virus konyunktivitləri" və "Gözün herpetik xəstəliyi" əsərlərini yaratmışdır. 1960-ci illərin sonunda Zərifə xanım Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Göz xəstəlikləri kafedrasına keçmiş və burada əvvəl assistent, sonralar professor və 1982-ci ildə kafedra müdiri vəzifələrini tutaraq, oftalmologiyanın yeni istiqaməti olan görmə üzvünün peşə patologiyası problemi ilə yaxından məşğul olmağa başlamışdır. O, müxtəlif peşə zərərlərinin, o cümlədən toz, talk, his, kanifol, təbaşir kimi şin və yod istehsalının toksik amillərinin, respublikada inkişaf etmiş kimya istehsalının digər toksik maddə və məhsullarının görmə orqanına zərərli təsirinin biokimyəvi mexanizmini öyrənmiş və bir çox yeni elmi faktlar aşkar etmişdir. Dünya ədəbiyyatında belə fundamental tədqiqatların analoqu yoxdur.

Bu klinik-eksperimental tədqiqatlar Zərifə xanımın 1976-cı ildə Helmholts adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda müvəffəqiyyətlə müdafiə olunmuş "Azərbaycanın kimya sənayesinin bəzi müəssisələrinin işçilərində görmə üzvünün vəziyyəti" mövzusunda doktorluq dissertasiyasının materialını təşkil etmişdir. Bu gün oftalmologiyanın həmin istiqamətdə inkişafı davam edir. Hal-hazırda bir neçə gənc oftalmoloq bu istiqamətdə elmi işləri davam etdirir və yaxın zamanda bu elmi işlər işıq üzü görəcək.

1979-cu ildə Zərifə xanımın böyük təşkilatçılıq qabiliyyəti sayəsində, şəxsi təşəbbüsü və iştirakı ilə Azərbaycan Elmlər Akademiyasının A.İ.Qarayev adına Fiziologiya İnstitutu ilə birgə Bakı məişət kondisionerləri zavodunda işçilərin görmə üzvünün fiziologiyası və peşə patologiyası üzrə problem laboratoriyası yaradılmışdır. Burada Zərifə xanım müxtəlif kimyəvi maddələrin və istehsalat tullantılarının görmə üzvünə və onun əlavə aparatına xroniki təsiri mexanizminin tədqiqi, bu təsirə qarşı profilaktik tədbirlərin və tətbiq üsullarının işlənilməsində böyük müvəffəqiyyətlər qazanmışdır.

Gənc, qabiliyyətli, geniş elmi planlarını həyata keçirməyə qadir olan mütəxəssisləri öz ətrafında toplayaraq Zərifə xanım zərərli maddələrin fəhlələrin görmə orqanına təsirini hərtərəfli öyrənmişdir. Müayinə edilmiş kontingentdə göz qapaqları, konyunktiva, gözyaşı yollarının dəyişikliklərinin, buynuzlu qişa həssaslığının zəifləməsinin, torlu qişanın, damarlı yolların, görmə sinirinin distrofik dəyişikliklərinin, işıq-rəng duyğularının zəifləməsi tezliyinin artması təsdiq olunmuşdur. Stirol buxarının təsirindən əmələ gələn inadlı, residiv verən və qapaqların dermatiti ilə müşayiət edilən peşə konyunktivitinin klinikasını məhz Zərifə xanım ilk dəfə təsvir etmişdir.

Zərifə xanım kimya istehsalat müəssisələrində işçilərin gözlərinin peşə zədələnmələrinə qarşı kompleks sanitar-gigiyenik tədbirlərin işlənilməsi və həyata keçirilməsinə nail olmuş, əmək şəraitinin yaxşılaşdırılması üçün misilsiz işlər görmüşdür. Onun görmə üzvünün peşə patologiyası probleminə həsr olunmuş fundamental tədqiqatlarının nəzəri və təcrübi əhəmiyyəti çox böyükdür. Bu tədqiqatlar 1980-ci ildə çap olunmuş "Şin istehsalatında görmə üzvünün peşə patologiyası" monoqrafiyasında, 1981-ci ildə isə dərc edilmiş "Xroniki yod intoksikasiyası nəticəsində oftalmopatologiya" monoqrafiyasında öz əksini tapmışdır.

Kimya istehsalında görmə üzvünün zədələnmələrinin profilaktikasına həsr olunmuş orijinal elmi əsərləri silsiləsinin çap olunması ilə əlaqədar, 1981-ci ildə Z.Əliyeva keçmiş Sovet İttifaqının Tibb Elmləri Akademiyasının oftalmoloqlar üçün ən nüfuzlu olan akademik M.İ.Averbax adına mükafatı ilə təltif edilmişdir. Zərifə xanım bu yüksək mükafata layiq görülmüş ilk qadın alim olmuşdur.

Görkəmli alimin elmi fəaliyyətinin əsas istiqamətlərindən biri də gözyaşı aparatının fiziologiyası, gözyaşı yollarının xəstəlikləri patogenezinin öyrənilməsi və onların cərrahi müalicəsi üsullarının işlənilməsi olmuşdur. Zərifə xanımın rəhbərliyi altında dakriosistitin yeni, daha effektiv və fizioloji cərrahi müalicə üsulları işlənib təcrübədə tətbiq edilmiş, həmin cərrahi əməliyyatların aparılması üçün yeni alətlər ixtira olunmuş və gözyaşı kisəsi fleqmonasının kompleks müalicə üsulu işlənilmişdir. Bu problemə Zərifə xanımın bir sıra elmi əsərləri həsr olunmuşdur, onların arasında "Gözyaşı axmasının fiziologiyası" monoqrafiyası xüsusi yer tutur. Zərifə xanım oftalmomorfoloji, histomikroskopik və histokimyəvi tədqiqatlara həsr olunmuş elmi əsərlərin də müəllifidir. Onların arasında "Gözün və görmə sinirinin yaşla əlaqədar dəyişiklikləri" və "Gözün hidrodinamik sisteminin anatomik-fizioloji xüsusiyyətləri" monoqrafiyalarını qeyd etmək olar.

(Əvvəli qəzetin 7 aprel sayında)



# Zərifə Əliyeva - 100

# insan, müqəddəs ana

## komitəsi və "Azərbaycan" qəzetinin birgə elmi konfransı

Onun elmi fəaliyyətinin bir istiqaməti də klinik-diaqnostik müayinələr olmuşdur ki, bunların nəticəsində həkimlər üçün hazırlanmış bir sıra tədris kitabları nəşr edilmişdir, bu sırada ilk növbədə "Terapevtik oftalmologiya" və oftalmoloji cəmiyyətdə böyük məmnuniyyətlə qəbul edilmiş "Oftalmologiyanın aktual problemləri" kimi gözəl monoqrafiyaları göstərmək lazımdır. Zərifə xanım deontologiya və həkim etikası məsələləri ilə yaxından məşğul olmuş və bu haqda öz fikirlərini "Yüksək əqidə" adlı gözəl monoqrafiyasında yekunlaşdırmışdır.

Zərifə xanım Əliyevanın elmi fəaliyyətinin çox maraqlı və perspektiv istiqamətlərindən biri iridodiaqnostika və iridoterapiya problemi olmuşdur. Bu tədqiqatların əhəmiyyəti oftalmologiya çərçivəsindən çıxır. Zərifə xanımın elmi axtarışlarının nəticəsi "Gözün bəbək haşiyəsinin adaptasiya-qoruyucu vəzifəsi haqda" elmi işinin və o zaman Sovet İttifaqında ilk dəfə çıxan, tayıbərabəri olmayan iki monoqrafiyanın nəşr edilməsi olmuşdur. Bu monoqrafiyaların biri "İridodiaqnostikanın əsasları" Bakıda, ikincisi "İridodiaqnostika" Moskvada çapdan çıxmışdır. O, buynuzlu qişa, sklera, büllur kimi parairidal strukturların patoloji dəyişiklikləri və qüzehli qişada olan markerlər arasında diaqnostik əlaqələrin mövcudluğu haqda gözəl fikirlər söyləmişdir, bu da yeni maraqlı tədqiqatların başlanğıcı üçün bir təkan olmuşdur. Zərifə xanım Əliyevanın tibbi elm və təcrübəyə, tibbi kadrların hazırlanması işinə töhfəsi çox böyük və qiymətli olub. Onun elmi irsinə 14 monoqrafiya, 170-dən artıq elmi əsər, o cümlədən ixtiralar, metodik tövsiyələr və səmərələşdirici təkliflər daxildir.

Zərifə xanımın çoxtərəfli elmi fəaliyyətinin, nəzəri və təcrübi təbabəti zənginləşdirmiş şəxsi töhfəsinin, elmi və həkim kadrlarının hazırlanması işinin nəticəsi 1983-cü ildə onun Azərbaycan Respublikasının Elmlər Akademiyasının həqiqi üzvü seçilməsi ilə əlamətdar olmuşdur. Gərgin elmi fəaliyyəti ilə yanaşı, Zərifə xanım müəllimlik işinə və tədris prosesinin təşkilinə böyük diqqət yetirirdi. O, istedadlı müəllim və çox gözəl mühazirəçi idi, gənc həkimlərə və elmi əməkdaşlarına öz geniş biliklərini böyük məmnuniyyətlə çatdırırdı. Üslubunun sadəliyi və gözəl, bədii ifadəsi, fikir dərinliyi və aydınlığı, yüksək nəzəri səviyyəsi, qeyri-adi erudisiyası, məharətlə hazırlanmış əyani material, zəngin klinik təcrübəsindən çəkilmiş misallar, ziyalı siması dinləyiciləri heyran edirdi. Zərifə xanımın təcrübi, həkimlik işini də xüsusi qeyd etmək lazımdır. Məntiqli zəkaya, aydın təfəkkürə malik olaraq, Zərifə xanım çox gözəl, diqqətli, xəstəliyin gözə çarpmayan əlamətlərinin axtarışında yorulmaz bir diaqnost və klinisist olmuşdur. O, müşahidələrini bir anda ümumiləşdirməyi bacarırdı və yeganə düzgün qərara gələ bilirdi. Akademikin praktiki oftalmologiyada geniş bilikləri, bir çox dərman preparatının xüsusiyyətlərinə əla bələd olması xəstələrin müalicəsini yüksək səviyyədə aparmağa imkan verirdi. Onun prinsipiallığı, vətəndaş cəsarəti Elmi Şuranın iclaslarındakı, konfrans və qurultaylardakı, digər yüksəksəviyyəli toplantılardakı gözəl çıxışlarında həmişə öz əksini tapırdı.

Akademik Zərifə Əliyeva böyük ictimai iş də aparırdı. O, keçmiş ittifaqın Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsinin sədr müavini, Ümumittifaq "Bilik" Cəmiyyətinin İdarə Heyətinin üzvü, Ümumittifaq Oftalmoloqlar Cəmiyyətinin Rəyasət Heyətinin üzvü, "Vestnik oftalmoloqii" jurnalının redaksiya heyətinin üzvü olmuşdur. Akademik Zərifə Əliyevanın xidmətləri orden və medallarla mükafatlandırılmışdır. Ona Azərbaycan Respublikası Əməkdar elm xadimi fəxri adı verilmişdir.

Azərbaycan Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutu 2001-ci ildən akademik Zərifə Əliyevanın adını daşıyır. Zərifə xanım Əliyeva bütün şüurlu həyatını, əməli fəaliyyətini milli oftalmologiyanın inkişafına həsr etmişdir, Azərbaycan oftalmologiyasının əsl fədaisi olaraq, dünyada onun tanınmasında mühüm rol oynamışdır. Zərifə xanımın oftalmologiyanın inkişafında xidmətləri çoxdur, onlardan biri 1977-ci ildə Bakıda yeni Oftalmoloji Mərkəzin tikintisi haqqında irəli sürülmüş təşəbbüsüdür. Belə mərkəzin yaradılması Zərifə xanımın arzularından biri idi.

Vaxtilə Ulu Öndər Heydər Əliyev və Zərifə xanım bu arzunun həyata keçirilməsi üçün böyük səy göstərmişlər, onların sayəsində mərkəzin təməli hələ SSRİ dövründə qoyulmuşdur. Həmin arzu artıq həyata keçmişdir. Bu işdə instituta Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva dəstək olmuşlar. Yüksək keyfiyyətli, dünya səviyyəli diaqnostik və cərrahi avadanlıqla təchiz edilmiş mərkəz on dörd ildir ki, fəaliyyət göstərir. Burada oftalmologiya sahəsində olan bütün texnoloji yeniliklərin tətbiqi nəticəsində elmi tədqiqatların və müalicə prosesinin dünya oftalmologiyasında qəbul olunmuş səviyyəyə yüksəlməsi məsələsi həll edilmişdir. Mərkəzdə hər bir şərait yaradılmışdır.

Respublika əhalisinə humanitar yardımın göstərilməsi çərçivəsinə mərkəzin səyyar avtomobil və dəmiryolu klinikalarının fəaliyyəti də daxildir. Müasir diaqnostik və cərrahi oftalmoloji avadanlıqla, muxtar elektrik, istilik, kondisioner sistemləri ilə təchiz edilmiş avtomobil və dəmiryolu qatarı hər bir şəraitdə işləyə bilirlər. Səyyar klinikalarda xəstənin müayinəsi və lazım gəldikdə cərrahi əməliyyatının aparılması üçün bütün imkanlar yaradılıb. Bu klinikalar 15 ildən artıqdır ki, ölkəmizin ən ucqar rayon və kəndlərinə müntəzəm şəkildə gedərək, əhaliyə yüksəkixtisaslı, müasir texnologiyalı cərrahi və terapevtik oftalmoloji yardım göstərirlər, Bakı şəhərinin müxtəlif ali tədris və digər müəssisələrində, məktəblərində və uşaq bağçalarında dispanserizasiya işini aparırlar. Bu günə qədər səyyar klinikalarda on minlərlə xəstə müayinə olunmuş, minlərlə xəstədə cərrahi əməliyyat aparılmışdır.

Mərkəzdə Zərifə xanımın əziz xatirəsinə həsr edilərək yaradılmış muzey hazırda bütün oftalmoloqların qürur hissi ilə ziyarət etdiyi bir məkandır. Burada Zərifə xanımın iş otağında istifadə etdiyi əşyalar, xəstələri müayinə etdiyi tibbi avadanlıqlar, müəllifi olduğu kitablar, elmi əsərlər, həyat yolunu əks etdirən çox dəyərli şəkillər, onunla ünsiyyətdə olmuş şəxslərin haqqında yazdıqları məqalələr yerləşdirilib. Bu muzeyə daxil olmuş hər bir şəxs üçün buradakı elmi kitablar və Zərifə xanımın elm və həyat yaradıcılığını əks etdirən dəyərli əsərlər əvəzsiz xəzinədir. Muzeydə qeyd olunmuş Zərifə xanımın dəyərli sözləri bütün insanlar üçün bir örnəkdir: "Həyatı nağıla çevirmək hər insanın öz əlindədir. Əsas odur ki, öz xeyirxahlığınla şərə qalib gələsən".

Bütün bu elmi fəaliyyəti ilə yanaşı, Zərifə xanım eyni zamanda qayğıkeş ana, gözəl, vəfalı ömür-gün yoldaşı olmuşdur. Bu ocaqda iki övlad böyüyüb. Onlar ata-anasına layiq, qəlblərində daim Azərbaycan sevgisi yaşadan, vətənimizin qüruru sayılan övladlardır. Zərifə xanım Əliyevanın adı Azərbaycanda fəxrlə, sonsuz qürur hissi ilə çəkilir. Ölkəmizdə ana adının ucalığı, ömür-gün yoldaşının



sədaqəti, həkimliyin müqəddəsliyi onun adı ilə əbədiləşir.

Bütün ömrü boyu insanlara xidmət etmiş bir insanın, görkəmli alimin, xeyirxah, qayğıkeş ananın adının xalqımızın yaddaşında əbədi həkk olunması bu gün hər bir azərbaycanlı üçün fəxrdir. Zərifə xanımın işıqlı obrazı yüksək vətənpərvərlik və humanizm rəmzi kimi həmişə bizimlə qalacaq, onun parlaq xatirəsi daim anılacaq və qəlblərdə yaşayacaqdır.

***AMEA-nın Qadınlar Şurasının sədri, professor Rəna MİRZƏZADƏ*** *qeyd etdi ki, dünya gender elmi tarixində qadın şəxsiyyətlər var ki, onların həyat və fəaliyyətinə nəzər yetirəndə yaşadığı dövrün ictimai-siyasi hadisələrinin təsirinə də diqqət etmək gərəkdir.*



- İstənilən millətin özünəməxsus tarixiləşən qadın şəxsiyyətləri vardır ki, onların xalq qarşısında xidmətləri unudulmazdır. İstedad, bilik, qabiliyyətləri ilə seçilənlər həm də əməksevər, xeyirxah olurlar. Belə qadın şəxsiyyətlərdən biri də Azərbaycan elmi və ictimai-siyasi dövlətçilik tarixində yeri olan akademik Zərifə Əliyevadır.

Yüzlərlə insanın gözünə nur, işıq verən Böyük Qadın, Böyük Ana olan akademik Zərifə Əliyevanın həyat yolu bir örnək, bir ailə məktəbidir. Bu məktəbin davamçısı Birinci vitse-prezident Mehriban Əliyeva Ulu Öndər Heydər Əliyevin milli idarəçilik məktəbinin yetirməsi olaraq, Zərifə Əliyevanın elmi-ictimai dərslərindən örnək alaraq onun insani nəciblik və mərhəmət ənənələrini davam etdirir. Oxşar ictimai tale, oxşar yol və bu yolda paralelləşən əməllər…

Ulu Öndər Heydər Əliyev deyir ki: "Zərifə xanım kimi həyat yoldaşım olduğuna və o, ailəmdə çox yüksək mənəvi mühit yaratdığına görə mən xoşbəxt olmuşam". Eləcə də Prezident İlham Əliyev söyləyir ki: "Mən xoşbəxtəm ki, Zərifə xanım kimi anam olmuşdur, Mənim anam əsl alim idi". Bu kəlamlar xoşbəxtliyin nümunəvi komponentləridir.

Zərifə Əliyeva Azərbaycan tibbşünaslıq və ictimai-elm tarixində möhtəşəm adı olan qadın alimdir. Mehriban xanım Əliyeva söyləyir: "İxtisas seçimimə həkim-oftalmoloq Zərifə xanım təsir göstərmişdi".

Zərifə Əliyeva - üç dövlət xadimini qovuşdurub birləşdirən akademik, oftalmoloq həkim, birinci xanım, ictimai xadim, Prezident anasıdırsa, bu paralellər vəhdətində Mehriban xanım da oftalmoloq həkim, humanizmdən elmi fəlsəfi iş yazan, Prezident gəlini, Prezident xanımı, ictimai-siyasi dövlət xadimidir. Bənzər tale yolları aydın görünür.

Mehriban Əliyeva qadının ailədəki rolunu və ailəyə münasibətini hər zaman önə çəkir və vurğulayır ki: "Hər bir qadın üçün onun ailəsi, onun uşaqları həyatının ən vacib, ən mühüm hadisəsidir. Mən özüm üç uşaq anası olaraq analıq missiyasını həyatımın ən vacib missiyası kimi dəyərləndirirəm". Mehriban Əliyeva akademik Zərifə Əliyevadan əxz etdiyi ənənələri yaşadır, milli-mənəvi dəyərlərin hamisi olmaqla ölkədə təhsilin, tibbin, mədəniyyət, mənəviyyat və digər sahələrin tərəqqisinə diqqət göstərir, müasir Azərbaycanı dünyada tanıdır. Azərbaycan qadınının - anasının yüksək mənəvi-mədəni keyfiyyətlərini ümumbəşəri dəyərlərlə əks etdirir.

Hər iki böyük qadının Azərbaycanın ictimai humanitar həyatında öz mərhəmət və şəfqət prinsipləri paralellər təşkil edir. Zərifə Əliyeva Sülhü Müdafiə Komitəsinin üzvü idi və sülh, barış məsələlərinə dair daim çağırışlar edərdi. Akademik Zərifə Əliyeva qeyd edirdi ki: "Nifrət edirəm müharibəyə, insanların əzab çəkməsinə dözmürəm". Mehriban xanım Əliyeva da bütün dünyada sülhü, ədaləti, barışı təbliğ edir, sülhməramlı səfirdir.

Zərifə xanım ailəcanlı ictimai xadim idi. Ulu Öndər söyləyirdi ki: "Həyatımın bütün dövrlərində işlə məşğul olduğuma görə ailə məsələlərinə fikir verməyə vaxtım olmayıb. Bunların hamısı Zərifə xanımın üzərinə düşüb və o, bu vəzifəni şərəflə, sədaqətlə, çox böyük məharətlə yerinə yetirib". Mehriban Əliyeva qadını ailədə sülhün, razılığın və məhəbbətin təminatçısı hessab edərək deyir ki: "Mənim üçün çox vacibdir ki, həyat yoldaşım olduqca dolğun və gərgin iş günündən sonra evə gəlir və burada onu anlayır, dəstəkləyirlər, onu qiymətləndirir və sevirlər".

Digər bir paralelliyə diqqət edək. Ulu Öndər Heydər Əliyev "Əsl məhəbbət haqqında" filmində vurğulayır: "Biz Zərifə xanımla Kislovodskidə tanış olduq.... və onu görən kimi bildim ki, ürəyimə girdi". Prezident İlham Əliyev müqəddəs dediyi anası Zərifə xanım və ömür dostu Mehriban xanım haqda deyir: "Təbii ki, hər bir ana kimi, mənim də anam gəlin tapmağa çalışırdı. Mehribanla tanış olanda özlüyümdə qərara aldım ki, bu qız xoşuma gəlir".

Zərifə xanımın taleyinə ali bir missiya - Heydər Əliyev kimi strateq şəxsiyyətin həyatının əbədi sevgisi, Mehriban xanımın da taleyinə eynən ali bir missiya - Qarabağı işğaldan azad edən Qalib Prezidentin həyat və əqidə yoldaşı olmaq yazıldı.

Akademik Zərifə Əliyevanın Azərbaycan oftalmologiya elminin tanıdılmasında xidmətləri çox istiqamətli olub, eləcə də Mehriban Əliyevanın müasir Azərbaycan mədəniyyəti, təhsili, tibb sahəsinin inkişafında fəaliyyəti geniş və çoxcəhətlidir.

Akademik Zərifə Əliyeva novator alim, peşəsində yenilikçi idi. Zərifə xanımın həyatı, ailə və cəmiyyətdə rolu və yeri bir mənəviyyat, müdriklik, şəfqət məktəbidirsə, həmin məktəbin ardıcılı Mehriban Əliyeva da humanist modern rəhbər, xalqının "sevimli Mehribanı"dır.

Zərifə Əliyeva deyirdi ki: "Həkimlə xəstənin birbaşa əlaqəsi müalicənin əhəmiyyətini yüksəldir və həkim xəstənin ən doğma adamıdır". Akademik N.Puşkovskaya "xeyirxahlıq Zərifə Əliyevanın həyat tərzi idi" deyərək onun yüksək keyfiyyətlərini dəyərləndirmişdi. Professor A.Brovkina ona "nəciblik və mənəvi paklıq timsalı" qiymətini vermişdisə, professor N.Şulpina "dünyaşöhrətli alim" adlandırmışdı. Mehriban Əliyeva da həkim-filosof, ictimai-siyasi xadim və "sizin Mehriban" müraciətli Azərbaycan xalqının mərhəmət, xeyirxahlıq ünvanıdır.

Azərbaycan qadınının ənənəvi dəyərlərinin təcəssümü olan Zərifə xanım dövlət xadiminin qızı, dövlət başçısının xanımı, gələcəkdə Prezident olacaq oğulun, alim qızın anası, yüzlərlə insana nur, işıq verən peşəkar həkim, görkəmli alim, kübar, alicənab, insanları sevən, heç kimi incitməyən, hər kəsə kömək edən Böyük Qadın idi. Bütün bu keyfiyyətlər mərhəmət, şəfqət, humanizm kimi ali dəyərlərlə vəhdətdə ona əsl insan, əsl xanım, əsl həkim statusu qazandırmışdı.

Prezident İlham Əliyev Zərifə xanım haqda söyləyir: "Onun unudulmaz obrazı bu gün də mənim üçün çox əzizdir, doğmadır. Zərifə xanım yüksək davranış meyarlarına malik idi. İnsanlara münasibətdə səmimiyyət, xeyirxahlıq, eyni zamanda yüksək mədəniyyət, alicənablıq - bütün bu müsbət keyfiyyətləri özündə birləşdirmişdi. Alim kimi Zərifə xanım çox böyük zirvələrə çata bilmişdir. Onun əsərləri, elmi monoqrafiyaları bu gün də öz aktuallığını itirmir. Bir alim kimi Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir".

Bu kontekstdən Prezident İlham Əliyev Mehriban Əliyeva haqda deyir: "Mehriban Əliyeva çox peşəkar, bilikli, təcrübəli, prinsipial, çox xeyirxah bir insandır. Təsadüfi deyil ki, Azərbaycan xalqı ona böyük sevgi və rəğbətlə yanaşır". Prezidentin bu fikirləri həyat tərzinin elmi-etik, mədəni-mənəvi paradiqmal komponentləridir.

Prezident İlham Əliyev kədərli notlarla, bir övlad kimi söyləyir: "Onun (Zərifə xanımın) vəfatından sonra mənim həyatım, bütün ailəmizin həyatı dəyişildi. Yəni mən indi o vaxtlardakı kimi gülə bilmirəm, həyatımda xoşbəxt hadisə olanda düşünürəm ki, o da bunun üçün sevinərdi".

Çox ağrılıdır ki, Azərbaycanın müstəqilliyini, sevgili həyat dostu Ulu Öndərin və bütün şəfqəti ilə böyütdüyü yeganə oğlunun Prezidentliyini, bəyənib seçdiyi Mehriban xanımın fəaliyyətini, nəvələrini, doğma Vətəninin müasir inkişafını görə bilmədi, həyatdan tez getdi, amma ürəklərdə nəcib, mərhəmətli həkim, xeyirxah ictimai xadim, Azərbaycanın kübar qadını - böyük anası adını abidələşdirdi. Dövlət xadimi atasından aldığı nur, dövlət xadimi ömür dostu ilə keçirdiyi işıqlı mənəvi həyat, sevə-sevə böyütdüyü dövlət xadimi oğlunun "müqəddəs Anam" kəlamı ilə hər zaman nur-işıq saçan möhtəşəm qadın, daim anılacaq şəxsiyyətdir.

***Fiziologiya İnstitutunun laboratoriya müdiri, biologiya elmləri doktoru, professor Elmira PƏNAHOVA*** *qeyd etdi ki, Zərifə xanım Əliyevanın elmi araşdırmalarının əsasını təşkil edən ətraf mühit amillərinin görmə orqanına təsirinin mexanizmlərinin və qanunauyğunlarının tədqiqi həm də görmə sisteminin fiziologiyası haqqında biliklərin genişləndirilməsini tələb edirdi.*

- Məhz buna görə akademik Zərifə Əliyevanın keçdiyi uğurlu elm yolunun böyük bir hissəsi akademik Abdulla Qarayev adına Fiziologiya İnstitutu ilə bağlıdır. Burada alimin təşəbbüsü və bilavasitə rəhbərliyi altında 1979-cu ildə keçmis SSRİ məkanında ilk dəfə olaraq görmə orqanının fiziologiyası və peşə patologiyası laboratoriyası yaradılmışdı. Yeni laboratoriyanın ilk tədqiqat işlərinin "Müxtəlif kimyəvi faktorların təsiri şəraitində işləyən insanların görmə orqanının kliniki-fizioloji və morfohistokimyəvi xüsusiyyətləri" mövzusu ətrafında qurulması da təsadüfi deyildi. Azərbaycan keçmiş SSRİ məkanında kimya sənayesinin mərkəzlərindən biri sayılırdı və müvafiq olaraq laboratoriyada aparılan tədqiqatların əsas məqsədi istehsalatda istifadə edilən müxtəlif kimyəvi maddələrin görmə orqanına uzunmüddətli xroniki təsirinin kompleks analizi və bu təsirin nəticəsi kimi baş verə biləcək dəyişikliklərin erkən diaqnostikası idi.



O dövrdə səhiyyənin, tibb elminin qarşısında duran fundamental problemlərdən biri peşə ilə bağlı az zərərli faktorların, aşağı dozaların xroniki təsiri altında orqanizmdə baş verən qeyri-spesifik, üzdə olmayan pozulmaların öyrənilməsi idi. Başqa sözlə, ətraf mühitin əlverişsiz faktorlarının təsiri zamanı orqanizmin adaptiv-kompensator mexanizmlərinin öyrənilməsi kimi fundamental, bu gün də öz aktuallığını itirməyən problem ön plana çıxmışdı. Bu problemlə bağlı nəinki Azərbaycanda, hətta keçmiş SSRİ-də oftalmologiya elmində yeni səhifənin açılması - görmə orqanının peşə xəstəliklərinin öyrənilməsi və profilaktikası üçün yeni üsulların işlənməsi Zərifə xanım Əliyevanın adı ilə bağlıdır.

Zərifə xanım öz tədqiqatlarında, gözün çoxsaylı oftalmoloji müayinələri ilə yanaşı, ilk dəfə olaraq elektrofizioloji metodlardan da geniş istifadə edirdi. İş yerlərində toksik maddələrlə təmasda olan işçilərin gözlərinin elektroretinoqrafik, elektrookuloqrafik, reooftalmoqrafik müayinəsi torlu qişanın müxtəlif hüceyrə elementlərinin funksional vəziyyətində baş verən dəyişiklikləri üzə çıxarmağa imkan yaradırdı. Paralel olaraq aparılan eksperimental tədqiqatlarda toksik maddələrin və bəzi fiziki faktorların gözün torlu qişasında funksional vəziyyətə, sərbəst radikal proseslərinə, neyromediatorların səviyyəsinə təsiri öyrənilirdi.

Zərifə xanımın elmi maraq dairəsində görmə orqanının, görmə analizatorunun yaşla bağlı dəyişikliklərinin tədqiqi xüsusi yer tutur. Onun "Gözün və görmə-sinir traktının yaş dəyişmələri" kitabı haqqında görkəmli rus oftalmoloq-alimi, akademik A.Brovkina demişdi: "Bu elmi əsər mahiyyət etibarilə oftalmologiyada yeni bir istiqamətin - oftalmoloji herontologiyanın başlanğıcını qoyur". Zərifə xanımın bu kitabı bu gün AMEA-nın Fiziologiya İnstitutunda həyata keçirilən herontoloji tədqiqatlar fonunda daha da aktual və qiymətli təsir bağışlayır.

Təəssüf ki, keçən əsrin 90-cı illərində respublikadakı ictimai-siyasi vəziyyətlə bağlı elmin inkişafında yaranan tənəzzül dövründə Zərifə xanımın laboratoriyasının fəaliyyəti dayandırıldı. Yalnız 2016-cı ildə həmin laboratoriyanın fəaliyyəti bərpa olundu. Əvvəlcə institutda Görmənin Fiziologiyası yaradıcı qrupu yaradıldı və onun qarşısına görmə sisteminin pozuntularının neyrofizioloji mexanizmlərinin araşdırılması məqsədi qoyuldu. Çox qısa müddətdə yaradıcı qrup yaddaş, koqnitiv proseslər və görmə ilə bağlı davranış ilə əlaqəli neyrodegenerativ pozuntuların eksperimental modelləşdirilməsi üzrə tədqiqatları həyata keçirməyə nail oldu və həm nəzəri, həm də tətbiqi baxımdan əhəmiyyətli nəticələri əldə etdi. Tədqiqatların miqyası Elmin İnkişafı Fondunun dəstəyi ilə Belarus MEA-nın Fiziologiya İnstitutu ilə müştərək əməkdaşlıq layihəsi çərçivəsində daha da genişləndi, neyrodegenerativ xəstəliklər zamanı görmə funksiyasının pozulma mexanizmlərinin kliniki-neyrofizioloji tədqiqinə və bu pozulmaların reabilitasiyası üçün innovativ üsulların işlənməsinə istiqamətlənmə ideyası yarandı, bunun üçün qrupun kadr potensialı gücləndirilərək onun əsasında artıq 2021-ci ildə müstəqil "Görmənin və neyrodegenerativ xəstəliklərin fiziologiyası" laboratoriyası yaradıldı.

Hazırda bizim laboratoriyada elektrofizioloji eksperimentlər əsasında aparılan araşdırmaların və elmi tədqiqatların nəticələri həm oftalmoloji, həm də nevroloji klinikalar üçün əhəmiyyət kəsb edir. Onların əsasında biri xaricdə (Amerika) olmaqla 2 monoqrafiya çap olunmuşdur. Xüsusilə qeyd etmək istəyirəm ki, bu tədqiqatlar geniş beynəlxalq əməkdaşlıqla həyata keçirilir. O cümlədən Rusiya Elmlər Akademiyasının İ.Pavlov adına Fiziologiya İnstitutunun təklifi ilə bu istiqamətdə birgə tədqiqatların həyata keçirilməsi üçün institutlarımız arasında elmi əməkdaşlıq müqaviləsi imzalanmışdır. Müqavilə çərçivəsində "Neyrodegenerativ proseslərin inkişafının proqnozlaşdırılması və psixofizioloji nəzarətin modelləşdirilməsi" adlı layihə işlənib hazırlanmışdır. Layihə üzrə fəaliyyət artıq başlanmışdır.

Akademik Zərifə Əliyevanın elmi ideyaları zaman keçdikcə öz aktuallığını daha da artırır və görmə haqqındakı elmin yeni istiqamətlərində öz əksini tapır.

Çıxışımın sonunda Zərifə xanımla bağlı xatirəmi sizinlə bölüşmək istəyirəm. O, cox sadə, insanlara qarşı diqqətli bir xanım idi. Onunla Fiziologiya İnstitutunun dəhlizində ilk görüşüm indiyə kimi yadımdadır. Mən onu ilk dəfə görəndə özümü itirdim və kim olduğunu bildiyim üçün çaşqınlıq hissi keçirdim. O, mənim çaşqınlığımı hiss edərək özü birinci salamlaşdı. Bu mənim ücün bir unudulmaz an olaraq yadımda qaldı. Gözəl insan, görkəmli alim, oftalmoloq Zərifə xanımın xatirəsi həmişə bizimlədir.

***"AZƏRBAYCAN"***

## Azərbaycan rəsmi Tehrandan törətdiyi terrora görə cavab gözləyir

# İran həm də narkotik terrorçusudur

**Torpaqlarımızın işğaldan azad olunmasından sonra ölkəmizə qarşı məkrli davranışlarını intensivləşdirən İran Azərbaycanın daxili işlərinə burnunu soxmağa cəhd göstərir. İran səfirliyimizə və Milli Məslisin deputatına qarşı terror törədir, ölkəmizdəki agentura şəbəkəsinin fəaliyyətini genişləndirməyə çalışır, sərhədboyu ərazilərdə hərbi təlimlər keçirərək Azərbaycanı təhdid edir. Bunlarla yanaşı, İran uzun illərdir ki, ölkəmizə qarşı həm də narkotik terroru həyata keçirir. Dövlət Sərhəd Xidməti rəisinin müavini, general-leytenant Firuz Şirinzadə mətbuata müsahibəsində təsdiqləyib ki, İran xüsusi xidmət orqanları Azərbaycan dövlətçiliyinə qarşı yönəlmiş fəaliyyətində narkotik qaçaqmalçılığını da həyata keçirirlər.**





Son 5 ildə İrandan ölkəmizə daşınan narkotik vasitələrin həcmi 9 dəfə artıb. İranla dövlət sərhədində 2018-ci ildə 144,8 kiloqram, 2022-ci ildə isə 1 ton 302 kiloqram narkotik vasitə aşkarlanıb. Statistikaya əsasən, xüsusilə Vətən müharibəsindəki qələbəmizdən sonra İrandan Azərbaycana qaçaqmalçılıq cəhdləri həddən artıq çoxalıb. Bu isə müharibədən əvvəlki dövrdə narkotik qaçaqmalçılığının böyük hissəsinin Azərbaycan-İran dövlət sərhədinin işğal altında olan hissəsinin payına düşdüyünü göstərir. Bu fakt bir daha təsdiqləyir ki, İkinci Qarabağ savaşında əldə etdiyimiz böyük zəfərədək işğal altında olan sərhəd ərazilərimizdən kütləvi narkotrafik məqsədilə istifadə edilib. İrandan gətirilən narkotik vasitələr məhz Azərbaycan ərazilərindən keçirilməklə Ermənistana daşınıb.

### Fars-molla rejiminin genofondumuza zərbə vurmaq cəhdlərinin qarşısı alınır

Milli Məclisin deputatı Sahib Alıyev deyib ki, İran narkotik qaçaqmalçılığına qarşı ən sərt qanunvericiliyi olan ölkələrdən biri olmasına baxmayaraq, elə ən çox da bu cinayətkar fəaliyyətlə məşhurdur: "Narkotik terroru törədənlərin başında duran isə SEPAH-dır. Rəsmi Tehran narkotik qaçaqmalçılığından əldə etdiyi gəlirləri ayrı-ayrı ölkələrdə saxlanılan terrorçu qruplaşmalara yönəldir. Otuz il ərzində molla rejimi işğalda qalan Azərbaycan-İran sərhədi vasitəsilə bu çirkin planlarını reallaşdırıb, ərazilərimizdən cinayətkar əməlləri üçün suiistifadə ediblər. İkinci Qarabağ müharibəsində zəfər qazanmağımıza baxmayaraq, onlar hələ də Azərbaycan əraziləri vasitəsilə Hayastana qanunsuz yolla narkotik vasitələr göndərməyə cəhdlər edirlər".

Deputatın sözlərinə görə, fars-molla rejimi ölkəmizdə narkotika istifadəçilərinin artmasına çalışır. Burada əsas məqsəd millətimizin genofonduna zərbə vurmaqdır. Bu, terrorun ən təhlükəli növlərindəndir. İran Azərbaycan gənclərini narkotikə bulaşdırmağa, buna kütləvi şəkildə nail olmağa cəhd edir.

S.Alıyev bildirib ki, cənub qonşumuz Azərbaycanın vaxtilə işğal altında olan torpaqlarında hay hərbi xuntası ilə birgə narkotiklərin əkilib-becərilməsi ilə məşğul olurdu: "Təbii ki, onlar indi bu imkandan məhrum olublar. Ona görə də murdar məqsədlərinə nail olmaq üçün hər cür aqressivliyə yol verirlər. Lakin Azərbaycanın "dəmir yumruğ"u altında əzilirlər. Bu mənada bizim müvafiq strukturlarımızın peşəkar və prinsipial fəaliyyətini yüksək qiymətləndirmək lazımdır. Digər təxribat xarakterli əməllərə qarşı olduğu kimi, terrorun bu növünə qarşı da ən sərt tədbirlər görülür".

### İran Azərbaycanın işğalda olan ərazilərindən narkotik qaçaqmalçılığı üçün istifadə edib

Milli Məclisin deputatı Tural Gəncəliyev deyib ki, İran ölkəmizə qarşı mənfur siyasətini davam etdirir: "Vətən müharibəsindən əvvəl Azərbaycan-İran sərhədinin 132 kilometrlik hissəsi düşmən tapdağında idi. Bu dövrdə İran Ermənistana bizim torpaqlarımızın işğalda olması ilə bağlı hansısa irad bildirmirdi. Əksinə, sərhəd zolağının işğalda olmasından istifadə edərək qanunsuz qaçaqmalçılıqla məşğul olurdu. İşğal altında olan torpaqlarımız vasitəsilə Hayastana, oradan da Avropaya və ya əks istiqamətə narkotik daşımaçılığını həyata keçirirdi. Bu, Hayastana və İrana böyük həcmdə çirkli pullar qazandırırdı".

Deputatın sözlərinə görə, statistikaya əsasən, son illərdə narkotik qaçaqmalçılığı ilə bağlı aşkarlanmış cəhdlərin sayında ciddi artımın olması da İranın Qarabağda narkotik terroru ilə məşğul olduğunu sübut edir. Vaxtilə sərhəd xətti işğalçıların nəzarətində olduğuna görə, İran bu fürsətdən lazımi qədər faydalanırdı. Lakin bu cinayətkarlığına görə Hayastana, eləcə də qanunsuz dövriyyələrin əsas təşkilatçısı olan İrana heç kim bir kəlmə də demirdi.

"Azərbaycan 44 günlük müharibədə zəfər qazandıqdan sonra bu qanunsuzluğun qarşısını almağa müvəffəq olub. Sözsüz ki, müharibədən əvvəlki dövrdə İran, Fransa kimi dövlətlərin regionumuza olan təzyiqlərinin gücü başqa idi. İndi bundan məhrum qaldıqlarına görə qanunsuz əməllərini ürəkləri istəyən kimi həyata keçirə bilmirlər. Lakin məkrli planlarından əl çəkmir, terror aktları törətməyə davam edirlər. Azərbaycan isə öz suveren ərazilərindən işğalçıları qovub çıxarıb, onların havadarlarını qanunsuz gəlirlərdən məhrum edib", - deyə deputat bildirib.

T.Gəncəliyev qeyd edib ki, İran məhrum olduğu fürsətlər ucbatından daha da aqressivləşib: "Bunun nəticəsidir ki, ölkəmizə qarşı düşmən mövqeyi ilə seçilən dövlətlər antikoalisiya yaradıblar. Bu, həmin güc mərkəzlərinin qərəzli münasibətlərinin, eləcə də erməni diaspor və lobbiçiliyinin təsirinin nəticəsidir. Onlar türk dövlətlərinin güc mərkəzinə çevrilməsini, Azərbaycanın regionda, eləcə də dünyada artan nüfuzunu həzm edə bilmirlər. Lakin unudurlar ki, Azərbaycan bütün hədəflərinə çatan dövlətdir".

*Nəzrin QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# İranın xain əməlləri

### Molla rejiminin səfirlik əməkdaşları da diplomatik statusa uyğun olmayan "fəaliyyət" sərgiləyirlər

**Qonşu ölkə olan İranın Azərbaycana qarşı terror, təxribat xarakterli əməlləri son zamanlar daha da intensivləşib. İrandakı səfirliyimizdə baş verən terror aktı, Milli Məclisin deputatı Fazil Mustafaya qarşı təşkil olunan xain plan İranın əsl üzünü göstərir.**

Uzun illər Hayastanı dəstəkləyən, ermənipərəst mövqeyi ilə seçilən Tehran ölkəmizə qarşı terror əməlləri həyata keçirməkdən də çəkinmir. İrandakı səfirliyimizdə ölümlə nəticələnən hadisəyə görə bu ölkədən ciddi araşdırma, nəticə tələb olunsa da, hələ ki, heç bir reaksiya yoxdur. Bununla yanaşı, İran rəsmiləri müxtəlif tribunalarda Azərbaycana qarşı əsassız, böhtan xarakterli fikirlər səsləndirməyə başlayıblar. Bu azmış kimi, hələ bizi Ermənistanla sərhəddə dəyişikliklərə icazə verməyəcəyi ilə də hədələyirlər. Amma İran unudur ki, Azərbaycan 30 illik işğala, ədalətsizliyə öz gücü, səyləri nəticəsində nail olub və bu yolda hər zaman irəliləməyə hazırdır.

### İranın ölkəmizdə sabitliyi pozmaq cəhdləri

Terrorizmi dəstəkləyən ölkənin əməlləri bununla bitmir. Ötən günlərdə İran xüsusi xidmət orqanları tərəfindən maddi maraq müqabilində və dini təbliğat yolu ilə ələ alınaraq ölkə ərazisində sabitliyin pozulması istiqamətində cinayət əməlləri törədəcək dəstə saxlanılıb. İranda yaşayan həmin ölkənin xüsusi xidmət orqanları ilə əməkdaşlıq edən Rufulla Axundzadə və Bəxtiyar Bayramov Tərtər rayon sakini Arif Cümşüdovu şirnikləndirci vədlər müqabilində ələ alaraq ona Azərbaycan ərazisində silahlı iğtişaşlar törətməklə hakimiyyətin ələ keçirilməsi və Konstitusiya quruluşunun zorla dəyişdirilməsi yolu ilə şəriət qanunları ilə idarə olunan "Kərimə" dövlətinin qurulması məqsədilə "müqavimətçi dəstə" yaratması barədə tapşırıqlar veriblər.

Məlum olub ki, saxlanılan şəxslər özlərini cəmiyyətdə "dindar" kimi qələmə verərək sosial şəbəkələr üzərindən, eləcə də insanların toplaşdığı mərasimlərdə İranın və dini radikalizm lehinə təbliğat apararaq Azərbaycanda formalaşmış tolerantlıq ənənələrinə xələl gətirmək üçün xaricdən aldıqları tapşırıqları yerinə yetiriblər. Dəstə üzvləri eyni zamanda İrandan məqsədli şəkildə göndərilən narkotik vasitələrin satışını təşkil edərək əldə etdikləri külli miqdarda pul vəsaitini məhz Azərbaycanda dini radikalizmin təbliğinə və digər pozuculuq fəaliyyətlərinin maliyyələşməsinə sərf ediblər.

Din pərdəsi arxasında gizlənən İranın nümayəndələri də elə bu ada sığınaraq fəaliyyət göstəriblər. Təbii ki, narkotik satışı həyata keçirən, təbliğ edən və terror əməlləri törətməklə insan ölümünə bais olanlar dindar şəxslər deyil. Onlar fars-molla rejiminin, cinayətkar şəbəkənin üzvləridir.

### Diplomatik əlaqələrə zidd fəaliyyət

Hər kəsə bəllidir ki, İranda uzun müddətdir davam edən aksiyalar molla rejiminə qarşı çevrilib. Bu da təsadüfi deyil. Dinlə pərdələnən bu saxtakar ölkə insan hüquq və azadlıqlarını kobudcasına pozur, vətəndaşlarının haqlarını əlindən alır. Günahsız insanları dar ağacından asdırır, əsassız yerə ölümə məhkum edir. Səbəb isə uzun illər ərzində molla rejimindən təngə gəlmiş əhalinin haqlı etirazlarıdır.

Azərbaycan tərəfi dəfələrlə İrana düşmən mövqeyindən əl çəkməsini, ölkəmizlə münasibətlərini normaya salmasının hər iki dövlətin xeyrinə olduğunu bildirsə də, görünür, Tehran tutduğu çirkli yoldan dönmək istəmir.

Bu ölkənin rəsmi şəxsləri də statuslarına uyğun olmayan fikirlər səsləndirir, davranışlar sərgiləyirlər. Bu fəaliyyətlərin nəticəsi olaraq İranın Azərbaycandakı səfiri Seyid Abbas Musəvi Xarici İşlər Nazirliyinə çağırılıb. Ona son zamanlar ölkəsi tərəfindən Azərbaycana münasibətdə nümayiş etdirilən təxribat xarakterli fəaliyyətə görə qəti narazılıq bildirilib. Eyni zamanda İran səfirliyinin 4 əməkdaşının diplomatik statusa uyğun olmayan və Diplomatik Əlaqələr haqqında 1961-ci il Vyana Konvensiyası ilə ziddiyyət təşkil edən fəaliyyətinə görə Azərbaycan hökuməti tərəfindən "persona-non-grata" (arzuolunmaz şəxs) elan edildiyi İran səfirinin diqqətinə çatdırılıb və həmin şəxslərin 48 saat ərzində Azərbaycan ərazisini tərk etməsi tələb edilib.

Rəsmi səviyyədə belə qanunsuz fəaliyyətlər İranın mövqeyini bir daha nümayiş etdirir. Və dəfələrlə edilən xəbərdarlıqlara baxmayaraq, riyakarlıqdan, terrorizmi dəstəkləməkdən, tutduğu yanlış yoldan dönmür.

Bu azmış kimi, hələ Azərbaycanı İsraildə səfirlik açması ilə ittiham edir və buna etiraz olaraq İran parlamenti bəyanat da qəbul edir. Amma hansı haqla? Dinimizi təhqir edən, işğalçı dövlət Ermənistanda səfirliyi olan, üstəlik konsulluq açan bir ölkənin bunu deməyə haqqı çatırmı?

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# *Yalçın HACIZADƏ:* "İran Qafanda konsulluq açanda islam həmrəyliyi yadına düşmürdü"

**"İran Azərbaycan torpaqlarını 30 il ərzində işğalda saxlayan, minlərlə vətəndaşını qətl edən, soyqırımı cinayətləri törədən, tarixi, milli, mədəni abidələrini dağıdan, məscidlərində donuz saxlayan Ermənistana qucaq açır, amma İsraildə səfirlik açmağımıza görə narahat olur. Həmçinin özünü islam aləminin "qoruyucusu", hüquqları pozulan müsəlmanların "xilaskarı" kimi təqdim etməyə çalışır. Azərbaycanın İsraildə səfirlik açmasını islam dünyasının mənafeyinə zidd hərəkət kimi təqdim edərək bəyanat verir. Bütün bunlar da onun ikiüzlülüyünü göstərir".**

Bu fikirləri AZƏRTAC-a Ana Vətən Partiyası sədrinin müavini, politoloq Yalçın Hacızadə söyləyib.

O bildirib ki, Azərbaycan müstəqil dövlətdir və hansı ölkədə səfirlik açmasına özü qərar verir. Belə məsələlər dövlətdaxili qanunvericilik və 1961-ci il Vyana razılaşmasına görə tənzimlənir. İran Azərbaycanın tarixi torpağı olan Qafanda yarıtikili binada özünə konsulluq açaraq Ermənistana dəstəyini göstərir. Amma Azərbaycan İsraildə səfirlik açanda İranın yadına islam həmrəyliyi düşür.

Azərbaycan İsraillə müttəfiqdir və bir çox sahələr üzrə yüksəksəviyyəli əlaqələri var. Çox əvvəldən orada səfirlik açmaq imkanlarımız var ikən İsrail-İran gərginliyində, İranla olan qonşuluq münasibətlərimizi üstün tutaraq bu addımı atmamışıq. Amma İran bütün münasibətləri pozaraq, regionda yaranmış yeni vəziyyəti qəbul etməyəcəyini açıq-aydın bildirərək Ermənistanı bizə qarşı təxribata sövq edir. Bütün bunların fonunda da Azərbaycanın öz müttəfiqi olan İsraillə münasibətlərini daha da inkişaf etdirmək istəməsi çox normal haldır. İran özü Azərbaycanla gərginlik yolunu seçib. Amma molla rejimi bilməlidir ki, Azərbaycanın əlində ona qarşı daha çox təsir etmək imkanları var.

Ermənistanın regionun kiçik və zəif ölkəsi olduğunu diqqətə çatdıran politoloq deyib: "İran Ermənistana dəstək verməklə Azərbaycana təsir etmək istəyir. Halbuki İranın rəqibləri dünyanın supergücü ABŞ, hərbi və ya digər sahələrdə yüksək texnologiyaya malik olan İsraildir. Həmin ölkələr Azərbaycanla əlaqələrin inkişafında maraqlıdırlar. İran anlamalıdır ki, o, Ermənistanla əlaqələrini inkişaf etdirməyə çalışdığı kimi, Azərbaycan da ABŞ və İsraillə əlaqələrini daha da üst səviyyəyə çıxara bilər.

Ona görə İran parlamentinin bəyanatının heç bir hüquqi əsası və təsiri olmayacaq. Səfirliyin açılmasının Fələstin xalqının hüquqlarının və mənafeyinin pozulması, islam dünyasına xəyanət kimi təqdim etməsi absurd yanaşmadır. İsrail-Azərbaycan münasibətləri yüksək səviyyədə olsa da, rəsmi Bakı Fələstin xalqına da dəstəyini hər zaman nümayiş etdirib. Fələstin Dövlətinin Asiya ölkələrindəki səfirlərinin toplantısı 2018-ci ildə Bakıda keçirilib. Həmin toplantıda Prezident İlham Əliyev qeyd edib ki, "Azərbaycan Fələstin məsələsinə münasibətdə daim həmrəylik nümayiş etdirir, dəstəyini əsirgəmir. Bu toplantıya Azərbaycanın evsahibliyi etməsi bunun bariz nümunəsidir".

Yalçın Hacızadə əlavə edib ki, eyni zamanda 2017-ci ilin dekabr ayında İstanbul şəhərində keçirilmiş İslam Əməkdaşlıq Təşkilatının Qüds məsələsi ilə bağlı fövqəladə Zirvə toplantısında da Prezident İlham Əliyev iştirak etmişdi. Dövlətimizin başçısının iştirakı Azərbaycanın Fələstinə göstərdiyi dəstək və islam həmrəyliyinə sadiqlikdir. Bu iştirak Fələstin dövlətinin rəhbərliyi tərəfindən də yüksək qiymətləndirilmişdir. Keçən il Azərbaycanla Fələstin arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi qeyd olunub.

Bundan əlavə, Azərbaycan Respublikasının Fələstində təmsilçilik ofisinin təsis edilməsi haqqında qanun qəbul edilib. Yəni bütün bunlar onu göstərir ki, Azərbaycan-İsrail münasibətlərinin inkişaf etməsi İranın göstərməyə çalışdığı kimi, Fələstinə qarşı deyil. Əksinə, Azərbaycan paralel olaraq Fələstinlə də münasibətlərini yüksəldir.

## Vətəndaş cəmiyyəti nümayəndələri və ictimai fəallar ekoloji cinayətə və qanunsuz istismara etirazlarını davam etdirirlər

# *119-cu gün:* Laçın-Xankəndi yolunda ekoterrora qarşı etirazlar davam edir



**Azərbaycan ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarının dayandırılmasını, "Qızılbulaq" və "Dəmirli" yataqlarında monitorinqin keçirilməsinə icazə verilməsini tələb edən azərbaycanlı könüllü gənclər və ekolofəallar tərəfindən Laçın-Xankəndi yolunun Şuşa ərazisindən keçən hissəsində təşkil olunan haqlı etiraz aksiyası 119 gündür davam edir.**

AZƏRTAC xəbər verir ki, bu gün də aksiya iştirakçılarının Laçın-Xankəndi yolunda fəallığı müşahidə olunur. Ekofəallar və könüllü gənclər səhər saatlarında hər zaman olduğu kimi, Azərbaycanın Dövlət Himnini səsləndiriblər.

Aksiya iştirakçıları Qarabağda faydalı qazıntı yataqlarının qanunsuz istismarının dayandırılması ilə bağlı Azərbaycan, rus və ingilis dillərində mütəmadi olaraq plakatlar qaldırır, "Azərbaycan milləti qoruyacaq sərvəti!", "Azərbaycan oyaqdır, sərvətinə dayaqdır!", "Azərbaycan vahiddir, sərvətinə sahibdir!", "Ekocinayətə son!" kimi şüarlar səsləndirirlər.

Ekoaksiyanın keçirildiyi ərazi humanitar məqsədlərlə istifadə olunan avtomobillərin keçidi üçün tam açıqdır.

Xatırladaq ki, ötən il dekabrın 3-də və 7-də Rusiya sülhməramlı kontingentinin komandanlığı ilə aparılmış müzakirələrin nəticəsi olaraq, Azərbaycanın İqtisadiyyat, Ekologiya və Təbii Sərvətlər nazirlikləri, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti və "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin mütəxəssislərindən ibarət heyət Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarı, bundan irəli gələn ekoloji və digər fəsadlarla bağlı ilkin monitorinq aparmalı idi. Lakin sülhməramlıların hərəkətsizliyi ucbatından monitorinq baş tutmayıb. Buna etiraz olaraq, azərbaycanlı ekofəallar Şuşa ərazisindən keçən Laçın-Xankəndi yolunda dekabrın 12-dən dinc aksiyaya başlayıblar.

## Avtomobillərin aksiya ərazisindən keçidinə şərait yaradılıb



Həmişə olduğu kimi, ekoaksiyanın 118-ci günündə də Rusiya sülhməramlılarına aid avtomobillər Laçın-Xankəndi yolunda təşkil olunan aksiya ərazisindən sərbəst hərəkət ediblər.

Xankəndidən Laçın istiqamətində hərəkət edən sülhməramlılara məxsus 4 yük avtomobilinin aksiya ərazisindən sərbəst keçidi təmin olunub. Səhər saatlarında ümumilikdə Rusiya sülhməramlılarının 5, Beynəlxalq Qırmızı Xaç Komitəsinin isə 10 avtomobili aksiya ərazisindən keçib.

* * *

Sülhməramlılara məxsus bir minik, doqquz yük avtomobilinin Xankəndidən Laçın istiqamətinə sərbəst hərəkəti təmin edilib. Gün ərzində indiyədək aksiya ərazisindən Rusiya sülhməramlılarının 16, Beynəlxalq Qırmızı Xaç Komitəsinin isə 10 avtomobili keçib.

* * *

Xankəndidən Laçın istiqamətinə hərəkət edən Beynəlxalq Qırmızı Xaç Komitəsinə (BQXK) məxsus 1 yük, 9 minik avtomobili ərazidən maneəsiz keçib.

Bu, bir daha göstərir ki, Ermənistanın blokada ilə bağlı səsləndirdiyi iddialar saxtadır. Laçın-Xankəndi yolu humanitar məqsədli bütün avtomobillər və mülki şəxslər üçün açıqdır.

Qeyd edək ki, Qarabağda ekoloji istismara qarşı ötən il dekabrın 12-dən başlayan aksiya 118 gündür davam edir.



## Azərbaycan Respublikasının 1996-cı il 17 may tarixli 74-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi"ndə, 2000-ci il 14 aprel tarixli 859-IQ saylı Qanunu ilə təsdiq edilmiş "Bələdiyyələrin daimi və başqa komissiyaları haqqında Əsasnamə"də, 2005-ci il 3 may tarixli 903-IIQ saylı Qanunu ilə təsdiq edilmiş "Bələdiyyələrin regional assosiasiyalarının Nümunəvi Əsasnaməsi"ndə və 2005-ci il 3 may tarixli 906-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 92-ci maddəsini, 94-cü maddəsinin I hissəsinin 1-ci, 7-ci və 20-ci bəndlərini və 95-ci maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq, "Media haqqında" Azərbaycan Respublikasının 2021-ci il 30 dekabr tarixli 471-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının 1996-cı il 17 may tarixli 74-IQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 2, maddə 107; 1999, № 5, maddə 284; 2000, № 6, maddə 380, № 12, maddələr 832, 834; 2003, № 2, maddə 77; 2004, № 5, maddə 314; 2006, № 1, maddə 3, № 5, maddə 396, № 12, maddə 1005; 2007, № 8, maddə 755, № 11, maddələr 1049, 1081; 2009, № 6, maddə 395; 2010, № 3, maddə 171; 2013, № 4, maddə 358; 2016, № 1, maddə 35; 2019, № 1, maddə 1, № 8, maddə 1365; 2020, № 4, maddə 395, № 6, maddə 673, № 7, maddə 848; 2021, № 1, maddə 3) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

1.1. 3-cü maddənin birinci hissəsinin ikinci cümləsində və yeddinci hissəsində, 48-ci maddənin adında və birinci hissəsində ismin müvafiq hallarında "kütləvi informasiya vasitələri" sözləri "media" sözü ilə əvəz edilsin;

1.2. 25-ci maddənin ikinci hissəsinin dördüncü cümləsində "kütləvi informasiya vasitəsi" sözləri "media" sözü ilə əvəz edilsin;

1.3. 31-ci maddənin birinci hissəsinin doqquzuncu abzasında "kütləvi informasiya vasitələri" sözləri "media subyektləri" sözləri ilə əvəz edilsin.

**Maddə 2.** Azərbaycan Respublikasının 2000-ci il 14 aprel tarixli 859-IQ saylı Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 10, maddə 705; 2011, № 12, maddə 1079) ilə təsdiq edilmiş "Bələdiyyələrin daimi və başqa komissiyaları haqqında Əsasnamə"nin 21-ci maddəsinin ikinci cümləsində "kütləvi informasiya vasitələrinin" sözləri "media subyektlərinin" sözləri ilə əvəz edilsin.

**Maddə 3.** Azərbaycan Respublikasının 2005-ci il 3 may tarixli 903-IIQ saylı Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 7, maddə 561) ilə təsdiq edilmiş "Bələdiyyələrin regional assosiasiyalarının Nümunəvi Əsasnaməsi"nin III maddəsinin 1-ci hissəsinin dördüncü abzasında "qanunvericiliyə uyğun olaraq kütləvi informasiya vasitələri" sözləri "Media haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq media subyektləri" sözləri ilə əvəz edilsin.

**Maddə 4.** Azərbaycan Respublikasının 2005-ci il 3 may tarixli 906-IIQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 6, maddə 470; 2007, № 10, maddə 934; 2009, № 1, maddə 7; 2010, № 3, maddə 173; 2013, № 11, maddə 1273; 2017, № 5, maddə 710; 2018, № 5, maddə 840; Azərbaycan Respublikasının 2022-ci il 30 dekabr tarixli 785-VIQD nömrəli Qanunu) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası haqqında Əsasnamə"nin 7.6-cı maddəsində "kütləvi informasiya vasitələri" sözləri "media subyektləri" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 fevral 2023-cü il*

## "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında", "Məhkəmələr və hakimlər haqqında", "Yanğın təhlükəsizliyi haqqında", "Müflisləşmə və iflas haqqında", "Əhalinin sağlamlığının qorunması haqqında", "Vətən uğrunda həlak olanların xatirəsinin əbədiləşdirilməsi haqqında", "Mülki müdafiə haqqında", "Qrant haqqında", "Hidrometeorologiya fəaliyyəti haqqında" və "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci, 3-cü, 5-ci, 10-cu, 11-ci, 13-cü, 15-ci, 18-ci və 24-cü bəndlərini rəhbər tutaraq, "Media haqqında" Azərbaycan Respublikasının 2021-ci il 30 dekabr tarixli 471-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 2, maddə 106; 2001, № 12, maddə 731; 2002, № 1, maddə 4; 2004, № 8, maddə 606, № 9, maddə 666; 2007, № 3, maddə 206, № 6, maddələr 560, 598, № 11, maddə 1078; 2008, № 8, maddə 699, № 11, maddə 960; 2009, № 6, maddə 395; 2010, № 4, maddə 276; 2013, № 12, maddə 1497; 2018, № 3, maddə 399, № 5, maddə 886, № 12 (I kitab), maddə 2481; 2019, № 7, maddə 1194; 2020, № 4, maddə 394, № 7, maddə 826; 2021, № 8, maddə 897, № 12, maddə 1316; 2022, № 7, maddə 714; Azərbaycan Respublikasının 2022-ci il 20 dekabr tarixli 720-VIQD nömrəli Qanunu)18-ci maddəsinin birinci hissəsinin ikinci cümləsində "dövlət kütləvi informasiya vasitələrində" sözləri "rəsmi mediada" sözləri ilə əvəz edilsin.

**Maddə 2.** "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 5, maddə 413; 1999, № 5, maddə 284, № 7, maddə 396, № 10, maddə 570; 2001, № 5, maddə 292, № 6, maddə 379, № 7, maddə 455, № 11, maddə 683; 2002, № 1, maddə 4, № 12, maddə 706; 2003, № 6, maddə 278; 2004, № 2, maddə 57, № 3, maddə 133, № 4, maddə 199, № 8, maddələr 597, 598, № 9, maddə 669; 2005, № 1, maddə 7, № 8, maddə 686; 2006, № 1, maddə 4, № 12, maddə 1005; 2007, № 5, maddələr 439, 446, № 7, maddə 712, № 11, maddə 1078, № 12, maddə 1222; 2008, № 3, maddə 163, № 7, maddə 609; 2009, № 2, maddə 46, № 11, maddə 878; 2010, № 7, maddə 596, № 10, maddə 842; 2011, № 4, maddə 265; 2013, № 1, maddə 21; 2014, № 2, maddə 85, № 7, maddələr 782, 784; 2015, № 2, maddə 98, № 4, maddə 346, № 5, maddə 483, № 11, maddə 1286; 2016, № 6, maddə 1004, № 11, maddə 1789, № 12, maddə 2033; 2017, № 6, maddə 1034, № 7, maddə 1305, № 11, maddə 1965; 2018, № 1, maddə 12, № 3, maddə 395, № 5, maddə 888, № 7 (I kitab), maddə 1442, № 12 (I kitab), maddə 2525; 2019, № 1, maddə 22, № 7, maddələr 1196, 1206,№ 12, maddə 1895; 2020,№ 7, maddə 826; 2021, № 8, maddə 897; 2022, № 1, maddə 5, № 7, maddə 713, № 8, maddə 829) 111-ci maddəsinin birinci hissəsinin üçüncü abzasında "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin.

**Maddə 3.** "Yanğın təhlükəsizliyi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 5, maddə 415; 2001, № 12, maddə 736; 2002, № 5, maddələr 235, 237, № 12, maddə 706; 2004, № 4, maddə 202, № 6, maddə 396, № 10, maddələr 761, 779; 2007, № 5, maddə 442, № 10, maddə 938; 2008, № 8, maddə 695; 2009, № 6, maddə 398; 2014, № 10, maddə 1169; 2015, № 2, maddə 102; 2017, № 6, maddə 1022, № 12 (I kitab), maddə 2204; 2018, № 7 (I kitab), maddə 1384; 2022, № 8, maddə 833) 16-cı maddəsinin birinci hissəsinin birinci cümləsində "kütləvi informasiya vasitələri" sözləri "media" sözü ilə əvəz edilsin.

**Maddə 4.** "Müflisləşmə və iflas haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 6, maddə 460; 2001, № 1, maddə 25, № 6, maddə 362; 2002, № 5, maddə 241; 2006, № 3, maddə 225; 2007, № 5, maddə 401; 2008, № 5, maddə 348; 2010,№ 4, maddə 276; 2015, № 4, maddə 355, № 11, maddə 1260; 2017, № 3, maddə 332, № 5, maddə 736; 2018, № 4, maddə 652, № 12 (I kitab), maddə 2529; 2019, № 1, maddə 28,№ 4, maddə 600, № 6, maddə 993; 2020, № 5, maddə 515, № 12 (I kitab), maddə 1453; 2021, № 11, maddə 1206) 53-cü maddəsinin 1-ci hissəsinin "a" bəndində "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin.

**Maddə 5.** "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 6, maddə 497; 1999, № 5, maddə 285; 2001, № 3, maddələr 141, 142, 143, 144, № 11, maddələr 672, 687, 693; 2002, № 5, maddələr 240, 244, № 6, maddə 328; 2003, № 6, maddə 256; 2004, № 4, maddə 199, № 6, maddə 396, № 7, maddə 507; 2006, № 2, maddə 66, № 12, maddə 1028; 2007, № 6, maddə 560, № 11, maddə 1052, № 12, maddə 1197; 2008, № 7, maddə 602; 2009, № 2, maddə 46,№ 12, maddə 949; 2010, № 11, maddə 962; 2011, № 2, maddələr 70, 71, № 7, maddə 616; 2012, № 6, maddə 510; 2013, № 11, maddələr 1285, 1305, 1316; 2015, № 2, maddə 104, № 4, maddə 345, № 6, maddə 681; 2016, № 2 (I kitab), maddə 189, № 4, maddə 658; 2017, № 6, maddə 1060, № 7, maddə 1262; 2019, № 2, maddə 180, № 9, maddə 1484; 2020, № 5, maddə 521, № 7, maddə 826, № 12 (I kitab), maddə 1425; 2021, № 6 (I kitab), maddə 542, № 8, maddə 897, № 11, maddə 1205; 2022, № 6, maddələr 581, 592, № 8, maddə 823) aşağıdakı dəyişikliklər edilsin:

5.1. 11-ci maddənin birinci hissəsində "kütləvi informasiya vasitələri" sözləri "media" sözü ilə əvəz edilsin;

5.2. 50-ci maddənin dördüncü hissəsində "kütləvi informasiya vasitələrinin" sözləri "media subyektlərinin" sözləri ilə əvəz edilsin.

**Maddə 6.** "Vətən uğrunda həlak olanların xatirəsinin əbədiləşdirilməsi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 11, maddə 641; 2009, № 2, maddə 46; 2021,№ 7, maddə 699) 3-cü maddəsinin birinci hissəsinin doqquzuncu abzasında "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin.

**Maddə 7.** "Mülki müdafiə haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 4, maddə 222; 2004, № 4, maddə 202; 2005, № 4, maddə 278, № 12, maddə 1083; 2018, № 7 (I kitab), maddə 1404) 11-ci maddəsinin ikinci hissəsində "kütləvi informasiya vasitələrindən" sözləri "mediadan" sözü ilə əvəz edilsin.

**Maddə 8.** "Qrant haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 6, maddə 366; 2001, № 12, maddə 736; 2002, № 12, maddə 706; 2003, № 1, maddə 1; 2009, № 8, maddə 611; 2013, № 3, maddə 215; 2014, № 2, maddə 82, № 11, maddələr 1358, 1369; 2017, № 3, maddə 335; 2019, № 1, maddə 27; 2020, № 8, maddə 1019; Azərbaycan Respublikasının 2022-ci il 29 noyabr tarixli 649-VIQD nömrəli Qanunu) 4-cü maddəsinin 5-ci hissəsinin ikinci cümləsində "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin.

**Maddə 9.** "Hidrometeorologiya fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 8, maddə 482; 2007, № 10, maddə 938; 2017, № 1, maddə 15, № 6, maddə 1015; 2018, № 4, maddə 649) 6-cı maddəsinin dördüncü və onuncu abzaslarında və 17-ci maddəsinin üçüncü hissəsində ismin müvafiq hallarında "kütləvi informasiya vasitələri" sözləri ismin müvafiq hallarında "media subyektləri" sözləri ilə əvəz edilsin.

**Maddə 10.** "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 8, maddə 484; 2001, № 3, maddə 143, № 11, maddələr 676, 687, № 12, maddə 731; 2002, № 5, maddə 241, № 6, maddə 328; 2004, № 2, maddə 57, № 3, maddə 133, № 7, maddə 507; 2006, № 2, maddə 75; 2007, № 6, maddə 560; 2008, № 7, maddə 602; 2010, № 2, maddə 70, № 4, maddə 275; 2013, № 11, maddə 1317; 2015, № 5, maddə 484; 2016, № 6, maddə 968; 2017, № 7, maddə 1263; 2019, № 1, maddə 9, № 11, maddə 1684, № 12, maddələr 1881, 1908; 2020, № 6, maddə 670, № 7, maddə 827, № 11, maddə 1332; 2021, № 8, maddə 897; Azərbaycan Respublikasının 2022-ci il 27 dekabr tarixli 776-VIQD nömrəli Qanunu) 11-1-ci maddəsində aşağıdakı dəyişikliklər edilsin:

10.1. 11-1.1.5-ci maddədə "kütləvi informasiya vasitələrində, teleradio proqramlarında (verilişlərində)" sözləri "mediada, televiziya və radio proqramlarında" sözləri ilə əvəz edilsin;

10. 2. 11-1.1.8-ci maddədən "(verilişlərin)" sözü çıxarılsın;

10. 3. 11-1.3-cü maddədə "verilişlər" sözü "proqramlar" sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 fevral 2023-cü il*

## "Yol hərəkəti haqqında", "Azərbaycan Respublikası Milli Məclisinin komitələri haqqında", "Torpaq bazarı haqqında", "Ətraf mühitin mühafizəsi haqqında", "Terrorçuluğa qarşı mübarizə haqqında", "Milli arxiv fondu haqqında", "Bələdiyyələrin statusu haqqında", "Əməliyyat-axtarış fəaliyyəti haqqında", "Su təchizatı və tullantı suları haqqında" və "Taxıl haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci, 7-ci, 10-cu, 11-ci, 13-cü, 17-ci, 20-ci və 23-cü bəndlərini və 95-ci maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq, "Media haqqında" Azərbaycan Respublikasının 2021-ci il 30 dekabr tarixli 471-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 9, maddə 564; 2001, № 5, maddə 298, № 11, maddələr 676, 698; 2002, № 1, maddə 9, № 8, maddə 463; 2003, № 8, maddə 424; 2004, № 2, maddə 57, № 11, maddə 901; 2005, № 4, maddə 277, № 10, maddə 874, № 11, maddə 993; 2006, № 12, maddə 1027; 2007, № 6, maddə 560, № 11, maddələr 1053, 1091; 2008, № 2, maddə 49, № 6, maddələr 453, 463, № 7, maddə 602; 2009, № 2, maddə 47, № 4, maddə 210, № 12, maddə 948; 2010, № 7, maddə 598; 2011, № 2, maddə 71, № 4, maddə 255, № 6, maddə 469, № 12, maddə 1097; 2012, № 5, maddə 402, № 7, maddə 671; 2013, № 4, maddələr 362, 363, № 7, maddə 795, № 11, maddələr 1295, 1298; 2014, № 4, maddələr 343, 346, № 5, maddə 467, № 11, maddə 1352; 2015, № 1, maddə 2, № 2, maddələr 76, 79, 105, № 5, maddə 502, № 6, maddə 686, № 11, maddələr 1256, 1276; 2016, № 11, maddələr 1758, 1784, 1795, № 12, maddə 1993; 2017, № 2, maddələr 138, 150, № 5, maddə 727, № 8, maddə 1507, № 10, maddə 1774, № 12 (I kitab), maddə 2215; 2018, № 2, maddələr 143, 157, № 4, maddə 645, № 6, maddələr 1165, 1192, № 7 (I kitab), maddələr 1432, 1436, 1439; 2019, № 1, maddə 46, № 6, maddə 997, № 7, maddə 1183, № 8, maddə 1376; 2020, № 5, maddə 521, № 7, maddələr 827, 847, № 12 (I kitab), maddə 1425; 2021, № 4, maddə 305, № 6 (I kitab), maddə 543, № 8, maddə 897; 2022, № 8, maddə 831, № 11, maddə 1232; Azərbaycan Respublikasının 2022-ci il 16 dekabr tarixli 695-VIQD nömrəli və 20 dekabr tarixli 722-VIQD nömrəli qanunları) 18-ci maddəsinin V hissəsində "kütləvi informasiya vasitələrindən də" sözləri "mediadan da" sözləri ilə əvəz edilsin.

**Maddə 2.** "Azərbaycan Respublikası Milli Məclisinin komitələri haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 9, maddə 565; 2000, № 12, maddə 833; 2005, № 10, maddə 876; 2007, № 5, maddə 437; 2009, № 6, maddə 395; 2010, № 4, maddə 276; 2011, № 2, maddə 71; 2016, № 1, maddə 34; 2019, № 4, maddə 576, № 6, maddə 1004; 2020, № 4, maddə 396, № 7, maddə 827; 2021, № 1, maddə 4) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 5-ci maddənin ikinci hissəsində "kütləvi informasiya vasitələrinin" sözləri "media subyektlərinin" sözləri ilə əvəz edilsin;

2.2. 10-cu maddənin ikinci hissəsinin dördüncü abzasında, 18-3-cü maddənin ikinci hissəsinin üçüncü abzasında və 21-ci maddənin birinci hissəsində ismin müvafiq hallarında "kütləvi informasiya vasitələri" sözləri ismin müvafiq hallarında "media" sözü ilə əvəz edilsin.

**Maddə 3.** "Torpaq bazarı haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 7, maddə 390; 2002, № 5, maddə 241; 2003, № 1, maddələr 11, 13; 2006, № 6, maddə 478, № 8, maddə 657; 2007, № 1, maddə 3, № 6, maddə 571; 2008, № 5, maddə 348, № 12, maddə 1048; 2012, № 6, maddə 504; 2014, № 3, maddə 235; 2015, № 3, maddə 245, № 10, maddə 1096; 2018, № 11, maddə 2206; 2020, № 7, maddə 827, № 12 (I kitab), maddə 1423; 2021, № 7, maddə 719) 7-ci maddəsinin altıncı abzasında "kütləvi informasiya vasitələri" sözləri "media" sözü ilə əvəz edilsin.

**Maddə 4.** "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 472; 2001, № 3, maddə 148; 2002, № 5, maddə 238; 2003, № 4, maddə 178; 2004, № 2, maddə 57, № 4, maddə 201; 2008, № 2, maddə 47; 2009, № 10, maddə 769; 2013, № 3, maddə 209; 2014, № 4, maddə 338, № 10, maddə 1152; 2016, № 12, maddə 2011; 2017, № 2, maddə 142, № 6, maddə 1013; 2018, № 7 (I kitab), maddə 1398; 2019, № 1, maddə 20; 2020, № 5, maddələr 511, 512, 521, № 7, maddə 842, № 12 (I kitab), maddə 1431; 2021, № 12, maddə 1315; Azərbaycan Respublikasının 2022-ci il 20 dekabr tarixli 738-VIQD nömrəli Qanunu) 58-ci maddəsinin 7-ci hissəsində "kütləvi informasiya vasitələri" sözləri "media" sözü ilə əvəz edilsin.

**Maddə 5.** "Terrorçuluğa qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 475; 2001, № 11, maddə 676; 2002, № 5, maddə 258; 2004, № 3, maddə 133; 2005, № 10, maddə 871; 2009, № 2, maddə 46; 2010, № 3, maddə 178; 2014, № 4, maddə 329; 2016, № 6, maddə 1003; 2017, № 7, maddələr 1282, 1292; 2018, № 3, maddə 371; 2019, № 6, maddə 1002; Azərbaycan Respublikasının 2022-ci il 2 dekabr tarixli 671-VIQD nömrəli Qanunu) 9-cu maddəsinin ikinci hissəsində "kütləvi informasiya vasitələri işçilərinin" sözləri "media sahəsində çalışan işçilərin" sözləri ilə əvəz edilsin.

**Maddə 6.** "Milli arxiv fondu haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 7, maddə 404; 2002, № 12, maddə 706; 2004, № 2, maddə 57, № 4, maddə 199; 2006, № 2, maddə 64, № 12, maddə 1005; 2007, № 1, maddə 4; 2009, № 5, maddə 308; 2010, № 7, maddə 579; 2011, № 2, maddə 71; 2012, № 11, maddə 1038; 2013, № 6, maddə 615; 2015, № 11, maddə 1280; 2017, № 5, maddə 690; 2018, № 10, maddə 1965; 2019, № 3, maddə 378, № 7, maddə 1183; 2021, № 6 (I kitab), maddə 543; 2022, № 8, maddə 826; Azərbaycan Respublikasının 2022-ci il 2 dekabr tarixli 668-VIQD nömrəli Qanunu) 6-cı maddəsinin ikinci hissəsinin doqquzuncu abzasında "kütləvi informasiya vasitələrinin" sözləri "media subyektlərinin" sözləri ilə əvəz edilsin.

**Maddə 7.** "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 7, maddə 405; 2001, № 11, maddələr 689, 690, № 12, maddə 736; 2002, № 5, maddə 242; 2003, № 1, maddələr 11, 16, № 6, maddə 256; 2004, № 1, maddə 10, № 4, maddə 202, № 5, maddə 314, № 6, maddə 397; 2005, № 2, maddə 62; 2006, № 2, maddə 67, № 11, maddə 923, № 12, maddə 1005; 2007, № 11, maddələr 1053, 1082; 2008, № 5, maddə 354; 2009, № 6, maddə 410; 2010, № 3, maddə 173, № 4, maddələr 275, 276; 2011, № 2, maddə 71, № 12, maddə 1074; 2012, № 6, maddə 523; 2014, № 8, maddə 956, № 11, maddə 1376; 2015, № 2, maddələr 77, 88, № 5, maddə 485; 2017, № 1, maddə 3, № 5, maddə 707; 2018, № 1, maddə 28, № 11, maddələr 2196, 2218; 2019, № 8, maddə 1370; 2020, № 7, maddə 849; 2021, № 6 (I kitab), maddə 543) 4-cü maddəsinin 2-ci hissəsinin ikinci cümləsində "kütləvi informasiya vasitələrinin" sözləri "media subyektlərinin" sözləri ilə əvəz edilsin.

**Maddə 8.** "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 11, maddə 612; 2002, № 5, maddə 250, № 6, maddə 328; 2004, № 3, maddə 133; 2005, № 12, maddə 1079; 2006, № 2, maddə 64, № 11, maddə 933, № 12, maddə 1005; 2007, № 6, maddə 560; 2008, № 4, maddə 252, № 6, maddə 462; 2010, № 3, maddə 172, № 6, maddə 487; 2011, № 4, maddələr 252, 268, № 11, maddə 989; 2014, № 2, maddə 88, № 7, maddə 764; 2016, № 2 (II kitab), maddə 217, № 11, maddə 1759; 2018, № 11, maddə 2234; 2022, № 8, maddə 829) aşağıdakı dəyişikliklər edilsin:

8.1. 11-ci maddənin II hissəsinin 3-cü bəndində "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin;

8.2. 21-ci maddənin III hissəsində "kütləvi informasiya vasitələrinin" sözləri "media subyektlərinin" sözləri ilə əvəz edilsin.

**Maddə 9.** "Su təchizatı və tullantı suları haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 2; 2007, № 5, maddə 436; 2008, № 5, maddə 348; 2009, № 10, maddə 768; 2010, № 5, maddə 374; 2011, № 4, maddə 263; 2012, № 6, maddə 505; 2014, № 6, maddə 617; 2016, № 12, maddə 1992; 2018, № 5, maddə 854; 2019, № 6, maddə 989; 2021, № 5,maddə 429) aşağıdakı dəyişikliklər edilsin:

9.1. 21-ci maddədə və 28-ci maddənin 3-cü hissəsinin "a" bəndində ismin müvafiq hallarında "kütləvi informasiya vasitələri" sözləri ismin müvafiq hallarında "media" sözü ilə əvəz edilsin;

9.2. 29-cu maddənin 2-ci hissəsində birinci halda "kütləvi informasiya vasitələri" sözləri "media" sözü ilə əvəz edilsin və həmin hissədən ikinci halda "kütləvi informasiya vasitələri ilə" sözləri çıxarılsın.

**Maddə 10.** "Taxıl haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 7, maddə 491; 2004, № 2, maddə 57; 2007, № 5, maddə 397; 2011, № 2, maddə 71; 2014, № 11, maddə 1373; 2016, № 7, maddə 1241; 2017, № 5, maddə 717; 2018, № 1, maddə 17; 2019, № 8, maddə 1383; 2021, № 10, maddə 1096) 9.2-ci maddəsinin birinci cümləsində və 9.4-cü maddəsində "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 fevral 2023-cü il*

## Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 fevral tarixli 1256 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda və 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 fevral tarixli 1256 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 200, № 6, maddə 1105, № 9, maddə 1638, № 11, maddə 1984; 2018, № 2, maddə 199, № 3, maddələr 415, 419, 429, № 5, maddələr 915, 927, № 7 (I kitab), maddə 1481, № 8, maddə 1698, № 11, maddələr 2242, 2289, № 12 (I kitab), maddələr 2566, 2597; 2019, № 1, maddə 82, № 2, maddə 213, № 3, maddə 426, № 4, maddələr 620, 630, 649, № 5, maddələr 819, 862; 2020, № 3, maddələr 238, 240, № 4, maddə 404, № 7, maddələr 864, 885, № 8, maddə 1041, № 9, maddə 1153; 2021, № 6 (I kitab), maddə 566, № 7, maddələr 724, 728, № 12, maddələr 1407, 1423; 2022, № 4, maddələr 313, 323, № 8, maddə 896, № 10, maddə 1146, № 11, maddələr 1267, 1269, № 12, maddələr 1414, 1462, 1464; 2023, № 1, maddə 97; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 1 fevral tarixli 2018 nömrəli və 30 mart tarixli 2079 nömrəli fərmanları) ilə təsdiq edilmiş "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın 12.0-cı bəndinə "onun müavinləri," sözlərindən sonra "Xidmətin Naxçıvan Muxtar Respublikası üzrə baş idarəsinin rəisi, onun müavini," sözləri əlavə edilsin və həmin bənddən ", Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi, onun müavini, Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və bölmələrinin rəisləri, onların müavinləri" sözləri çıxarılsın.

2. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 765, № 9, maddə 1650, № 10, maddə 1789, № 12 (I kitab), maddələr 2314, 2321; 2018, № 1, maddə 54, № 2, maddələr 200, 219, № 3, maddələr 416, 430, 448, № 5, maddələr 916, 919, № 6, maddə 1243, № 9, maddələr 1828, 1840, № 11, maddələr 2274, 2289, № 12 (I kitab), maddələr 2540, 2587, 2601; 2019, № 1, maddə 82, № 2, maddə 216, № 3, maddə 431, № 4, maddə 620, № 5, maddələr 819, 824, 835, 866, № 7, maddə 1221, № 8, maddə 1388, № 10, maddələr 1581, 1587, № 11, maddələr 1700, 1710; 2020, № 3, maddə 252, № 5, maddələr 538, 564, № 6, maddələr 710, 714, № 7, maddələr 865, 880, № 8, maddə 1032, № 11, maddə 1345, № 12 (I kitab), maddə 1484; 2021, № 1, maddə 33, № 6 (I kitab), maddə 566, № 8, maddə 921, № 12, maddələr 1407, 1423; 2022, № 4, maddələr 305, 306, 323, 329, № 7, maddə 728, № 10, maddə 1146, № 11, maddələr 1251, 1267, 1269; 2023, № 1, maddələr 66, 97; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 3 mart tarixli 2051 nömrəli və 30 mart tarixli 2079 nömrəli fərmanları) ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın 75-ci hissəsinə "onun müavinləri," sözlərindən sonra "Xidmətin Naxçıvan Muxtar Respublikası üzrə baş idarəsinin rəisi, onun müavini," sözləri əlavə edilsin və həmin hissədən ", Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi, onun müavini, Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və bölmələrinin rəisləri, onların müavinləri" sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 aprel 2023-cü il*

## "İpoteka haqqında", "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında", "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında", "İnzibati icraat haqqında", "Dərman vasitələri haqqında", "Əmanətlərin sığortalanması haqqında", "Dövlət borcu haqqında", "İnsanın immunçatışmazlığı virusunun törətdiyi xəstəliklə mübarizə haqqında" və "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci, 11-ci, 13-cü, 15-ci, 18-ci, 20-ci və 27-ci bəndlərini rəhbər tutaraq, "Media haqqında" Azərbaycan Respublikasının 2021-ci il 30 dekabr tarixli 471-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** "İpoteka haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 6, maddə 461; 2007, № 5, maddə 436, № 11, maddə 1053; 2008, № 5, maddə 348; 2009, № 12, maddə 948; 2011, № 7, maddə 591; 2017, № 10, maddə 1773; 2018, № 12 (I kitab), maddələr 2468, 2527; 2019, № 1, maddə 33, № 5, maddə 792; 2021, № 6 (I kitab), maddə 556; Azərbaycan Respublikasının 2022-ci il 2 dekabr tarixli 671-VIQD nömrəli və 20 dekabr tarixli 709-VIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 42.1-ci maddənin birinci cümləsində "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin;

1.2. 43.1-ci maddədə "kütləvi informasiya vasitəsində" sözləri "mediada" sözü ilə əvəz edilsin.

**Maddə 2.** "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 8, maddə 683) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 3.2-ci maddədə "kütləvi informasiya vasitələri ilə" sözləri "mediada" sözü ilə əvəz edilsin;

2.2. 4.3.18-ci maddədə "kütləvi informasiya vasitələrinin" sözləri "media subyektlərinin" sözləri ilə əvəz edilsin.

**Maddə 3.** "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 8, maddə 695; 2007, № 5, maddə 437, № 10, maddələr 932, 938; 2008, № 7, maddə 602; 2009, № 1, maddə 6; 2014, № 11, maddə 1374; 2015, № 11, maddə 1273; 2016, № 6, maddə 992; 2017, № 1, maddə 8, № 11, maddə 1982; 2018, № 5, maddə 884; 2019, № 11, maddə 1690; 2020, № 7, maddə 829; 2021, № 8, maddə 898; 2022, № 5, maddə 433) 19.2.7-ci maddəsində "kütləvi informasiya vasitələrinə" sözləri "media subyektlərinə" sözləri ilə əvəz edilsin.

**Maddə 4.** "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 12, maddə 1084; 2006, № 12, maddə 1031; 2008, № 6, maddə 462; 2011, № 7, maddə 592; 2014, № 12, maddə 1516; 2016, № 4, maddə 643; 2018, № 12 (I kitab), maddələr 2470, 2530; 2019, № 1, maddələr 5, 21, № 2, maddə 184, № 12, maddə 1901; 2020, № 6, maddə 669, № 7, maddə 829; 2021, № 7, maddə 711; Azərbaycan Respublikasının 2022-ci il 20 dekabr tarixli 727-VIQD nömrəli Qanunu) 61.5.3-cü maddəsində, 62.4-cü maddəsinin birinci cümləsində və 62.5-ci maddəsində "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin.

**Maddə 5.** "Dərman vasitələri haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 2, maddə 70, № 11, maddə 1046; 2009, № 6, maddə 397, № 12, maddələr 948, 949; 2010, № 7, maddə 600; 2011, № 4, maddə 259; 2013, № 4, maddə 356; 2015, № 2, maddə 84, № 4, maddə 365; 2016, № 11, maddə 1787; 2017, № 1, maddə 10, № 5, maddə 746, № 6, maddələr 1023, 1038; 2018, № 3, maddə 374, № 6, maddə 1181, № 12 (I kitab), maddə 2508; 2021, № 12, maddə 1315) 16.1-ci maddəsində "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin.

**Maddə 6.** "Əmanətlərin sığortalanması haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 2, maddə 79; 2009, № 6, maddə 400, № 7, maddə 517; 2016, № 3, maddələr 394, 421; 2017, № 7, maddə 1310; 2019, № 1, maddə 31; 2020, № 7, maddə 825, № 12 (I kitab), maddə 1437; Azərbaycan Respublikasının 2022-ci il 20 dekabr tarixli 710-VIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

6.1. 8.1.6-cı maddədə və 30.3.1-ci maddənin birinci cümləsində ismin müvafiq hallarında "kütləvi informasiya vasitələri" sözləri ismin müvafiq hallarında"media subyektləri" sözləri ilə əvəz edilsin;

6.2. 22.4-cü maddədə, 28.1-ci maddənin birinci cümləsində, 30.1-ci, 30.2-ci və 30.4-cü maddələrdə "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin.

**Maddə 7.** "Dövlət borcu haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 8, maddə 748, № 11, maddə 1093; 2010, № 4, maddə 276; 2016, № 11, maddə 1772; 2017, № 5, maddə 704, № 12 (I kitab), maddə 2252; 2018, № 12 (I kitab), maddə 2501; 2019, № 1, maddə 3; 2020, № 12 (l kitab), maddə 1456; 2021, № 12, maddə 1331; Azərbaycan Respublikasının 2022-ci il 20 dekabr tarixli 711-VIQD nömrəli Qanunu) 16.3-cü maddəsinin üçüncü cümləsində "kütləvi informasiya vasitələrini" sözləri "media subyektlərini" sözləri ilə əvəz edilsin.

**Maddə 8.** "İnsanın immunçatışmazlığı virusunun törətdiyi xəstəliklə mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 6, maddə 481; 2014, № 11, maddə 1350; 2016, № 4, maddə 651; 2018, № 5, maddə 892; 2020, № 7, maddə 831; 2021, № 6 (I kitab), maddə 547) 5.3-cü maddəsinin birinci cümləsində "teleradio" sözü "televiziya və radio" sözləri ilə və hər iki halda "verilişlərin" sözü "proqramların" sözü ilə əvəz edilsin.

**Maddə 9.** "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 11, maddə 1248; 2017, № 6, maddə 1032; 2022, № 7, maddə 703) 3.0.7-ci, 3.0.9-cu maddələrində, 15-ci maddəsinin adında, 15.1-ci və 15.2-ci maddələrində "teleradio" sözü "televiziya və radio" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 fevral 2023-cü il*

## "İpoteka haqqında", "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında", "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında", "İnzibati icraat haqqında", "Dərman vasitələri haqqında", "Əmanətlərin sığortalanması haqqında", "Dövlət borcu haqqında", "İnsanın immunçatışmazlığı virusunun törətdiyi xəstəliklə mübarizə haqqında" və "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 17 fevral tarixli 813-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 23 iyun tarixli 950 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət və bələdiyyə orqanlarında, dövlət və ya bələdiyyə mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə və ya bələdiyyəyə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılması Qaydası"nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "İpoteka haqqında", "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında", "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında", "İnzibati icraat haqqında", "Dərman vasitələri haqqında", "Əmanətlərin sığortalanması haqqında", "Dövlət borcu haqqında", "İnsanın immunçatışmazlığı virusunun törətdiyi xəstəliklə mübarizə haqqında" və "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 17 fevral tarixli 813-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 23 iyun tarixli 950 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 6, maddə 1046; 2022, № 8, maddə 874) ilə təsdiq edilmiş "Dövlət və bələdiyyə orqanlarında, dövlət və ya bələdiyyə mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə və ya bələdiyyəyə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılması Qaydası"nın 2.21-ci bəndinin birinci cümləsində "teleradio" sözü "televiziya və radio" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "İpoteka haqqında", "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında", "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında", "İnzibati icraat haqqında", "Dərman vasitələri haqqında", "Əmanətlərin sığortalanması haqqında", "Dövlət borcu haqqında", "İnsanın immunçatışmazlığı virusunun törətdiyi xəstəliklə mübarizə haqqında" və "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 17 fevral tarixli 813-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 aprel 2023-cü il*

## Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Naxçıvan Muxtar Respublikası üzrə baş idarəsinin yaradılması və Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 13 fevral tarixli 593 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin əsasında Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Naxçıvan Muxtar Respublikası üzrə baş idarəsi yaradılsın.

2. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 13 fevral tarixli 593 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 2, maddə 82; 2015, № 2, maddə 138, № 7, maddə 831, № 11, maddə 1320; 2016, № 6, maddə 1034, № 10, maddə 1612; 2017, № 12 (I kitab), maddələr 2282, 2294; 2018, № 11, maddə 2258; 2019, № 5, maddə 847; 2020, № 7, maddə 878, № 11, maddə 1349; 2021, № 1, maddə 36; 2022, № 4, maddələr 314, 324, № 8, maddə 871; 2023, № 1, maddə 84; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 3 mart tarixli 2049 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti haqqında Əsasnamə"nin 5-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

2.1. 5.1-ci bəndin birinci cümləsindən "(yerli baş idarə, idarələr, şöbələr və bölmələr)" və ", habelə Naxçıvan Muxtar Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti" sözləri çıxarılsın;

2.2. 5.5-ci bəndin birinci cümləsində "bir birinci müavini və üç müavini" sözləri "müavinləri" sözü ilə əvəz edilsin;

2.3. 5.6.9-cu yarımbənddə "yerli baş idarə, idarə, şöbə və bölmələrin" sözləri "strukturuna daxil olan qurumların" sözləri ilə əvəz edilsin;

2.4. 5.6.11-ci yarımbənddə "yerli baş idarə, idarə, şöbə və bölmələrin" sözləri "strukturuna daxil olan" sözləri ilə əvəz edilsin;

2.5. 5.7-ci bəndin birinci cümləsindən ", Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisindən" sözləri çıxarılsın.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 aprel 2023-cü il*

9.3. 78.4.4-cü maddədə "kütləvi informasiya" sözləri "media" sözü ilə əvəz edilsin.

**Maddə 10.** "Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhəri haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 6 (I kitab), maddə 562; 2022, № 7, maddə 691) 9.2-ci maddəsində "verilişlərinin" sözü "proqramlarının" sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 fevral 2023-cü il*

## "Sanitariya-epidemioloji salamatlıq haqqında", "Sərhəd mühafizə orqanları haqqında", "Daxili qoşunların statusu haqqında", "Rəsmi statistika haqqında", "Həmkarlar ittifaqları haqqında", "Haqsız rəqabət haqqında", "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında", "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında", "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" və "Xüsusi iqtisadi zonalar haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci, 10-cu, 11-ci, 13-cü, 16-cı, 18-ci, 21-ci, 24-cü və 26-cı bəndlərini rəhbər tutaraq, "Media haqqında" Azərbaycan Respublikasının 2021-ci il 30 dekabr tarixli 471-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** "Sanitariya-epidemioloji salamatlıq haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992, № 22, maddə 947; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 5, maddə 419; 2001, № 3, maddə 143; 2004, № 2, maddə 57, № 4, maddə 199; 2007, № 11, maddə 1052; 2009, № 12, maddə 968; 2014, № 10, maddə 1153; 2016, № 6, maddə 980; 2017, № 12 (I kitab), maddə 2200; 2018, № 4, maddə 644, № 7 (I kitab), maddə 1385; 2019, № 1, maddə 36; 2020, № 7, maddə 842; 2021, № 6 (I kitab), maddə 542) 12-ci maddəsinin ikinci hissəsində "kütləvi informasiya vasitələri" sözləri "media" sözü ilə əvəz edilsin.

**Maddə 2.** "Sərhəd mühafizə orqanları haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1994, № 16, maddə 209; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 1, maddə 15; 2004, № 2, maddə 57, № 3, maddə 133, № 4, maddə 199; 2007, № 6, maddə 560, № 11, maddə 1078; 2013, № 2, maddə 94; 2016, № 1, maddə 10; 2017, № 4, maddə 519, № 12 (I kitab), maddə 2201; 2018, № 7 (I kitab), maddə 1402; 2020, № 5, maddə 508; 2022, № 5, maddə 438) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 31-ci maddənin üçüncü hissəsində "kütləvi informasiya vasitələri" sözləri "media subyektləri" sözləri ilə əvəz edilsin;

2.2. 34-cü maddənin ikinci hissəsində "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin.

**Maddə 3.** "Daxili qoşunların statusu haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1994, № 17, maddə 233; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 1, maddə 15; 2004, № 2, maddə 57, № 3, maddə 133; 2008, № 7, maddə 602; 2009, № 12, maddə 946; 2011, № 2, maddə 71; 2020, № 7, maddə 826) 25-ci maddəsinin üçüncü hissəsinin birinci cümləsində "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin.

**Maddə 4.** "Rəsmi statistika haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1994, № 11, maddə 115; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 7, maddə 486; 2002, № 12, maddə 706; 2003, № 1, maddə 4; 2004, № 2, maddə 57, № 4, maddə 202, № 7, maddə 507; 2006, № 2, maddə 63, № 12, maddə 1005; 2007, № 5, maddə 437; 2008, № 2, maddə 49; 2009, № 12, maddə 957; 2011, № 12, maddə 1101; 2017, № 12 (I kitab), maddə 2199; 2018, № 1, maddə 5, № 11, maddə 2201) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 6-cı maddənin birinci hissəsinin 6-cı bəndində və 21-ci maddənin ikinci hissəsində ismin müvafiq hallarında "kütləvi informasiya vasitələri" sözləri ismin müvafiq hallarında "media" sözü ilə əvəz edilsin;

4.2. 7-ci maddənin birinci hissəsinin 7-ci bəndində "kütləvi informasiya vasitələri" sözləri "media subyektləri" sözləri ilə əvəz edilsin.

**Maddə 5.** "Həmkarlar ittifaqları haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1994, № 17, maddə 235; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 3, maddə 226, № 5, maddə 379; 2001, № 11, maddələr 676, 683; 2004, № 6, maddə 397; 2005, № 1, maddə 5, № 8, maddə 684; 2006, № 11, maddə 922; 2007, № 5, maddə 437, № 11, maddə 1049; 2010, № 3, maddə 171; 2012, № 7, maddə 672; 2013, № 1, maddə 17; 2014, № 10, maddə 1172; 2018, № 1, maddə 6, № 6, maddə 1159; 2019, № 5, maddə 797, № 8, maddə 1382) 17-ci maddəsinin birinci hissəsində "kütləvi informasiya vasitələri" sözləri "media subyektləri" sözləri ilə əvəz edilsin.

**Maddə 6.** "Haqsız rəqabət haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1995, № 23-24, maddə 366; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 11, maddələr 683, 686; 2004, № 2, maddə 57; 2015, № 4, maddə 370; 2017, № 7, maddə 1260; 2019, № 1, maddə 26) 1-ci maddəsinin birinci hissəsinin dördüncü abzasında "kütləvi informasiya vasitələri" sözləri "media subyektləri" sözləri ilə əvəz edilsin.

**Maddə 7.** "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1995, № 23-24, maddə 368; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 11, maddələr 676, 683, 686; 2002, № 5, maddə 241; 2003, № 1, maddə 1; 2004, № 1, maddə 6, № 2, maddə 57; 2005, № 8, maddə 684, № 12, maddə 1083; 2007, № 8, maddə 745; 2011, № 11, maddə 984; 2012, № 9, maddə 842; 2014, № 10, maddə 1157; 2017, № 5, maddə 722; 2018, № 6, maddə 1169; 2019, № 1, maddə 31, № 8, maddə 1384) 19.2.5-ci maddəsində "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin.

**Maddə 8.** "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 3, maddə 167; 2001, № 11, maddə 691; 2002, № 12, maddə 706; 2004, № 3, maddə 133; 2005, № 8, maddə 684; 2008, № 2, maddə 49, № 5, maddə 342; 2010, № 11, maddə 937; 2013, № 5, maddə 482; 2017, № 7, maddə 1261; 2018, № 6, maddə 1173; 2019, № 1, maddə 22; 2021, № 3, maddə 213; 2022,№ 1, maddə 4) 6-cı maddəsinin 1-ci hissəsinin on beşinci abzasında "teleradio verilişlərinin proqramları" sözləri "televiziya və radio proqramları" sözləri ilə əvəz edilsin.

**Maddə 9.** "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (I kitab), maddə 580; 2002, № 10, maddə 586; 2005, № 5, maddə 391, № 6, maddə 464; 2006, № 5, maddə 389, № 6, maddə 478, № 12, maddə 1005; 2007, № 8, maddə 745; 2013, № 11, maddə 1314; 2014, № 12, maddə 1524; 2015, № 2, maddə 78, № 11, maddə 1297; 2017, № 12 (I kitab), maddə 2191; 2019, № 2, maddə 180, № 5, maddə 797, № 6, maddə 993, № 8, maddə 1382; 2020, № 5, maddə 509; 2021, № 12, maddə 1299; 2022, № 5, maddə 429) 25.1-ci maddəsində və 25.3-cü maddəsinin birinci cümləsində "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin.

**Maddə 10.** "Xüsusi iqtisadi zonalar haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 6, maddə 396; 2013, № 2, maddə 92; 2021, № 7, maddə 719) 4.2.2-ci maddəsində "teleradio" sözü "televiziya və radio" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 fevral 2023-cü il*

## "Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında", "Mədəni bitkilərin genetik ehtiyatlarının mühafizəsi və səmərəli istifadəsi haqqında", "Sosial xidmət haqqında", "Uşaqların icbari dispanserizasiyası haqqında", "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında", "İctimai iştirakçılıq haqqında", "Yaşıllıqların mühafizəsi haqqında", "Bələdiyyə qulluqçularının etik davranış qaydaları haqqında", "Qiymətli kağızlar bazarı haqqında" və "Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhəri haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 17 fevral tarixli 812-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 fevral tarixli 383 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrinin forması və aparılması qaydası haqqında Əsasnamə"də, 2021-ci il 22 iyun tarixli 1375 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin Nizamnaməsi"ndə dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında", "Mədəni bitkilərin genetik ehtiyatlarının mühafizəsi və səmərəli istifadəsi haqqında", "Sosial xidmət haqqında", "Uşaqların icbari dispanserizasiyası haqqında", "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında", "İctimai iştirakçılıq haqqında", "Yaşıllıqların mühafizəsi haqqında", "Bələdiyyə qulluqçularının etik davranış qaydaları haqqında", "Qiymətli kağızlar bazarı haqqında" və "Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhəri haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 17 fevral tarixli 812-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 fevral tarixli 383 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 2, maddə 87; 2015, № 8, maddə 910; 2016, № 8, maddə 1384; 2017, № 3, maddə 377, № 10, maddə 1778; 2018, № 10, maddə 2001; 2019, № 5, maddə 857; 2020, № 6, maddə 707; 2021, № 5, maddə 450; 2022, № 7, maddə 754, № 8, maddələr 844, 881) ilə təsdiq edilmiş "Sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrinin forması və aparılması qaydası haqqında Əsasnamə"nin 3.4.14-cü yarımbəndinin ikinci cümləsində "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin və həmin yarımbəndin 4-cü abzası aşağıdakı redaksiyada verilsin:

"4. media subyektinin adı, məlumatın yayılma tarixi;".

2. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 22 iyun tarixli 1375 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 6 (I kitab), maddə 590, № 12, maddə 1405; 2022, № 10, maddə 1135) ilə təsdiq edilmiş "Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin Nizamnaməsi"nin 3.1.20-ci yarımbəndində "verilişlərinin" sözü "proqramlarının" sözü ilə əvəz edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında", "Mədəni bitkilərin genetik ehtiyatlarının mühafizəsi və səmərəli istifadəsi haqqında", "Sosial xidmət haqqında", "Uşaqların icbari dispanserizasiyası haqqında", "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında", "İctimai iştirakçılıq haqqında", "Yaşıllıqların mühafizəsi haqqında", "Bələdiyyə qulluqçularının etik davranış qaydaları haqqında", "Qiymətli kağızlar bazarı haqqında" və "Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhəri haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 17 fevral tarixli 812-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 aprel 2023-cü il*

## Azərbaycan Respublikası Prezidentinin "Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2000-ci il 8 fevral tarixli 277 nömrəli, "Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikası Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" 2002-ci il 11 may tarixli 699 nömrəli, "Milli Televiziya və Radio Şurası haqqında Əsasnamənin təsdiq edilməsi barədə" 2002-ci il 5 oktyabr tarixli 795 nömrəli, "Televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı əlavə tədbirlər haqqında" 2005-ci il 11 aprel tarixli 220 nömrəli, "Televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" 2005-ci il 3 iyun tarixli 245 nömrəli və "Televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikasının Qanununa əlavələr və dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" 2009-cu il 24 iyun tarixli 104 nömrəli fərmanlarının ləğv edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Media haqqında" Azərbaycan Respublikasının 2021-ci il 30 dekabr tarixli 471-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. "Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 8 fevral tarixli 277 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 2, maddə 92; 2003, № 10, maddə 585; 2004, № 1, maddə 24; 2008, № 5, maddə 359; 2009, № 8, maddə 627; 2014, № 5, maddə 477, № 9, maddə 1027; 2015, № 11, maddə 1312; 2016, № 4, maddə 675, № 8, maddə 1384; 2017, № 8, maddə 1521; 2019, № 2, maddə 230, № 3, maddə 393) ləğv edilsin.

2. "Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikası Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 may tarixli 699 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 5, maddə 266) ləğv edilsin.

3. "Milli Televiziya və Radio Şurası haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 5 oktyabr tarixli 795 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 10, maddə 591; 2005, № 3, maddə 173, № 4, maddə 295; 2008, № 10, maddə 888; 2009, № 2, maddə 78; 2010, № 3, maddə 189; 2011, № 2, maddə 79; 2015, № 2, maddə 118, № 9, maddə 993; 2018, № 5, maddə 949; 2020, № 5, maddə 539, № 6, maddə 715) ləğv edilsin.

4. "Televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 11 aprel tarixli 220 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 4, maddə 295; 2007, № 8, maddə 766, № 11, maddə 1114) ləğv edilsin.

5. "Televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 3 iyun tarixli 245 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 6, maddə 482) ləğv edilsin.

6. "Televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikasının Qanununa əlavələr və dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 24 iyun tarixli 104 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 6, maddə 416; 2015, № 9, maddə 994) ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 aprel 2023-cü il*

# "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında", "Məlumat azadlığı haqqında", "Nəşriyyat işi haqqında", "Ətraf mühitə dair informasiya almaq haqqında", "Telekommunikasiya haqqında", "İnformasiya əldə etmək haqqında", "Teatr və teatr fəaliyyəti haqqında" və "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci, 10-cu və 23-cü bəndlərini rəhbər tutaraq, "Media haqqında" Azərbaycan Respublikasının 2021-ci il 30 dekabr tarixli 471-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 6, maddə 364; 2005, № 6, maddə 466; 2006, № 12, maddə 1005; 2007, № 10, maddə 938; 2011, № 3, maddə 162; 2012, № 11, maddə 1051; 2017, № 3, maddə 345; 2019, № 12, maddə 1881; 2020, № 3, maddə 225, № 6, maddə 671; 2021, № 12, maddə 1345; 2022, № 7, maddə 693) 1-ci maddəsinin ikinci hissəsində "Kütləvi informasiya vasitələri" sözləri "Media" sözü ilə əvəz edilsin.

**Maddə 2.** "Məlumat azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 9, maddə 561; 2000, № 3 (I kitab), maddə 136; 2003, № 4, maddə 178; 2004, № 3, maddə 133; 2006, № 12, maddə 1005; 2010, № 3, maddə 172; 2011, № 3, maddə 162; 2013, № 4, maddə 359; 2016, № 6, maddə 1002) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 6-cı maddənin yeddinci abzasında "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin;

2.2. 7-ci maddədə və 14-cü maddənin yeddinci hissəsində "kütləvi informasiya vasitələrinin" sözləri "media subyektlərinin" sözləri ilə əvəz edilsin;

2.3. 9-cu maddənin birinci hissəsinin dördüncü abzasında "informasiya vasitələrinin" sözləri "informasiyanın" sözü ilə əvəz edilsin.

**Maddə 3.** "Nəşriyyat işi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (I kitab), maddə 581; 2002, № 12, maddə 709; 2004, № 7, maddə 505; 2007, № 10, maddə 938; 2008, № 5, maddə 343; 2013, № 5, maddə 483; 2017, № 2, maddə 143; 2019, № 3, maddə 377, № 12, maddə 1882) 9-cu maddəsinin altıncı hissəsində "Kütləvi informasiya vasitələri" sözləri "Media" sözü ilə, "normalarına" sözü "tələblərinə" sözü ilə əvəz edilsin.

**Maddə 4.** "Ətraf mühitə dair informasiya almaq haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 4, maddə 171; 2006, № 12, maddə 1005; 2016, № 6, maddə 1009, № 12, maddə 2012; 2019, № 6, maddə 989; 2020, № 7, maddə 823) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 2-ci maddədə "Kütləvi informasiya vasitələri" sözləri "Media" sözü ilə əvəz edilsin;

4.2. 6.0.2-ci maddədə "Kütləvi informasiya vasitələrində" sözləri "Mediada" sözü ilə əvəz edilsin;

4.3. 10.5-ci və 10.6-cı maddələrdə "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin.

**Maddə 5.** "Telekommunikasiya haqqında"Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 8, maddə 685; 2006, № 11, maddə 932; 2007, № 5, maddə 442, № 11, maddə 1053; 2016, № 6, maddə 969, № 12, maddə 1989; 2017, № 3, maddə 346, № 6, maddələr 1024, 1046, № 7, maddə 1266, № 12 (I kitab), maddə 2255; 2018, № 6, maddə 1161; 2019, № 4, maddə 588, № 7, maddə 1177, № 12, maddə 1882; 2020, № 8, maddə 1012; 2021, № 12, maddə 1343; 2022, № 8, maddə 833; Azərbaycan Respublikasının 2022-ci il 27 dekabr tarixli 768-VIQD və 771-VIQD nömrəli qanunları) 5.2-ci, 22-ci və 30-cu maddələrində "Televiziya və radio yayımı haqqında" sözləri "Media haqqında" sözləri ilə əvəz edilsin.

**Maddə 6.** "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 12, maddə 1080; 2007, № 8, maddə 756; 2010, № 3, maddələr 171, 172; 2011, № 3, maddə 162, № 7, maddə 617; 2012, № 5, maddə 405, № 7, maddə 653; 2015, № 2, maddə 81, № 11, maddə 1291; 2016, № 6, maddə 1009; 2017, № 3, maddə 329; 2018, № 7 (I kitab), maddə 1419; 2019, № 4, maddə 599, № 6, maddə 989; 2022, № 8, maddə 831) aşağıdakı dəyişikliklər edilsin:

6.1. 3.0.8-ci, 30.2.1-ci və 33.1.1-ci maddələrdə "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin;

6.2. 6.2-ci maddədə "kütləvi informasiya vasitələrinin" sözləri "media subyektlərinin" sözləri ilə əvəz edilsin;

6.3. 31.3-cü maddədə "teleradio verilişlərində" sözləri "televiziya və radio proqramlarında" sözləri ilə əvəz edilsin.

**Maddə 7.** "Teatr və teatr fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 2, maddə 75; 2017, № 1, maddə 9; 2018, № 12 (I kitab), maddə 2479; 2019, № 12, maddə 1882; 2021, № 11, maddə 1206) aşağıdakı dəyişikliklər edilsin:

7.1. 6.0.8-ci maddədə "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin;

7.2. 14.0.3-cü maddədə "teleradio yayımı, kabel televiziyası" sözləri "televiziya və radio yayımı" sözləri ilə əvəz edilsin.

**Maddə 8.** "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 2, maddə 78; 2015, № 11, maddə 1282; 2016, № 11, maddə 1751; 2017, № 11, maddə 1967; 2018, № 6, maddə 1175, № 11, maddə 2193; 2019, № 7, maddə 1183; 2020, № 7, maddə 831; 2021, № 8, maddə 895, № 12, maddə 1315; 2022, № 7, maddə 692) aşağıdakı dəyişikliklər edilsin:

8.1. 17.2-ci maddədə "kütləvi informasiya" sözləri "media" sözü ilə əvəz edilsin;

8.2. 17.3-cü maddədə "Kütləvi informasiya vasitələri" sözləri "Media" sözü ilə, "kütləvi informasiya vasitələri" sözləri "media subyektləri" sözləri ilə əvəz edilsin;

8.3. 20.1.25-ci maddədə "teleradio" sözü "televiziya və radio" sözləri ilə əvəz edilsin;

8.4. 20.2-ci və 46-cı maddələrdə "Televiziya və radio yayımı" sözləri "Media" sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 fevral 2023-cü il*

# "Coğrafi obyektlərin adları haqqında", "Avtomobil nəqliyyatı haqqında", "Arıçılıq haqqında", "Bədən tərbiyəsi və idman haqqında", "Bank olmayan kredit təşkilatları haqqında", "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında", "Fərdi məlumatlar haqqında", "Məişət zorakılığının qarşısının alınması haqqında" və "İnvestisiya fondları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci, 10-cu, 11-ci, 13-cü, 14-cü, 23-cü və 27-ci bəndlərini rəhbər tutaraq, "Media haqqında" Azərbaycan Respublikasının 2021-ci il 30 dekabr tarixli 471-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** "Coğrafi obyektlərin adları haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 3, maddə 139, № 12, maddə 1043) 9.1-ci maddəsində "kütləvi informasiya vasitələri" sözləri "media subyektləri" sözləri ilə əvəz edilsin.

**Maddə 2.** "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 7, maddə 599; 2010, № 4, maddə 276, № 10, maddə 841; 2013, № 11, maddə 1302; 2014, № 4, maddə 342; 2015, № 8, maddə 903, № 12, maddə 1439; 2016, № 2 (II kitab), maddə 221; 2017, № 2, maddə 140, № 12 (I kitab), maddə 2211; 2018, № 1, maddə 22, № 12 (I kitab), maddələr 2510, 2517; 2019, № 3, maddə 374, № 8, maddə 1379; 2020, № 6, maddə 663; 2021, № 1, maddələr 1, 11) 15.7-ci maddəsinin ikinci cümləsində "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin.

**Maddə 3.** "Arıçılıq haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 4, maddə 208; 2011, № 2, maddə 71; 2019, № 8, maddə 1384; 2021, № 6 (I kitab), maddə 547) 5.0.15-ci, 22.1.7-ci maddələrində və 23.1-ci maddəsinin birinci abzasında ismin müvafiq hallarında "kütləvi informasiya vasitələri" sözləri ismin müvafiq hallarında "media" sözü ilə əvəz edilsin.

**Maddə 4.** "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 8, maddə 613; 2010, № 6, maddə 489; 2011, № 2, maddə 71; 2013, № 11, maddə 1281; 2014, № 4, maddə 340; 2015, № 5, maddə 507; 2016, № 3, maddə 420, № 12, maddə 2021; 2017, № 1, maddə 11, № 7, maddə 1272; 2018, № 7 (I kitab), maddələr 1393, 1412, № 10, maddə 1966; 2019, № 5, maddə 797; 2020, № 6, maddə 670, № 7, maddə 830; 2021, № 2, maddə 109, № 6 (I kitab), maddə 547, № 8, maddə 898, № 12, maddələr 1315, 1338; 2022, № 6, maddə 592, № 7, maddə 692,№ 8, maddə 829) 13.1-ci maddəsində, 15.4-cü maddəsinin üçüncü cümləsində, 31.3.7-ci və 40-2.1.1-ci maddələrində "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin.

**Maddə 5.** "Bank olmayan kredit təşkilatları haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 2, maddə 72; 2013, № 7, maddə 789; 2014, № 10, maddə 1160; 2016, № 3, maddə 407, № 4, maddə 641; 2017, № 12 (I kitab), maddə 2228; 2018, № 5, maddə 844, № 6, maddə 1171; 2019, № 1, maddə 32, № 5, maddə 815; 2021, № 12, maddə 1298; Azərbaycan Respublikasının 2022-ci il 20 dekabr tarixli 713-VIQD nömrəli Qanunu) 21.3-cü maddəsində, 25.2-ci maddəsinin birinci cümləsində və 25.3-cü maddəsində "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin.

**Maddə 6.** "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 5, maddə 376; 2011, № 7, maddə 594; 2014, № 6, maddə 609; 2016, № 1, maddə 17; 2019, № 1, maddə 34; 2020, № 12 (I kitab), maddə 1423; 2021, № 6 (I kitab), maddə 547) aşağıdakı dəyişikliklər edilsin:

6.1. 12.4-cü maddədə "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin;

6.2. 77.1.4-cü və 77.2.4-cü maddələrdə "kütləvi informasiya vasitəsində" sözləri "mediada" sözü ilə əvəz edilsin.

**Maddə 7.** "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 6, maddə 480; 2014, № 7, maddə 773; 2018, № 5, maddə 856; 2022, № 8, maddə 831; Azərbaycan Respublikasının 2022-ci il 23 dekabr tarixli 754-VIQD nömrəli Qanunu) 2.1.12-ci maddəsində "kütləvi informasiya vasitələri" sözləri "media" sözü ilə əvəz edilsin.

**Maddə 8.** "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 10, maddə 836; 2017, № 8, maddə 1512; 2019, № 11, maddə 1685; 2021, № 6 (I kitab), maddə 547) 6.1.2-ci maddəsində "kütləvi informasiya vasitələrindən" sözləri "media subyektlərindən" sözləri ilə əvəz edilsin.

**Maddə 9.** "İnvestisiya fondları haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 11, maddə 950; 2014, № 10, maddə 1161; 2015, № 11, maddə 1261; 2016, № 3, maddə 412, № 4, maddə 642, № 12, maddə 2002; 2017, № 11, maddə 1952, №12 (I kitab), maddə 2225; 2018, № 7 (I kitab), maddə 1394; 2019, № 1, maddə 33, № 5, maddə 815, № 6, maddə 999; 2021, № 12, maddə 1298; Azərbaycan Respublikasının 2022-ci il 2 dekabr tarixli 671-VIQD nömrəli, 20 dekabr tarixli 714-VIQD nömrəli və 30 dekabr tarixli 785-VIQD nömrəli qanunları) 6.3-cü, 9.5-ci, 15.6-cı, 16.9-cu maddələrində, 19.7-ci maddəsinin ikinci cümləsində, 24.10-cu maddəsində, 25.8-ci maddəsinin dördüncü cümləsində, 41.4-cü, 43.3-cü, 45.9-cu, 46.16-cı və 47.6.2-ci maddələrində ismin müvafiq hallarında "kütləvi informasiya vasitələri" sözləri ismin müvafiq hallarında "media" sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 fevral 2023-cü il*

# "Yerli rəy sorğusu haqqında", "Avtomobil yolları haqqında", "Diplomatik xidmət haqqında", "Dövlət satınalmaları haqqında", "Gənclər siyasəti haqqında", "Azərbaycan Respublikasında dövlət dili haqqında", "Əhalinin ekoloji təhsili və maarifləndirilməsi haqqında", "Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında", "Tənzimlənən qiymətlər haqqında" və "Banklar haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci, 10-cu, 15-ci, 19-cu, 23-cü və 27-ci bəndlərini rəhbər tutaraq, "Media haqqında" Azərbaycan Respublikasının 2021-ci il 30 dekabr tarixli 471-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** "Yerli rəy sorğusu haqqında" Azərbaycan Respublikası Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 12, maddə 686; 2004, № 1, maddə 10) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 10-cu maddənin üçüncü hissəsində və 29-cu maddənin ikinci hissəsində ismin müvafiq hallarında "kütləvi informasiya vasitələri" sözləri ismin müvafiq hallarında "media" sözü ilə əvəz edilsin;

1.2. 22-ci maddənin ikinci və dördüncü hissələrində, 29-cu maddənin on üçüncü hissəsinin birinci cümləsində, 30-cu maddənin on beşinci hissəsində və 32-ci maddənin altıncı hissəsində ismin müvafiq hallarında "kütləvi informasiya vasitələri" sözləri ismin müvafiq hallarında "media subyektləri" sözləri ilə əvəz edilsin.

**Maddə 2.** "Avtomobil yolları haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (I kitab), maddə 125; 2001, № 12, maddələr 731, 736; 2004, № 11, maddə 901; 2006, № 6, maddə 478; 2007, № 5, maddə 436, № 10, maddə 938; 2008, № 5, maddə 348, № 7, maddə 602; 2012, № 6, maddə 506; 2013, № 6, maddələr 599, 624; 2014, № 4, maddə 341, № 7, maddə 775; 2016, № 2 (I kitab), maddə 200, № 12, maddələr 1994, 1995; 2017, № 5, maddə 720, № 12 (I kitab), maddə 2229; 2018, № 1, maddə 20, № 11, maddə 2223; 2019, № 1, maddə 11, № 6, maddə 989, № 7, maddə 1183; 2020, № 7, maddə 828, № 12 (I kitab), maddə 1425; 2021, № 8, maddə 897; Azərbaycan Respublikasının 2022-ci il 20 dekabr tarixli 704-VIQD nömrəli Qanunu) 19-2-ci maddəsinin yeddinci hissəsində və 39-1-ci maddəsinin ikinci hissəsində "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin.

**Maddə 3.** "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 9, maddə 567; 2002, № 12, maddə 703; 2004, № 6, maddə 414; 2005, № 10, maddə 873; 2008, № 3, maddə 155; 2009, № 6, maddə 399; 2011, № 2, maddə 71; 2013, № 4, maddə 365; 2015, № 10, maddə 1084; 2016, № 2 (I kitab), maddə 188; 2017, № 6, maddə 1041, № 7, maddə 1250, № 12 (I kitab), maddə 2190; 2021, № 8, maddə 902; 2022, № 1, maddə 6; Azərbaycan Respublikasının 2022-ci il 30 dekabr tarixli 780-VIQD nömrəli Qanunu) 4.1.8-ci maddəsində "kütləvi informasiya vasitələrinin" sözləri "media subyektlərinin" sözləri ilə əvəz edilsin.

**Maddə 4.** "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 1, maddə 11, № 12, maddə 706; 2005, № 12, maddə 1083; 2006, № 12, maddə 1005; 2010, № 3, maddə 173, № 4, maddə 276; 2016, № 2 (I kitab), maddə 205, № 4, maddə 628; 2017, № 5, maddə 699; 2018, № 12 (I kitab), maddə 2523; 2019, № 7, maddə 1208, № 8, maddə 1372; 2020, № 5, maddə 525; 2021, № 6 (I kitab), maddə 559, № 7, maddə 719, № 12, maddələr 1313, 1342) 13-1.1-ci maddəsinin ikinci cümləsində, 25.1-ci və 25.2-ci maddələrində "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin.

**Maddə 5.** "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 5, maddə 231; 2007, № 8, maddə 746; 2010, № 3, maddə 171; 2019, № 4, maddə 582, № 8, maddə 1382, № 11, maddə 1684; 2020, № 6, maddə 670, № 7, maddə 828; 2021, № 6 (I kitab), maddə 543, № 7, maddə 699, № 8, maddə 898) aşağıdakı dəyişikliklər edilsin:

5.1. 5.2-ci maddədə "verilişlərinin" sözü "proqramlarının" sözü ilə əvəz edilsin;

5.2. 5.9-cu maddədə "kütləvi informasiya vasitələri" sözləri "media subyektləri" sözləri ilə, "verilişlər" sözü "proqramlar" sözü ilə əvəz edilsin.

**Maddə 6.** "Azərbaycan Respublikasında dövlət dili haqqında"Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 1, maddə 2, № 8, maddə 415; 2004, № 8, maddə 598; 2007, № 11, maddə 1053; 2011, № 6, maddə 483; 2017, № 1, maddə 5; 2019, № 2, maddə 180, № 4, maddə 578; 2020, № 6, maddələr 671, 674, № 7, maddə 856) aşağıdakı dəyişikliklər edilsin:

6.1. 6-cı maddənin ikinci cümləsində "verilişlər" sözü "proqramlar" sözü ilə əvəz edilsin;

6.2. 18.2-ci maddədə "kütləvi informasiya vasitələri" sözləri "media subyektləri" sözləri ilə əvəz edilsin.

**Maddə 7.** "Əhalinin ekoloji təhsili və maarifləndirilməsi haqqında"Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 1, maddə 17; 2021, № 6 (I kitab), maddə 543) 8.3-cü maddəsində "kütləvi informasiya vasitələri" sözləri "media subyektləri" sözləri ilə əvəz edilsin.

**Maddə 8.** "Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında"Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 2, maddə 79; 2017, № 1, maddə 14) 8.0.4-cü və 8.0.5-ci maddələrində "kütləvi informasiya vasitələrinə" sözləri "media subyektlərinə" sözləri ilə əvəz edilsin.

**Maddə 9.** "Tənzimlənən qiymətlər haqqında"Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 10, maddə 536) 8.1.4-cü maddəsində "kütləvi informasiya vasitələri" sözləri "media" sözü ilə əvəz edilsin.

**Maddə 10.** "Banklar haqqında"Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 3, maddə 130; 2005, № 4, maddə 276; 2007, № 5, maddə 401, № 6, maddə 562, № 11, maddə 1070; 2008, №11, maddə 960; 2009, № 6, maddə 404, № 7, maddə 517; 2010, № 4, maddə 276, № 10, maddə 839; 2011, № 7, maddə 590; 2013, № 7, maddə 790; 2014, № 7, maddə 772, № 12, maddə 1517; 2015, № 11, maddə 1262; 2016, № 3, maddə 406, № 6, maddə 975; 2017, № 4, maddə 521, № 11, maddə 1956, № 12 (I kitab), maddə 2227; 2018, № 1, maddə 33, № 5, maddə 842, № 7 (I kitab), maddə 1389, № 12 (I kitab), maddə 2466; 2019, № 1, maddələr 32, 50, № 4, maddə 599, № 6, maddə 999, № 7, maddə 1185, № 8, maddə 1365; 2020, № 5, maddə 515; 2021, № 1, maddə 8, № 11, maddə 1206, № 12, maddə 1298; Azərbaycan Respublikasının 2022-ci il 2 dekabr tarixli 671-VIQD nömrəli, 20 dekabr tarixli 706-VIQD nömrəli, 23 dekabr tarixli 754-VIQD nömrəli və 30 dekabr tarixli 785-VIQD nömrəli qanunları) 18.1-ci maddəsinin birinci cümləsində, 24.5-ci maddəsinin birinci hissəsinin ikinci cümləsində, 59.3-cü maddəsinin ikinci cümləsində, 69-cu maddəsində, 74.3-cü maddəsinin ikinci cümləsində, 76.1-ci maddəsinin birinci cümləsində, 77.7-ci maddəsinin üçüncü cümləsində, 87.4-cü maddəsinin üçüncü cümləsində və 91.3-cü maddəsinin birinci cümləsində "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 fevral 2023-cü il*

# Azərbaycan Respublikası Prezidentinin "Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi və narkomanlığın yayılması ilə mübarizə üzrə Proqramın təsdiq edilməsi barədə" 2000-ci il 15 iyul tarixli 371 nömrəli, "Televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2002-ci il 5 oktyabr tarixli 794 nömrəli, "Telekommunikasiya haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2005-ci il 9 avqust tarixli 277 nömrəli, "Xidməti pasport almaq hüququ olan vəzifəli şəxslərin siyahısı"nın təsdiq edilməsi haqqında" 2011-ci il 3 mart tarixli 391 nömrəli, "Psixoloji yardım haqqında" Azərbaycan Respublikasının 2018-ci il 7 dekabr tarixli 1385-VQ nömrəli Qanununun tətbiqi barədə" 2019-cu il 21 yanvar tarixli 482 nömrəli və "Xüsusi rabitə ilə bağlı bəzi məsələlər haqqında" 2019-cu il 11 aprel tarixli 622 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Media haqqında" Azərbaycan Respublikasının 2021-ci il 30 dekabr tarixli 471-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 15 iyul tarixli 371 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 7, maddə 511; 2003, № 10, maddə 546; 2004, № 1, maddə 19; 2006, № 9, maddə 743; 2007, № 5, maddə 459; 2017, № 3, maddə 353; 2021, № 1, maddə 35, № 6 (I kitab), maddə 567; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 3 mart tarixli 2053 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi və narkomanlığın yayılması ilə mübarizə üzrə Proqram"da aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.1-ci bəndin "İcraçı orqan" sütununda "Milli Televiziya və Radio Şurası" sözləri "Audiovizual Şura" sözləri ilə əvəz edilsin;

1.2. 2.9-cu bəndin "Tədbirlər" sütununda "verilişləri" sözü "proqramları" sözü ilə əvəz edilsin.

2. "Televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 5 oktyabr tarixli 794 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 10, maddə 590; 2005, № 2, maddə 69; 2006, № 11, maddə 947; 2008, № 9, maddə 798; 2014, № 5, maddə 477, № 9, maddə 1027; 2015, № 9, maddə 995; 2016, № 8, maddə 1384; 2017, № 8, maddə 1521; 2018, № 12 (I kitab), maddə 2542; 2020, № 5, maddə 539, № 6, maddə 715) 6-cı hissəsi ləğv edilsin.

3. "Telekommunikasiya haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 9 avqust tarixli 277 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 8, maddə 709; 2006, № 5, maddə 404, № 11, maddə 947; 2007, № 6, maddə 601; 2009, № 4, maddə 226; 2014, № 5, maddə 477, № 9, maddə 1027; 2016, № 8, maddə 1384; 2017, № 3, maddələr 374, 382, № 6, maddələr 1066, 1095, № 8, maddə 1521, № 12, maddə 2322; 2018, № 6, maddə 1237; 2019, № 7, maddə 1215; 2020, № 8, maddə 1033; 2022, № 5, maddə 471, № 8, maddələr 840, 894; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 yanvar tarixli 2005 nömrəli və 4 fevral tarixli 2022 nömrəli fərmanları) 2.7-ci bəndində "Milli Televiziya və Radio" sözləri "Audiovizual" sözü ilə, "öz səlahiyyətləri daxilində" sözləri "fəaliyyət istiqamətlərinə uyğun olaraq" sözləri ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 3 mart tarixli 391 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 3, maddə 172; 2012, № 2, maddə 68, № 5, maddə 426, № 9, maddə 851, № 12, maddə 1248; 2013, № 9, maddə 1063; 2014, № 9, maddə 1033; 2016, № 2 (II kitab), maddə 236; 2017, № 3, maddə 383, № 10, maddə 1782, № 11, maddə 2022; 2018, № 5, maddə 971; 2019, № 3, maddə 395; 2020, № 1, maddə 12, № 10, maddə 1246, № 11, maddə 1363; 2021, № 7, maddə 743; 2022, № 12, maddə 1442) ilə təsdiq edilmiş "Xidməti pasport almaq hüququ olan vəzifəli şəxslərin siyahısı"nın 2.9-cu bəndində "Milli Televiziya və Radio" sözləri "Azərbaycan Respublikası Audiovizual" sözləri ilə əvəz edilsin.

5. "Psixoloji yardım haqqında" Azərbaycan Respublikasının 2018-ci il 7 dekabr tarixli 1385-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 21 yanvar tarixli 482 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 1, maddə 72; 2020, № 3, maddə 242; 2021, № 6 (I kitab), maddə 573; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 3 mart tarixli 2052 nömrəli Fərmanı) 3.12-ci bəndində "Milli Televiziya və Radio" sözləri "Audiovizual" sözü ilə əvəz edilsin.

6. "Xüsusi rabitə ilə bağlı bəzi məsələlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 aprel tarixli 622 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 622; 2020, № 1, maddə 12, № 4, maddə 424, № 6, maddə 708; 2021, № 2, maddə 119, № 5, maddə 452, № 6 (I kitab), maddə 574; 2022, № 2, maddə 116, № 4, maddə 305, № 8, maddə 848, № 12, maddə 1436) aşağıdakı dəyişikliklər edilsin:

6.1. həmin Fərmanla təsdiq edilmiş Əlavə 1 - "Hökumət rabitəsi ilə təmin olunan vəzifəli şəxslərin siyahısı"nın 22-ci hissəsində "Milli Televiziya və Radio" sözləri "Azərbaycan Respublikası Audiovizual" sözləri ilə əvəz edilsin;

6.2. həmin Fərmanla təsdiq edilmiş Əlavə 2 - "Xüsusi dövlət rabitəsi ilə təmin olunan vəzifəli şəxslərin siyahısı"nın 54-cü hissəsində "Milli Televiziya və Radio" sözləri "Azərbaycan Respublikası Audiovizual" sözləri ilə əvəz edilsin;

6.3. həmin Fərmanla təsdiq edilmiş Əlavə 3 - "Mobil xüsusi dövlət rabitəsi ilə təmin olunan vəzifəli şəxslərin siyahısı"nın 14-cü hissəsində "Milli Televiziya və Radio" sözləri "Azərbaycan Respublikasının Audiovizual" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 aprel 2023-cü il*

# Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" 2006-cı il 18 aprel tarixli 391 nömrəli və "Ədliyyə orqanlarının inkişafı haqqında" 2006-cı il 17 avqust tarixli 446 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Media haqqında" Azərbaycan Respublikasının 2021-ci il 30 dekabr tarixli 471-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 391 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 4, maddə 323, № 12, maddə 1034; 2007, № 11, maddə 1105, № 12, maddə 1246; 2009, № 7, maddə 533, № 8, maddə 627, № 10, maddə 773, № 12, maddələr 983, 988; 2010, № 2, maddə 83, № 4, maddə 292, № 11, maddə 966; 2011, № 1, maddə 18, № 2, maddə 85, № 4, maddə 281, № 6, maddə 497, № 10, maddə 894, № 11, maddə 993; 2012, № 10, maddə 950; 2014, № 6, maddə 627, № 7, maddə 820, № 9, maddə 1029; 2016, № 1, maddə 77; 2017, № 2, maddə 184, № 10, maddə 1784; 2018, № 6, maddə 1205, № 7 (I kitab), maddə 1480; 2019, № 3, maddə 431, № 5, maddə 860, № 6, maddə 1044, № 12, maddə 1927; 2020, № 7, maddə 882; 2021, № 5, maddə 439; 2022, № 1, maddə 29, № 4, maddə 332, № 8, maddə 871) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1.1. 9.14-cü bənddən "mətbu nəşrlərin təsis edilməsi barədə müraciətlərin uçotunu aparmaq," sözləri çıxarılsın;

1.2. 9.36-cı bənddə "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin;

1.3. 10.9-1-ci bənd ləğv edilsin.

2. "Ədliyyə orqanlarının inkişafı haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 17 avqust tarixli 446 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 8, maddə 671; 2007, № 12, maddə 1223; 2009, № 12, maddə 983; 2010, № 2, maddə 80, № 7, maddə 622; 2012, № 12, maddə 1273; 2016, № 11, maddə 1826; 2017, № 6, maddə 1072, № 11, maddələr 2009, 2042; 2022, № 11, maddə 1267) 8-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

2.1. birinci abzasda "Milli Televiziya və Radio" sözləri "Azərbaycan Respublikasının Audiovizual" sözləri ilə və "dövlət qeydiyyatına alınmaq" sözləri "Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi" sözləri ilə əvəz edilsin;

2.2. ikinci abzasda "dövlət qeydiyyatına alınan" sözləri "həmin qurumlar tərəfindən Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün təqdim olunan" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 aprel 2023-cü il*

# Azərbaycan Respublikası Prezidentinin "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramının təsdiq edilməsi haqqında" 1998-ci il 18 iyun tarixli 832 nömrəli, "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planının təsdiq edilməsi haqqında" 2006-cı il 28 dekabr tarixli 1880 nömrəli, "Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə qarşı Mübarizə üzrə Dövlət Komissiyasının yeni tərkibinin təsdiq edilməsi haqqında" 2009-cu il 6 avqust tarixli 429 nömrəli, "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramının təsdiq edilməsi haqqında" 2011-ci il 27 dekabr tarixli 1938 nömrəli və "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" 2013-cü il 9 aprel tarixli 2837 nömrəli sərəncamlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Media haqqında" Azərbaycan Respublikasının 2021-ci il 30 dekabr tarixli 471-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 18 iyun tarixli 832 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 6, maddə 409; 2004, № 1, maddə 19; 2006, № 9, maddə 743; 2020, № 8, maddə 1064; 2021,№ 1, maddə 81; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 3 mart tarixli 3782 nömrəli Sərəncamı) ilə təsdiq edilmiş "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 24-cü hissənin "Tədbirlər" sütununda "Kütləvi informasiya vasitələrində" sözləri"Mediada" sözü ilə, "İcra orqanları" sütununda "Milli Televiziya və Radio Şurası" sözləri "Audiovizual Şura" sözləri ilə əvəz edilsin;

1.2. 36-cı hissənin "Tədbirlər" sütununda "kütləvi informasiya vasitələri" sözləri "media" sözü ilə, "İcra orqanları" sütununda "Milli Televiziya və Radio Şurası" sözləri "Audiovizual Şura" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 1880 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 12, maddə 1138; 2008, № 1, maddə 9, № 3, maddə 168; 2009, № 12, maddə 1043; 2010, № 2, maddə 80; 2014, № 5, maddə 477; 2016, № 8, maddə 1384, № 9, maddə 1470; 2017, № 3, maddə 353; 2019, № 2, maddə 257; 2021, № 1, maddə 77; 2022, № 12, maddə 1512; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 3 mart tarixli 3782 nömrəli Sərəncamı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı"nın 47-ci hissəsinin "Tədbirlər" sütununun birinci cümləsində "Kütləvi informasiya vasitələrində" sözləri "Mediada" sözü ilə, ikinci cümləsində "KİV" akronimi "Media" sözü ilə və"İcra orqanları" sütununda "Milli Televiziya və Radio Şurası" sözləri "Audiovizual Şura" sözləri ilə əvəz edilsin.

3. "Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə qarşı Mübarizə üzrə Dövlət Komissiyasının yeni tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 6 avqust tarixli 429 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 8, maddə 637; 2011,№ 12, maddə 1161; 2013, № 6, maddə 703, № 9, maddə 1088; 2014, № 4, maddə 404, № 7, maddə 864; 2016, № 4, maddələr 738, 750; 2018, № 1, maddə 99; 2019, № 9, maddə 1487; 2020, № 3, maddə 304) 1-ci hissəsində "Milli Televiziya və Radio" sözləri "Audiovizual" sözü ilə əvəz edilsin.

4. "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 27 dekabr tarixli 1938 nömrəli Sərəncamında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 12, maddə 1217; 2012, № 12, maddə 1322; 2014, № 5, maddə 477, № 9, maddə 1027; 2016, № 8, maddə 1384, № 9, maddə 1470; 2017, № 3, maddə 353; 2018, № 11, maddə 2378; 2019, № 2, maddə 257, № 5, maddə 877; 2020, № 8, maddə 1064; 2021, № 6 (I kitab), maddə 607, № 8, maddə 947; 2022, № 8, maddə 909; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 3 mart tarixli 3782 nömrəli Sərəncamı) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 4-cü hissədə "Milli Televiziya və Radio" sözləri "Audiovizual" sözü ilə əvəz edilsin;

4.2. həmin Sərəncamla təsdiq edilmiş "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı" üzrə:

4.2.1. 2.22-ci bəndin birinci abzasında "Kütləvi informasiya vasitələri" sözləri "Media subyektləri" sözləri ilə, ikinci abzasında "Milli Televiziya və Radio" sözləri "Audiovizual" sözü ilə əvəz edilsin;

4.2.2. 6.3-cü bənddə "kütləvi informasiya vasitələrinin" sözləri "medianın" sözü ilə, "verilişləri" sözü "proqramları"sözü ilə əvəz edilsin.

5. Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 9 aprel tarixli 2837 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 4, maddə 391; 2014, № 5, maddə 477, № 9, maddə 1027; 2016, № 8, maddə 1384; 2017, № 8, maddə 1521; 2022, № 8, maddə 909, № 12, maddə 1515; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 3 mart tarixli 3782 nömrəli Sərəncamı) ilə təsdiq edilmiş "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı"nın "6. Dövlət Proqramının icrasına dair Tədbirlər Planı" hissəsində aşağıdakı dəyişikliklər edilsin:

5.1. 6.2.3-cü yarımbəndin "Tədbirin adı" sütununda "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə, "İcraçılar" sütununda "Milli Televiziya və Radio Şurası" sözləri "Audiovizual Şura" sözləri ilə əvəz edilsin;

5.2. 6.5-ci bənddə "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin;

5.3. 6.5.1-ci yarımbəndin "Tədbirin adı" sütununda "Kütləvi informasiya vasitələrində" sözləri "Mediada" sözü ilə, "İcraçılar" sütununda "Milli Televiziya və Radio Şurası" sözləri "Audiovizual Şura" sözləri ilə əvəz edilsin;

5.4. 6.5.2-ci yarımbəndin "Tədbirin adı" sütununda "verilişlərində, yazılı və elektron mətbuatda" sözləri "proqramlarında, çap və onlayn mediada" sözləri ilə, "teleradio şirkətləri və kütləvi informasiya vasitələri" sözləri "media" sözü ilə, "İcraçılar" sütununda "Milli Televiziya və Radio Şurası" sözləri "Audiovizual Şura" sözləri ilə əvəz edilsin;

5.5. 6.5.4-cü yarımbəndin "Tədbirin adı" sütununda "kütləvi informasiya vasitələri" sözləri "media" sözü ilə, "verilişlərinin" sözü "proqramlarının" sözü ilə, "İcraçılar" sütununda "Milli Televiziya və Radio Şurası" sözləri "Audiovizual Şura" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 aprel 2023-cü il*

# Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında yol hərəkətinin təhlükəsizliyinə dair 2019-2023-cü illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" 2018-ci il 27 dekabr tarixli 852 nömrəli, "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi barədə" 2019-cu il 22 iyul tarixli 1334 nömrəli, "Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2020-2024-cü illər üçün Milli Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında" 2020-ci il 22 iyul tarixli 2173 nömrəli, "Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə 2020-2025-ci illər üçün Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında" 2020-ci il 27 noyabr tarixli 2306 nömrəli və "Azərbaycan Respublikasında məişət zorakılığı ilə mübarizəyə dair 2020-2023-cü illər üçün Milli Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında" 2020-ci il 27 noyabr tarixli 2307 nömrəli sərəncamlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Media haqqında" Azərbaycan Respublikasının 2021-ci il 30 dekabr tarixli 471-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 27 dekabr tarixli 852 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12 (II kitab), maddə 2701; 2021, № 6 (I kitab), maddə 606; 2022, № 5, maddə 532, № 8, maddə 912; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 3 mart tarixli 3781 nömrəli Sərəncamı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında yol hərəkətinin təhlükəsizliyinə dair 2019-2023-cü illər üçün Dövlət Proqramı"nın "7. Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planı" hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. 7.1.9.1-ci yarımbəndin "Tədbirin adı" sütununda "kütləvi informasiya vasitələrinin" sözləri "media subyektlərinin" sözləri ilə, "Digər icraçı qurumlar" sütununda "Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinə Dövlət Dəstəyi Fondu" sözləri "Medianın İnkişafı Agentliyi" sözləri ilə əvəz edilsin;

1.2. 7.4.1.1 - 7.4.1.6-cı yarımbəndlərin "Digər icraçı qurumlar" sütununda "Milli Televiziya və Radio Şurası" sözləri "Audiovizual Şura" sözləri ilə əvəz edilsin;

1.3. 7.4.1.2-ci və 7.4.1.5-ci yarımbəndlərin "Tədbirin adı" sütununda "verilişlərinin" sözü "proqramlarının" sözü ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 22 iyul tarixli 1334 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 7, maddə 1276; 2020, № 12 (III kitab), maddə 1537; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 3 mart tarixli 3781 nömrəli Sərəncamı) ilə təsdiq edilmiş "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı"nın "4. Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planı" hissəsində aşağıdakı dəyişikliklər edilsin:

2.1. 4.4.21-ci, 4.4.23-cü və 4.4.30-cu yarımbəndlərin "İcraçı orqanlar" sütununda "Milli Televiziya və Radio Şurası" sözləri "Audiovizual Şura" sözləri ilə əvəz edilsin;

2.2. 4.4.28-ci yarımbəndin "Tədbirin adı" sütununda "televiziya və radio proqramlarında xüsusi verilişlərin" sözləri "xüsusi televiziya və radio proqramlarının" sözləri ilə, "İcraçı orqanlar" sütununda "Milli Televiziya və Radio Şurası" sözləri "Audiovizual Şura" sözləri ilə əvəz edilsin;

2.3. 4.4.31-ci yarımbəndin "Tədbirin adı" sütununda "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə, "İcraçı orqanlar" sütununda "Milli Televiziya və Radio Şurası" sözləri "Audiovizual Şura" sözləri ilə əvəz edilsin;

2.4. 4.4.38-ci yarımbəndin "Tədbirin adı" sütununda "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə, "İcraçı orqanlar" sütununda "Milli Televiziya və Radio Şurası" sözləri "Audiovizual Şura" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 22 iyul tarixli 2173 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 7, maddə 937; 2022, № 5, maddə 530; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 3 mart tarixli 3782 nömrəli Sərəncamı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2020-2024-cü illər üçün Milli Fəaliyyət Planı"nın "4. Milli Fəaliyyət Planının həyata keçirilməsi üzrə Tədbirlər Planı" hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 4.2.1-ci və 4.8.4-cü yarımbəndlərin "İcraçı orqanlar" sütununda "Milli Televiziya və Radio Şurası" sözləri "Audiovizual Şura" sözləri ilə əvəz edilsin;

3.2. 4.2.3-cü yarımbəndin "Tədbirin adı" sütununda "kütləvi informasiya vasitələrinin" sözləri "media subyektlərinin" sözləri ilə, "İcraçı orqanlar" sütununda "Milli Televiziya və Radio Şurası" sözləri "Audiovizual Şura" sözləri ilə əvəz edilsin;

3.3. 4.2.6-cı yarımbəndin "Tədbirin adı" sütununda "Kütləvi informasiya vasitələrinin" sözləri "Medianın" sözü ilə əvəz edilsin;

3.4. 4.8.1-ci yarımbəndin "Tədbirin adı" sütununda "verilişlərin" sözü "proqramların" sözü ilə, "İcraçı orqanlar" sütununda "Milli Televiziya və Radio Şurası" sözləri "Audiovizual Şura" sözləri ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 noyabr tarixli 2306 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 11, maddə 1374; 2021, № 8, maddə 946; 2022, № 5, maddə 534; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 3 mart tarixli 3782 nömrəli Sərəncamı) ilə təsdiq edilmiş "Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə 2020-2025-ci illər üçün Fəaliyyət Planı"nın "5. Fəaliyyət Planının icrası üçün Tədbirlər Planı" hissəsində aşağıdakı dəyişikliklər edilsin:

4.1. 5.1.13-cü və 5.3.10-cu yarımbəndlərin "İcraçı qurumlar" sütununda "Milli Televiziya və Radio Şurası" sözləri "Audiovizual Şura" sözləri ilə əvəz edilsin;

4.2. 5.3.9-cu yarımbəndin "Tədbirin adı" sütununda "kütləvi informasiya vasitələrini" sözləri "media subyektlərini" sözləri ilə, "İcraçı qurumlar" sütununda "Milli Televiziya və Radio Şurası" sözləri "Audiovizual Şura" sözləri ilə əvəz edilsin;

4.3. 5.4.3-cü yarımbəndin "Tədbirin adı" sütununda "verilişləri" sözü "proqramları" sözü ilə, "İcraçı qurumlar" sütununda "Milli Televiziya və Radio Şurası" sözləri "Audiovizual Şura" sözləri ilə əvəz edilsin;

4.4. 5.4.13-cü yarımbəndin "Tədbirin adı" sütununda "teleradio" sözü "audiovizual media" sözləri ilə, "İcraçı qurumlar" sütununda "Milli Televiziya və Radio Şurası" sözləri "Audiovizual Şura" sözləri ilə əvəz edilsin;

4.5. 5.4.17-ci yarımbəndin "İcraçı qurumlar" sütununda "Milli Televiziya və Radio Şurası" sözləri "Medianın İnkişafı Agentliyi" sözləri ilə əvəz edilsin.

5. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 noyabr tarixli 2307 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 11, maddə 1375; 2021, № 6 (I kitab), maddə 607; 2022, № 5, maddə 534; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 3 mart tarixli 3782 nömrəli Sərəncamı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında məişət zorakılığı ilə mübarizəyə dair 2020-2023-cü illər üçün Milli Fəaliyyət Planı"nın "12. Milli Fəaliyyət Planının həyata keçirilməsi ilə bağlı Tədbirlər Planı" hissəsində aşağıdakı dəyişikliklər edilsin:

5.1. 12.2.5-ci yarımbəndin "Tədbirin adı" sütununda "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə, "İcraçılar" sütununda "Milli Televiziya və Radio" sözləri "Audiovizual" sözü ilə əvəz edilsin;

5.2. 12.6.4-cü yarımbəndin "İcraçılar" sütununda "Milli Televiziya və Radio" sözləri "Audiovizual" sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 aprel 2023-cü il*

# REGİONLAR

## Biləsuvarda "Mübariz" filminin qala gecəsi keçirilib

**Biləsuvar rayonunda Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun döyüş yoluna həsr olunan "Mübariz" filminin qala gecəsi keçirilib.**

Filmin qala gecəsində rayon icra hakimiyyətinin rəhbərliyi, Milli Qəhrəmanın atası Ağakərim İbrahimov, hüquq-mühafizə orqanları və idarə rəhbərləri, tanınmış rejissorlar, aktyorlar, Birinci və İkinci Qarabağ müharibələrinin iştirakçıları iştirak ediblər.

AzTV-nin istehsalı olan "Mübariz" filminin baş prodüseri və ssenaristi Nicat Mənalı, quruluşçu rejissoru Natiq Novruzovdur. AZƏRTAC xəbər verir ki, film xalqımızın igid oğlu Mübariz İbrahimovun həyat və döyüş yolundan bəhs edir və onun şəhid olduğu ərazidə lentə alınıb.

Qala gecəsində çıxış edən rayon icra hakimiyyətinin başçısı Faiq Qürbətov Mübarizin yalnız biləsuvarlıların deyil, qəlbi Vətən eşqi ilə döyünən hər kəsin qürur yeri olduğunu bildirib və filmin rayonda nümayiş etdirilməsində əməyi olanlara təşəkkürünü bildirib.

Mübariz İbrahimovun atası Ağakərim İbrahimov filmin ərsəyə gəlməsində əməyi olan hər kəsə minnətdarlığını ifadə edib.

## Azərbaycan və Özbəkistan fermerləri fındıqçılıq sahəsində əməkdaşlıq edəcəklər

**Qubada Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutunun rəhbərliyi ilə Özbəkistanın "Uz Nuts" Qərzəkli Meyvə Bitkiləri İstehsalçıları və İxracatçıları Assosiasiyasının sədr müavini İlyos Haydarov arasında görüş keçirilib. Görüşdə fındıqçılıq sahəsində qarşılıqlı əməkdaşlıq məsələləri müzakirə olunub.**



İnstitutun direktoru İlham Qaraqurbanlı özbəkistanlı mütəxəssisə Azərbaycanda fındıqçılığın inkişaf etdirilməsi, innovativ üsulla fındıq bağlarının salınması və institutun fındıqçılıq sahəsində gördüyü işlər barədə məlumat verib.

İlyos Haydarov isə Özbəkistanda fındıqçılıq sahəsindəki çatışmazlıqlardan danışaraq, bu sahədə ikitərəfli əlaqələrin daha da genişləndirilməsi üçün təkliflərini səsləndirib. Tərəflər fındıqçılıq sahəsində əməkdaşlıqda maraqlı olduqlarını ifadə ediblər.

Görüşdən sonra Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutunun Zərdabi adına Elmi-Təcrübə Bazasının ərazisində yeni superintensiv texnologiya əsasında salınan fındıq bağına baxış keçirilib.

◆ **Yaz-tarla işləri start götürür**

## Kəndli yeni ümidlə sahəyə çıxır



**Ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsi, Qarabağın və Şərqi Zəngəzurun işğaldan azad olunması uğrunda müqəddəs savaşda tərtərlilər sözün həqiqi mənasında qəhrəmanlıq göstərmişlər. 44 gün davam edən müharibədə rayon mərkəzinə, kəndlərə artilleriya mərmiləri, raketlər dolu kimi yağsa da, yaşayış evləri, infrastruktur obyektləri dağıdılıb yerləyeksan edilsə də, heç kim doğma yuvasını tərk etməmiş, hamı bir amal uğrunda yumruq kimi birləşib Ali Baş Komandana və orduya dayaq olmuşdur.**

Şanlı tarixə çevrilən o günlər artıq arxada qalıb. Müharibənin vurduğu yaraları sağaltmaq, dağılan evlərin yerində yenisini tikmək, dağıdılan infrastrukturu bərpa etmək üçün səfərbər olan tərtərlilər dövlətin dəstəyi ilə qısa müddət ərzində heyrətamiz işlər görüblər. İndi rayon mərkəzində abadlaşdırılmayan küçə qalmayıb, şəhərdaxili asfalt yollar, rahat səkilər, zövqlə salınan yaşıllıqlar göz oxşayır. Döyüş meydanında qəhrəmanlıq göstərən Tərtər oğulları müharibədən sonrakı quruculuq dövründə də xarüqələr yaradıblar.

Kənd təsərrüfatı rayonu olan Tərtərdə son illər aqrar sektorun inkişafı istiqamətində xeyli işlər görülmüşdür. Bu cəbhə bölgəsinin inkişafına, yüksəlişinə böyük önəm verən Prezident İlham Əliyev son illər rayona çoxsaylı səfərlər etmiş, tərtərlilərin hünərinə, əzmkarlığına dəyər vermiş, rayonun isə qabaqcıl təcrübə məktəbinə çevrildiyini bildirmişdir. Aqrar sektorda əldə olunan nəticələr bu yüksək qiymətin təsadüfi olmadığını təsdiqləyir. Təkcə ötən il 8103 hektarda taxıl əkib-becərən Tərtər kəndlisi buğda zəmilərində orta məhsuldarlığı 44,1 sentnerə yüksəltməyə nail olmuşdur. Bu uğur Rüstəm Quliyev, Mirzə Cümşüdov, Loğman Museyibov, Fazil Vəliyev, Habil İbrahimov və digər fermerlərin hesabına qazanılmışdır. Onların rəhbərlik etdikləri fermer təsərrüfatlarında hər hektardan 45-50 sentner taxıl götürülmüşdür.

Rayon pambıqçıları da fərqlənir. Statistikaya nəzər salaq: son mövsüm 1091 nəfər torpaq istifadəçisi ilə müqavilə bağlanaraq 3450 hektarda pambıq əkilmiş, aqrotexniki tələblərə ciddi əməl edilmiş, böyük zəhmət bahasına tarlalarda bol məhsul yetişdirilmişdir. Nəticədə rayon üzrə hər hektardan 32,6 sentner məhsul götürülmüşdür ki, bu da pambıqçılıq rayonları arasında yüksək nəticələrdən sayılır. Amma bir çox fermer daha yüksək nəticələr qazanmışdır. Samir Paşayevin, Etibar Əsədovun, Vüqar Quliyevin, Rahim Hüseynovun, Əlizamin Kərimovun, Elnur Muxtarovun, Elburus Salahovun rəhbərlik etdikləri fermer təsərrüfatlarında hər hektarın orta məhsuldarlığı 50-55 sentnerə çatmışdır.

Tərtər kəndlisi cari il daha böyük nailiyyətlər qazanmaq, yeni zirvələr fəth etmək əzmindədir. Taleyini torpağa, halal zəhmətə bağlayan kəndlidə bu gün işləmək həvəsi yetərincədir. Çünki işləməyin, əkib-becərməyin yaxşı güzəran olduğunu bilir. Böyük zəfərəcən Tərtər çayının suyuna həsrət qalan, əkinləri suvarmaq üçün minbir əzaba qatlaşan rayon sakinlərinin artıq bu problemi yoxdur. Həm də əsasən ona görədir ki, cari ilin məhsulu üçün 11231 hektar sahədə əkilən, qayğıkeşliklə becərilən taxıl zəmilərindən bol məhsul gözlənilir. Çiyid səpininə də mütəşəkkilliklə başlanmışdır. Lazım olan qədər çiyid tədarük edilmiş, səpində və becərmədə istifadə olunacaq texnika təmir olunub saz vəziyyətə gətirilmişdir. Bu il rayon üzrə 2439,7 hektarda çiyid səpilir. Rayonda səpinə 24 səpin aqreqatı cəlb olunub və səpin işlərinin 15-20 gün müddətinə başa çatdırılacağı planlaşdırılır.

Ərazidə fəaliyyət göstərən "MKT İstehsalat Kommersiya" MMC tərəfindən 408 və "Azərpambıq" MMC tərəfindən 302 istehsalçı ilə müqavilə bağlanılıb. Bağlanan müqavilələrə əsasən, pambıq istehsalçıları lazımi texnika, toxum, gübrə və kimyəvi preparatlarla tam təmin edilirlər.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

## Balakəndə 2099 hektar sahədə yazlıq bitkilər əkilib

**Balakən rayonunun təsərrüfatlarında yazlıq bitkilərin əkini davam edir. Torpaq mülkiyyətçiləri bu günədək 2099 hektar sahədə yazlıq bitkilər əkiblər.**

Rayon Statistika İdarəsindən bildirilib ki, məhsul istehsalçıları indiyədək 552 hektar sahədə kartof, 884 hektarda tərəvəz, 158 hektarda dən üçün qarğıdalı, 3 hektarda lobya əkib, 502 hektar sahəyə çoxillik yonca səpiblər. Yazlıq bitkilərin əkin sahəsi ötən ilin müvafiq dövrü ilə müqayisədə 337 hektar artıb.

Tezliklə təsərrüfatlarda istixana şəraitində yetişdirilən tütün şitillərinin sahələrə köçürülməsinə də başlanılacaq.

Xatırladaq ki, ötən il balakənli torpaq mülkiyyətçiləri 11 min 816 hektar sahədə yazlıq bitkilər əkiblər. Yazlıq əkinlərin 7 min 667 hektarını dən üçün qarğıdalı sahələri təşkil edib.

## Şəki heyvandarlarına 101 min manat subsidiya hesablanıb

**Cari ilin yanvar-mart aylarında Şəki rayonunda 2455 baş inək, camış və düyə süni yolla mayalandırılıb. Bu, keçən ilin eyni dövrü ilə müqayisədə 403 baş çoxdur.**

Həmin müddətdə süni mayalanma yolu ilə alınan buzov və balaqların sayı isə 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə 180 baş artaraq 1144 baş olub. Üç ayda Şəki rayonu üzrə 858 nəfər heyvan sahibinə süni mayalanma yolu ilə alınan 1010 baş cinsi yaxşılaşdırılmış buzova görə 101 min manat subsidiya hesablanıb. Bu barədə AZƏRTAC-a Şəki Dövlət Aqrar İnkişaf Mərkəzinin heyvandarlıq sektorunun müdiri Nazim Rəcəbov məlumat verib.

Sektor müdiri bildirib ki, son illər rayonda heyvandarlıq məhsullarının istehsalını intensiv yolla artırmaq üçün ciddi tədbirlər görülür. İndiyədək rayonun kənd təsərrüfatı məhsulları istehsalçıları tərəfindən dövlətin güzəştli şərtləri ilə satılan 412 baş damazlıq düyə alınıb. Bu işin gələcəkdə də davam etdirilməsi məqsədilə fermerlər arasında maarifləndirici söhbətlər aparılır. Eyni zamanda son vaxtlar şəkili fermerlər heyvanların cins tərkibinin yaxşılaşdırılmasında mühüm rol oynayan süni mayalanma tədbirlərinə də üstünlük verirlər. Məhz bu səbəbdən rayonda süni mayalandırılan heyvanların sayı ilbəil artır.

Nazim Rəcəbov qeyd edib ki, regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarında nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi, damazlıq cins heyvanların dəyərinin 60 faizinin dövlət büdcəsindən ödənilməsi, süni mayalanma yolu ilə əldə olunmuş hər baş buzova görə 100 manat subsidiyanın verilməsi, süni mayalanma xidməti üzrə infrastrukturun dövlət tərəfindən təmin edilməsi, bütün növ kənd təsərrüfatı heyvanları və quşlar arasında xüsusi təhlükəli yoluxucu xəstəliklərə qarşı müalicə-profilaktika və diaqnostika tədbirlərinin aparılması heyvandarlıq sahəsinin ilbəil dinamik inkişafını təmin edən əsas amillərdən olub.

Onun sözlərinə görə, Azərbaycan Prezidentinin "Heyvandarlığın cins tərkibinin yaxşılaşdırılmasına dövlət dəstəyi haqqında" 2015-ci il 19 avqust tarixli sərəncamına əsasən, süni mayalanma yolu ilə doğulmuş hər baş buzova görə heyvan sahibinə 100 manat məbləğində subsidiyanın verilməsinə başlanılandan sonra şəkili fermerlərin süni mayalandırma tədbirlərinə marağı xeyli artıb. Belə ki, 2015-ci ildə süni mayalandırılan heyvanların sayı 3752 baş olduğu halda, 2022-ci ildə bu göstərici 2,1 dəfəyədək artaraq 7872 baş olub.

## Qubanın mövsümü yaxınlaşır



**Azərbaycanda qeyri-neft sektoru kimi inkişaf edən sahələrdən biri də turizmdir. Uzağa getməyə, rəqəmlərə müraciət etməyə ehtiyac yoxdur, paytaxt və regionlardakı müasir turizm infrastrukturuna nəzər salmaq kifayətdir ki, buna şübhə yeri qalmasın.**

Şübhə yeri qalmayan həm də turizmin inkişafında regionların çəkisinin davamlı şəkildə artmasıdır. Hələ sovetlər dönəmindən turizm rayonu kimi tanınan Qubanın timsalında bunu aydın görmək mümkündür. Quba, demək olar ki, ilboyu qonaq sarıdan korluq çəkmir. Amma bahar və yayda rayona gələnlərin sayı dəfələrlə artır. Xüsusən bayram, həftəsonu günlər Qubanın istirahət məkanlarında, iaşə obyektlərində yer tapmaq asan olmur. Bunu yazın "adrenalin"ini Qubada yaşamaq istəyənlərin sıralanan maşın karvanlarından da görmək mümkündür. Çünki bahar turizmi müddət baxımından az zaman çəksə də, qarlı qışdan sonra təbiətin oyanışının şahidi olmaq bir ruh qidasıdır.

Qubada turizmin bir çox növləri inkişaf edib. İsti günlər kənd evlərində, çadırlarda və təbiətin qoynunda istirahət edən qonaqlarla hər yerdə rastlaşmaq mümkündür. Haput, Qrız, Cek, Nügədi, Gültəpə və digər kəndlərdə turistlər bəzən aylarla qalıb dincəlirlər. Ona görə də həmin kəndlərdə evlər əvvəlcədən behlənir.

Gültəpəli Səmayə Qarayeva deyir ki, son illərə qədər turistlər daha çox istirahət mərkəzlərinə üz tuturdu: "Çünki kənd yerlərinə nisbətən həmin hotellərdə şərait vardı. Bu günsə, maşallah, Qubanın hər yerində şərait mövcuddur. Bütün kəndlərdə işıq, qaz, hətta internet var, yollarımız gediş-gəliş üçün rahatdır. Ona görə də indi qonaqlar ucuz və sərfəli olan kənd turizminə daha çox üstünlük verirlər".

Elə bu səbəbdəndir ki, rayonda kənd turizminin coğrafiyası sürətlə genişlənir. Əgər rayonun bir neçə il əvvəl 16 kəndinə qonaqlar gəlirdisə, hazırda bu rəqəm 30-a yaxınlaşır. Təkcə Təngəaltı istiqamətində bir neçə kənd camaatının əsas məşğulluğu kənd (ev) turizmi ilə bağlıdır, özü də ilin bütün fəsillərində.

Bu gün Azərbaycanın elə bir rayonu yoxdur ki, oradan Qubaya turist səfərləri təşkil edilməsin. Bu həm rayonların tarixinin qarşılıqlı öyrənilməsi, həm də insanların mədəniyyət daşıyıcısına çevrilməsi baxımından faydalıdır. Qubaya gələn cənublu bükmə və paxlava almasa, geri dönməz. Hələ şimal bölgəsinin özündə qədim tarixi yaşadan abidələrini demirik.

Amma Qubaya təkcə yerli turistlər gəlmir. Rusiya, Belarus, Ukrayna, ərəb və Avropa ölkələrindən də yüzlərlə qonaq Qubaya üz tutur. Maraqlıdır ki, əcnəbi qonaqlar da daha çox kəndlərdə dincəlməyə üstünlük verirlər. Xınalıq, Qrız və digər dağ kəndləri xarici turistlərin sevdikləri məkanlardır.

Məlumdur ki, Qubada azsaylı xalqların nümayəndələri yaşayır. Tat, yəhudi, ləzgi, Ahıska türklərinin mədəniyyəti həmişə turistlərin maraq dairəsində olur. Multikultral dəyərlərlə maraqlanan turistlər ilk növbədə bu xalqların yığcam yaşadıqları kəndlərə üz tutur və Azərbaycanın tolerant ölkə olduğuna şahidlik edirlər.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

## Qadın fermerlərin AFAQ layihəsinə qeydiyyatı davam edir

**Kənd Təsərrüfatı Nazirliyi tərəfindən "Paşa Holdinq"in dəstəyi ilə həyata keçirilən Aqrar Fəaliyyətli Azərbaycan Qadınları (AFAQ) layihəsinə qeydiyyat davam edir. Kənd təsərrüfatı sahəsində aktiv iştirakı olan və aqrar biznes fəaliyyətləri həyata keçirən qadın fermerlər https://afaq.az/ saytı vasitəsilə layihəyə müraciət edə bilərlər.**

Tələblərə cavab verən fermerlər layihə çərçivəsində göstərilən dəstək tədbirlərindən faydalana biləcəklər. Dəstək tədbirləri aqrar sahədə bilik və bacarıqların artırılması təlimlərindən, təsərrüfatların inkişafı üçün texniki dəstək və konsultasiya imkanlarından ibarətdir. Təlimlər ümumi biznes bacarıqları və fermerlərin məşğul olduqları sahələr üzrə xüsusi mövzuları əhatə edəcək.

Qeyd edək ki, AFAQ layihəsinin əsas məqsədi qadınların məşğulluğunun, onların informasiya, resurs və bazarlara çıxış imkanlarının, eyni zamanda qadınlar tərəfindən idarə olunan aqrar biznes subyektlərinin sayının artırılmasına və regionlarda sosial-iqtisadi rifahın yaxşılaşdırılmasına töhfə verməkdir. Bu günədək layihəyə 600-ə yaxın müraciət daxil olub, 181 müraciətçinin təsərrüfatına baxış keçirilərək qiymətləndirmə sorğusu aparılıb. Layihənin tələblərinə cavab verən ümumilikdə 151 təsərrüfat sahibinə isə müvafiq avadanlıqlar və aktivlərlə dəstək göstərilib.



## Naxçıvan FHN-ə 5 yeni yanğınsöndürən avtomobil verilib

**Azərbaycan Fövqəladə Hallar Nazirliyi Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinə yaşayış sahələrində, sənaye, dağlıq-meşə zonalarında baş verən yanğınların söndürülməsi üçün 5 yeni müasir yanğınsöndürən avtomobil verib.**

Yeni avtomobillərə Rusiya istehsalı olan 3 "KamAZ" və "Ural" markalı yanğınsöndürən, Almaniya istehsalı olan "İveco Magirus" markalı, 42 metr hündürlüyə uzanan avtonərdivan daxildir. Avtomobillər çoxprofillidir, yanğın yerinə şəxsi heyətin, yanğın texniki və xilasedici avadanlıqların, suyun və köpükəmələgətirən maddələrin daşınması, çoxmərtəbəli binalardan insanların təxliyəsi və əşyaların çıxarılması, xilasedici və yanğınsöndürənlərin yuxarı mərtəbələrə qaldırılması, yanğın yerinin işıqlandırılması, eyni zamanda digər köməkçi işlərin görülməsi üçün istifadə olunacaq.







# Mədəniyyət





● Neft sahibkarlarımız

Var-dövləti, nəcibliyi, xeyirxahlığı ilə çoxlarına ümid, kömək ola bilib. Ondan yardım umanlara əl tutub, təhsil almaq istəyənlər üçün məktəblər tikdirib, təqaüd verib. Özünə uşaqlıq illərində nəsib olmayan səadəti başqalarının yaşamasını istəyib arabaçı oğlu, milyonçu Murtuza Muxtarov...



# Arabaçı, fəhlə, milyonçu - Murtuza Muxtarov

## Kasıblıq, ehtiyac içində keçən günlər

O, Bakının Əmircan kəndində arabaçı ailəsində dünyaya gəlib. Mollaxanada ibtidai təhsil alıb. Ehtiyac dolu həyatı onu kiçik yaşlarından zəhmətə alışdırıb. Murtuza Muxtarov uşaqlıqdan qardaşı Bala Əhmədlə birlikdə araba ilə çəlləkdə mədənlərdən şəhərə xam neft gətirib satıb. Dəmir yolu olmayanda, payız və qış aylarında araba karvanı ilə Bakıdan Tiflisə yük daşıyıblar.

Qazanc yeri olan arabasını 1874-cü ildə satıb. Balaxanı Zabrat kəndləri ətrafında salınan qazma kontorunda fəhləliyə başlayıb. Murtuza Muxtarov haqqında "Eşitdiklərim, oxuduqlarım, bildiklərim" adlı kitabda oxuyuruq: "Quyuları mexaniki üsulla qazmağa başlayanda Muxtarov buruqda adi fəhlə işləyir. Səhər alaqaranlıqda kiçik qardaşı Bala Əhmədlə bərabər Əmircandan Zabrata piyada gedib axşam, çıraqlar yananda dala qayıdardılar".

Gənc Murtuza işgüzarlığı, iradəsilə özünə yol açıb. Qazma baltasını təkmilləşdirib. Murtuza Muxtarovun işə marağını, yenilik axtarışını görən kontorun sahibi Markov ona mexaniki alət və cihazların sirrini öyrədib. Çox keçməyib ki, qoca sahibkar Markovun sayəsində buruq ustası olub. Bir müddət işə belə davam edib. Sonra Markov Zabratdakı qazma avadanlığını, emalatxanasını Murtuza Muxtarova sataraq Rusiyaya yollanıb.

Kontorunu 1890-cı ildə "Muxtarov podratı" adlandıran Murtuza Muxtarov getdikcə onu genişləndirib. O, qazma avadanlığını təkmilləşdirərək Abşeronda ilk dəfə 1100 metrlik quyu qazdırıb. Qroznıda, Maykopda kontorunun filiallarını açıb. Zavod, mədən, konstruktor büroları ilə texniki və işgüzar əlaqələri yaradıb. Buna görə tez-tez Şimali Qafqaza getməli olub.

Yorulmaq bilmədən, gecə-gündüz çalışıb. Yarım mexanikləşdirilmiş "Molt" dəzgahında bir neçə dəyişikliklər etməyə nail olub. Tezliklə o, xilasetmə ustası kimi tanınıb. Ancaq Murtuza Muxtarov yaxşı başa düşürdü ki, dövrün tələbləri ilə ayaqlaşmaq üçün savad lazımdır. Onun isə ali təhsili yox idi. Savadını artıqmaq, texniki biliklərə yiyələnmək üçün mühəndislərə maaş verib. 1917-ci ildə o, ilk dəfə taxtayonan dəzgah ixtira edib. Zavodunun istehsal etdiyi dəzgah və avadanlığı xarici ölkələrə satıb. Özü də xaricdən çoxlu avadanlıq alıb.

Murtuza Muxtarovun işə marağını... sahibi olub: "Məşhur Azərbaycan neftçisi, usta Piri (Quliyev) deyirdi ki, Ağa Murtuz bir dəfə faytonda bağa gedəndə qəflətən atları saxlatdırıb, yaxınlıqda qazılan buruğun ustasını yanına çağırtdıraraq deyib ki, qazmanı saxla, qəza baş verə bilər, borular boş-boşuna fırlanır. Usta soruşur: "Nədən bilirsən?" Muxtarov deyir ki, alətlərin səsindən. Qazmanı dayandırıb yoxlayanda görürlər ki, doğrudan da borular Murtuza deyən kimi hədər yerə fırlanırmış".

Neft milyonçusu Murtuza Muxtarov XIX əsrin axırlarında ovaxtkı çar Rusiyasında ilk dəfə Bibi-Heybətdə konstruktor bürosu olan neft avadanlıqları istehsal edən böyük zavod tikdirib. O dövdə ilk neft avadanlığı müəssisəsi sayılan zavodun məhsulları yalnız Rusiyaya yox, xarici ölkələrə də ixrac olunub. Murtuza Muxtarov fəhlə və qulluqçular üçün üçmərtəbəli yaşayış binaları da inşa etdirib.

Onun Bakı şəhərində və ətraf kəndlərində, eləcə də Rusiyanın şəhərlərində, Avropanın bir sıra ölkələrində tikdirdiyi əzəmətli binalar bu günədək qalır.

Xeyriyyəçiliyi ilə də ad qazanmış Murtuza Muxtarov Bakıda xeyriyyə cəmiyyətlərinin əksəriyyətinin fəaliyyətində iştirak edib. O, həm də Şimali Qafqaz xalqları arasında savadın və texniki biliklərin yayılması cəmiyyətinin və Peterburq Müsəlman Xeyriyyə Cəmiyyətinin fəxri üzvü olub.

Murtuza Muxtarov təhsilin, mətbuatın inkişafına böyük maddi dəstək göstərib. O, Bakı Real Məktəbinin, Temirxan-Şuranın Qadın Gimnaziyasının hamisi olub. Ali və orta ixtisas məktəblərinin tələbələrinə təqaüd verib. Bakıda "Tərəqqi" qəzeti Murtuza Muxtarovun maddi köməyi ilə nəşr olunub.

## Qazanılan milyonlar...

O, istedadlı, bacarıqlı ixtiraçı olub. Adı Azərbaycanın neft sənayesi tarixinə ixtirası ilə yazılıb. 1895-ci ildə dünyada ilk dəfə metal ştanqlarla zərbə qazıma dəzgahını quraşdırıb. "Bakı qazıma sistemi" adı verdiyi bu ixtirası üçün dövlət patenti alıb. Murtuza Muxtarovun ixtira etdiyi qazma aləti bütün dünyada "Muxtarov" adı ilə tanınıb. Bir çox ölkəyə satılıb. Bakının Balaxanı, Suraxanı, Ramana və Sabunçu neft quyularının əksəriyyəti onun 1890-cı ildə yaratdığı "Podrat qazma" kontoru tərəfindən qazılıb.

Manaf Süleymanovun yazdıqlarına əsaslanıb deyə bilərik ki, Murtuza Muxtarov maşınların səsindən, balta və boruların ahəngindən, avadanlığın gurultusundan, quyunun dərin qatlarında vəziyyəti müəyyənləşdirməyi bacaracaq qədər peşəkarlıq, fərasət və vərdiş

## Güclü, sərt və qorxmaz adam

Ancaq milyonlarının sağaltmağa gücü yetməyən dərdləri vardı Murtuza Muxtarovun. İlk evliliyi faciə ilə bitmişdi. Bir gün həyat yoldaşı Qönçənaz xanımı və iki qızını evdə qoyub səfərə yollanan neft sahibkarı geri qayıdanda onu dəhşətli xəbərlərlə qarşılayıblar. Murtuza Muxtarov səfərdə ikən qızları xəstələnib. Vaxtında müalicə edilməyən uşaqlar vəfat edib. Faciədən sarsılan Murtuza Qönçənaz xanımdan ayrılıb.

Növbəti səfərlərindən birində, Vladiqafqaz şəhərində general Tuqanovun ortancıl qızı Liza xanımla ailə qurub. Aralarında yaş fərqi böyük idi. Övladları da olmayıb. Amma bu evlilik Murtuza Muxtarovun həyatının sonunadək davam edib. Onlar çox uşağın qayğısını çəkiblər, qəyyumluq ediblər, təhsil veriblər.

Bacarıqlı, istedadlı, qoçaq, zəhmətsevər, xeyirxah olduğu qədər də qətiyyətli, sərt, mərd, qorxmaz insan olub. "1920-ci ilin aprelində Bakıya daxil olan XI Ordunun iki silahlısı atla onun yaşadığı, sonralar "Səadət" sarayı adlanan evinə gəliblər. Bolşeviklər qapını sındırıb zala daxil olublar və Murtuza Muxtarovdan tələb ediblər ki, təslim olsun. Onların evinə bu şəkildə daxil olmalarından qəzəblənən, bunu özünə təhqir sayan Murtuza Muxtarov tüfəngə əl atıb. Bolşeviklərdən birinə atəş açaraq öldürüb, ikinci gülləni isə özünə vurub.

Murtuza Muxtarov Əmircanda, özünün inşa etdirdiyi məscidin həyətində dəfn olunub. Həyat yoldaşı Liza xanımı qulluqçular zirzəmidə gizlədiblər. O, Bakını tərk edib, Türkiyənin İstanbul şəhərinə gedib. Sonralar Berlinə köçüb. 1971-ci ildə Berlində vəfat edib.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

● Şuşalı rəssam

# Milli ənənələrə bağlı sənətkar

Xalq rəssamı, yüksək mənəvi keyfiyyətlərə malik ziyalı Altay Hacıyev 1931-ci ildə Əməkdar incəsənət xadimi, ilk qrafika ustası Əmir Hacıyevin ailəsində dünyaya göz açıb. 1951-ci ildə Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Texnikumunu, 1959-cu ildə isə Kiyev Dövlət Rəssamlıq İnstitutunu bitirib. 1960-cı ildə SSRİ Rəssamlar İttifaqının üzvlüyünə qəbul edilib. 1982-ci ildə Əməkdar rəssam, 2002-ci ildə isə Xalq rəssamı fəxri adlarına layiq görülüb. Prezident təqaüdçüsü olub.





A.Hacıyevin doğma vətənində bir neçə fərdi sərgisi təşkil olunub. Onun 1987-ci ildə qrafika əsərlərinin, 1991-ci ildə "Natəvan-Şuşa", 2001-ci ildə isə "Xalqımızın ulduzları" adlı tematik, 2006-cı ildə 75, 2011-ci ildə isə 80 illik yubileyləri münasibətilə ictimaiyyətə təqdim olunan yaradıcılıq hesabatını yaddaqalan sərgilərdən hesab etmək olar. Rəssamın əsərləri Azərbaycan Milli İncəsənət Muzeyində, Azərbaycan Dövlət Rəsm Qalereyasında, xarici ölkə muzeylərində və nüfuzlu şəxsi kolleksiyalarda saxlanılır.

Altay müəllim rəssam ailəsində doğulub. Rəssamlıq sənətini öyrənməkdə atasına borclu idi, lakin onu sənət aləminə gətirən Xalq rəssamı Böyükağa Mirzəzadə olub. Kiçik yaşlarından o, canlı sənət akademiyasında, dövrün məşhur şəxsiyyətləri ilə ünsiyyətdə böyüyüb.

A.Hacıyevin ailəsində və yaxın qohumları arasında hələlik səkkiz rəssamın yetişdiyini vurğulamaq olar. Atası Əməkdar incəsənət xadimi Əmir Hacıyev, xalası Xalq rəssamı Bədurə Əfqanlı, dayısı Əməkdar rəssam Arif Ağamalov, əmisi Həsən Hacıyev, dayısı oğlanları Əməkdar rəssam Məlik və Eldar Ağamalovlar və oğlu Addis Hacıyev təsviri sənətimizdə özünəməxsus yeri olan sənətkarlardır.

Ukraynada ali təhsil alan A.Hacıyev klassik Avropa rəssamlıq ənənələrini dərindən öyrənib və akademik rəsmin incəliklərinə yiyələnib. Buna baxmayaraq, rəssam yaradıcılığında hər zaman şərqli duyumuna malik olduğunu büruzə verib. Belə ki, əsərlərinin mövzusu, ideya tutumu, işlənmə üslubu, kompozisiya biçimi, kolorit həlli ilə sənətkarın yaradıcılığında iki istiqamətin paralel aparıldığını, bədii sintez etdiyini müşahidə etmiş oluruq.

A.Hacıyev yaradıcılığının böyük bir dövrünü qrafika sahəsində yaratdığı əsərlər təşkil edir. Neçə-neçə kitaba bədii tərtibat verib, bir çox əsərlərə illüstrasiyalar çəkib. Ali təhsilini başa vurub Vətənə dönən rəssam 60-cı illərdə doğma Bakıda gedən tikinti-quruculuq, əsaslı təmir-bərpa işlərini, paytaxtın inkişaf etmiş sənaye şəhərləri səviyyəsinə yüksəldiyini görür və şəhərin nə qədər dəyişildiyini incə rəssam qəlbi ilə duyur və sonda "Yeni Bakı" adlı ilk silsiləsini yaradır.

A.Hacıyevin yaradıcılığında milli ənənələrə bağlılıq qırmızı xətt kimi keçir. Rəssamın həm qrafika, həm də rəngkarlıq sahəsində yaratmış olduğu çoxsaylı əsərlərinin əsas səciyyəvi xüsusiyyətləri kimi mövzunun özünəməxsus bədii ifadə vasitələri ilə işlənilməsini, obraz seçimində son dərəcə diqqətli olmaq prinsipini, milli tariximizə və qədim adət-ənənələrimizə bağlılığını, əsərlərin şərhində yüksək bədii ideyalılığı, ədəbiyyata vurğunluğu və digər cəhətləri qeyd etmək olar.

A.Hacıyevin linoqravüra seriyalarına nümunə olaraq, "Yeni Bakı" (1961), "Xəzər" (1963), "Sakit səma" (1965), "Macarıstanda" (1967), "Xalq mahnıları" (1967), "Bahar nəğməsi" (1971), "Şimal küləyi - Xəzri" (1973), "Üzümçülük" (1975) və başqalarını qeyd etmək olar.

Rəssamın "Azərbaycan. Doğma nəğmələr" silsiləsinə daxil olan "Aşıqlar", "Bahar", "Payız", "Ceyranlar" adlı linoqravüra əsərlərində o, son dərəcə ali sənət amallarını əldə rəhbər tutaraq güclü bədii təsir qüvvəsinə malik lirik lövhələr yaratmışdır. A.Hacıyev poeziyanı, söz sənətini daha çox sevdiyindən əsərlərində incə lirizm, poeziyadan süzülən axıcı melodiklik hiss olunur.

Xalq rəssamının "Milli məişət əşyaları" silsiləsinə aid olan linoqravürlərində isə adından da hiss olunduğu kimi, Azərbaycanın qədim məişət əşyalarının, mis qabların, qədim silahların, qılıncların, bel kəmərlərinin özünəməxsus bədii təsvirlərini əks etdirmiş, tamaşaçının nəzər diqqətini cəlb edən maraqlı, yaddaqalan kompozisiyalar yaratmışdır.

A.Hacıyev, həmçinin bir çox kitablara illüstrasiyalar çəkmiş və onların bədii tərtibatını hazırlamışdır. Bunlara misal olaraq, S.Rəhimovun "Mehman" (1956), M.F.Axundzadənin "Hekayəti-xırs-quldurbasan" (1962), milli qəhrəmanlıq dastanı "Koroğlu" (1965), "Nəsiminin lirikası" (1971) və başqalarını qeyd etmək olar.




A.Hacıyevin yaradıcılığının əsas istiqamətlərindən birini onun rəngkarlıq əsərləri təşkil edir. Bu sahənin ana xəttində isə şanlı keçmişimiz, tarixi şəxsiyyətlərimiz və zəngin mənəviyyat xəzinəmizin tərənnümü əsas yer tutur. Tariximizdə elə işıqlı əməl sahibləri var ki, onlarla fəxarət duymamaq olmur. Bu mənada rəssamın ulu tarixə, eləcə də görkəmli şəxsiyyətlərə bağlılığı həm də bir vətəndaş mövqeyinin ifadəsi olduğundan qürurvericidir. "Xalqımızın ulduzları" silsiləsində bu ehtiramın yaddaqalan ifadəsini görmək olar. Rəssam hesab edirdi ki, bu qədirbilən, el dərdini çiyinlərində daşıyan, vətən həsrətini hər amaldan yüksək tutan insanların obrazlarını yaratmaq hər bir rəssamın borcudur. Bu mənada "Tomris", "Məhsəti Gəncəvi", "Sara Xatun", "Xurşidbanu Natəvan", "Mömünə Xatun", "Dədə Qorqud", "Tuti Bikə", "Aşıq Pəri", "Ağa Bəyim Ağa" və başqaları qürurdoğurucu tariximizi əyaniləşdirən çox dəyərli sənət nümunələri olmaqla bərabər, həm də onun sənətkar-vətəndaş mövqeyinin nümayişidir.

Rəssam deyirdi ki, yaradıcı insan gərək daim mütaliə etsin, araşdırsın, həqiqəti üzə çıxarmağa çalışsın. Rəssamın Nizami Gəncəvinin "Yeddi gözəl" əsərinə çəkmiş olduğu illüstrasiyalar diqqəti cəlb edir. Mövzunun əzəmətli təqdimatına görə tamaşaçıya olduqca güclü təsir bağışlayan Şeyx Şamilin monumental portret əsəri onun son tablolarındandır. A.Hacıyevin emalatxanasında görüşümüz zamanı o, Şeyx Şamil haqqında o qədər gözəl və dəqiq faktlarla danışırdı ki, adama elə gəlirdi o, tarixçidir.

A.Hacıyevi tez-tez müxtəlif tədbirlərdə, sərgi salonlarında görmək olardı. Ömrünün ixtiyar çağında olan ustad sənətkarın mütəmadi olaraq təşkil edilən müxtəlif sərgilərdə və tədbirlərdə iştirakı təsviri sənətimizin çətin yollarında yenicə addımlamağa başlayan rəssamlarımıza nümunə idi.

2011-ci ildə rəssamın 80 illik yubileyi ilə bağlı Milli İncəsənət Muzeyində yubiley sərgisi təşkil edilmiş, həyat və yaradıcılığına həsr edilmiş nəfis tərtibatlı kitab nəşr olunmuşdu.

Görkəmli sənətkar 2019-cu il fevralın 12-də 87 yaşında həyatla vidalaşmışdı. A.Hacıyevin əsərləri hələ neçə-neçə sərgi salonlarında nümayiş olunacaq, minlərlə tamaşaçı qəlbini duyğulandıracaq və müəllifinə daha geniş şöhrət qazandıracaqdır.

***Əsəd QULİYEV,***
***sənətşünas,***
***Rəssamlar İttifaqının üzvü***

● İstirahət məkanlarımız

# Bakı və ətrafı gündən-günə gözəlləşir

Qədim tarixi abidələri, Avropa və müasir Şərq arxitekturasının ən gözəl nümunələrini özündə ehtiva edən binaları, dəniz mənzərəsi ilə Bakı məşhur bir rəssamın yağlı boya ilə nəfis işlənmiş əsrarəngsiz tablosuna bənzəyir. Aparılan abadlıq və quruculuq işləri, salınan parklar, yeni yaradılan yaşıl örtüklər hər gün gözəlləşən şəhərin simasını dəyişərək daha da füsunkar edir.




Dövlət başçısı İlham Əliyevin Azərbaycanın sosial inkişafı ilə bağlı müəyyənləşdirdiyi strategiyanın nəticəsi olaraq Bakının dünyanın ən gözəl şəhərlərindən birinə çevrilməsi istiqamətində görülən işlərin miqyası ilbəil daha da artır, Bakı öz simasını dəyişərək şəhərimizə gələn xarici qonaqları, turistləri, sözün həqiqi mənasında, heyranedici gözəlliyi ilə təccübləndirə bilir.

Son zamanlar Bakıda paytaxt sakinlərinin və şəhərimizə gələn qonaqların rahatlığına xidmət edən çoxlu müasir sosial infrastruktur layihələri icra edilərək mövcud park və xiyabanların, istirahət guşələrinin siyahısına yeni adları əlavə olunub.

Dövlət başçısının təşəbbüsü ilə paytaxtın Xətai rayonunda salınan "Gənclik", Səbail rayonunda salınan "Çəmbərəkənd" parkları, Yasamal rayonu ərazisində salınmış "Yeni Yasamal" parkı ölkədə həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyasının tərkib hissəsi olmaqla paytaxtımızın daha da gözəlləşməsinə xidmət edir. Yeni salınan parklar, istirahət guşələri ilə yanaşı, qədim Bakının tarixi abidələrlə zəngin olan kənd və qəsəbələrində də tarixi ənənələr saxlanılmaqla, yeni dizaynda abadlıq, quruculuq, bərpa işləri aparılır. Bərpa və quruculuq işlərindən sonra görkəmini dəyişən Ramana, eləcə də bir vaxtlar neft gölməçələrinin və zibil poliqonunun yerləşdiyi Balaxanı hazırda turistlərin ən çox üz tutduqları məkanlardır. Qəsəbədəki tarixi memarlıq abidələrinin bərpası, ekoloji vəziyyətin yaxşılaşdırılması istiqamətində çox böyük işlər görülüb. Bunlar həm Balaxanının qədim hissəsinə, həm də XX əsrin əvvəllərinə aid dövrləri əhatə edir. Qəsəbədəki Mirzə Ələkbər Sabir adına park 1636-cı illərə aid Şah Səfi karvansarayı, XIV əsrə aid Hacı Şəhla Məscidi və Şakir ağa türbəsi, Ovdan, "Qum hamamı" və digər tarixi abidələr bərpa olunub. Vaxtilə hər məhəllənin öz hamamı vardı və onlar adlarına, memarlıq üslubuna görə bir-birindən fərqlənirdilər. Eləcə də Ramana qəsəbəsi gözəlləşərək tanınmaz bir görkəm alıb. İnsan əməyinin yaratdığı gözəlliklər bu yerlərdə sanki bir möcüzə baş verdiyindən xəbər verir.

Yeni salınan parklardan, istirahət guşələrindən bəhs edərkən vacib olan bir məqama da toxunmaq yerinə düşər. Dövlət başçısının tapşırığı ilə salınan, ümumi sahəsi 4 hektar olan "Yeni Yasamal" parkı vaxtilə bəzi işbazlar tərəfindən zəbt olunmuşdur və onlar bu ərazini hissə-hissə satmaq niyyətində idilər. Məhz Prezident İlham Əliyevin müdaxiləsindən sonra bu proses dayandırıldı və bu torpaqlar Dövlət Fonduna qaytarılaraq ərazi yüksəksəviyyəli infrastruktur əsasında abadlaşdırılıb yeni istirahət zonasına çevrildi.

Eləcə də Xətai rayonunda salınmış, bir zamanlar baxımsız, məişət tullantılarının atıldığı zibilxananı xatırladan 43 hektar ərazini əhatə edən parkda qısa müddətdə 300 minədək ağac əkilərək yaşıllıqlar salındı. Parkda həm uşaqlar, həm də böyüklər üçün idman və əyləncə sahələri yaradıldı, attraksion quraşdırıldı. Eyni zamanda fiziki məhdudiyyətli şəxslər üçün idman və əyləncə sahəsi yaradıldı.

Park, sözün əsl mənasında, sağlamlıq üçün əhəmiyyətli məkandır. Burada yaradılan bağlı və açıq futbol meydançaları, qaçış üçün cığırlar, eləcə də velosiped yolları buranın sağlamlığını düşünən insanların ən çox üz tutduqları ünvanlardan birinə çevrilib.

Parkın ərazisinin böyüklüyü nəzərə alınaraq içəridə müvafiq məlumatlandırıcı və istiqamətləndirici lövhələr quraşdırılıb. Ziyarətçilər üçün piknik məntəqələri yaradılıb. Parkda quraşdırılan "Ürəklər" kompozisiyasını təbiətimizə, insanlarımıza olan sevginin sənət dili ilə ən gözəl təqdimatı da adlandırmaq olar.

Paytaxtın Səbail rayonunda salınan unudulmuş, istifadəsiz ərazidə dövlət başçısının təşəbbüsü ilə yaradılan dörd hektar ərazisi olan "Çəmbərəkənd" parkında 50 mindən çox müxtəlif növ ağac, kol və güllər əkilib. Ərazi qısa müddətdə yaxşı mənada tanınmaz hala gətirilib. "Çəmbərəkənd"i Bakıda olan digər parklardan fərqləndirən əsas cəhət estakada üzərində piyadalar üçün salınmış 147 metrlik körpüdür. Parkda şəhər mənzərəli iki terras düzəldilib, müasir standartlara cavab verən fəvvarə inşa edilib. Gələn qonaqlara iaşə obyekti, sanitar qovşaq və digər sosialyönümlü xidmətlər göstərilir.

Gözəl Bakını bu gün parklar şəhəri adlandırsaq, mübaliğə etmiş olmarıq. Dənizkənarı Milli Park, Filarmoniya bağı, Fəvvarələr meydanı, Zabitlər parkı, Sahil bağı, Xaqani bağı, Səməd Vurğun bağı, Zorge parkı, "Koala Park" əyləncə mərkəzi, Dədə Qorqud parkı, Qış parkı, Ümummilli Lider Heydər Əliyevin adını daşıyan çoxsaylı parklar, akademik Zərifə Əliyeva adına park və digər istirahət guşələri şəhərimizi gözəlləşdirməklə yanaşı, ekoloji vəziyyətin yaxşılaşması istiqamətində görülən uğurlu iş hesab oluna bilər.

Dövlətimizin vətəndaşlarına olan qayğısının, diqqətinin nəticəsi olaraq Bakı hər gün gözəlləşir, hər gün yeniləşir. Bakı ölkəmizin iqtisadi inkişafını, qüdrətini ən yaxşı göstərən gözəl bir güzgüdür.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***




# On bir ayın sultanı

**Ramazan ayı pak ay hesab olunur. Bu ayda insanlar oruc tutaraq, namaz qılaraq pis əməllərdən çəkinir, nəfslərinə sahib çıxır, əməli-saleh olurlar.**



Müqəddəs ayda tutulan oruca "Ramazan orucu" deyilir. Mərhəmət və şəfqət ayı olan ramazan ayı ərzində iftar süfrələri açmaq, yardım və xeyriyyəçilik etmək, ehtiyacı olanlara, kimsəsiz və xəstələrə kömək etmək savab əməllərdən hesab olunur.

Oruc tutmaq qədim zamanlardan bəri ibadət növü hesab olunur və insanlar bu zaman dualar edir, bağışlanmaqlarını istəyir, bu yolla bir növ səbirlərini də yoxlayırlar. Müsəlmanlar üçün müqəddəs ay hesab edilən ramazanda oruc tutmaq hər bir həddi-büluğa çatmış, xəstə olmayan müsəlman üçün vacib sayılır. Oruc tutan şəxslər sübh azanından şam azanına qədər yeyib-içməkdən çəkinir. Ramazan ayı başa çatdıqdan sonra isə münasib günlərdə orucun qəzasını tuturlar.

İslam dininin müqəddəs kitabı "Qurani-Kərim" də ramazan ayının axırıncı on gecələrindən birində nazil olub və həmin gün ramazanda "qədr" və ya "əhya" gecəsi adlanır. Qədr gecəsinin dəqiq hansı gün olduğu bilinmir, amma ramazan ayının son on gecəsindən birinə, həm də tək gününə təsadüf etdiyi bildirilir. Bu hadisənin müqəddəs ayın 19,21,23,25,27-ci günlərinə təsadüf etməsi ilə bağlı müxtəlif fikirlər var.

Qeyd edək ki, hər il Qafqaz Müsəlmanları İdarəsi Ramazan ayının gündəlik duaları, imsak-iftar vaxtlarını əks etdirən xüsusi təqvim tərtib edir.

Oruc tutmaq islamdan əvvəl də mövcud olub və qədim ərəblər allahları üçün oruc tutublar. İslam dinində orucun vacib, müstəhəb, məkruh və haram növləri var.

Ramazan, qəza və kəffarə orucları vacib hesab olunur. Vacib orucda niyyət davamlı olmalıdır. Oruc tutan şəxs gün ərzində oruc tutmaq taqətini əldən versə və ya niyyətini pozsa, orucu batil olar. İslamın beş şərtindən biri olan oruc insan mənəviyyatını saflaşdırır. Şaban ayının ortalarından insanlar ramazan ayına



hazırlaşırlar. Belə ki, insanın günahlardan təmizlənməsi, Allaha ibadətə vaxt ayırması, digər insanlara yaxşılıq etməsi kimi əməllər artıq şaban ayında tövsiyə olunur ki, ramazan ayına təmizlənmiş halda daxil ola bilsin. Oruc insanın mənən saflaşması, təmizlənməsi, ruhi sağlamlığı üçün ən vacib ibadətdir.

## *21 aprel Eydül-Fitr bayramıdır*

Ramazan ayı həm də Allahı ziyafət ayıdır. Hədislərdə qeyd olunur ki, bu ayda siz Allah ziyafətinə, ilahi ziyafətə dəvət olunmusunuz. Bu mənəvi qonaqlıqdır, bu ayda hər bir əməlin dəyəri artır, insanların nəfəsi, yuxusu belə ibadət sayılır.

Orucluq ayının sonunda Eydül-Fitr - Ramazan bayramı qeyd olunur. Bu il bayramın şəvval ayının 1-i - ayın üfüqi ərazimizdə görünməsindən asılı olaraq aprel ayının 21-nə təsadüf etməsi gözlənilir. Oruc ibadətinin mühüm əməllərindən biri olan fitrə zəkatı ramazan ayının son günü verilir. Eydül-Fitr bayramı adlanan gündə hər kəs fitrə çıxarır. Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurasının qənaətinə görə, adambaşına 10-15 manat fitrə zəkatının verilməsi məsləhət görülür. Fitrə canın sədəqəsidir və imkanı olan müsəlman ailəsinin hər bir üzvü üçün fitrə zəkatı çıxarması, imkansızlara, ehtiyacı olan ailələrə verməsi vacib hesab olunur. Tarixi mənbələrə görə, Ramazan bayramı Zərdüştlik dininə məxsus bayram hesab edilir.

## *Müxtəlif dinlərdə oruc*

Oruc tutulmasına müxtəlif dinlərdə rast gəlinir. Hər dində isə oruc tutmağın qaydaları və məqsədi müxtəlifdir. Məsələn, xristian dinində oruc tutmaq məcburi hesab olunur, çünki bu, kilsənin əmridir. Quranda da orucun xristianlar üçün vacib olduğu qeyd olunur. Xristianlıqda oruc və pəhriz ifadələri eyni mənada işlədilir. Onlara görə oruc tutmaq günahların cəzasını bu dünyada almağa başlamaqdır. Xristianlığın müqəddəs kitabı "İncil"ə görə də oruc tutmaq vacibdir. Xristianlıqda oruc tutmaq xristian məzhəbləri arasında fərqlənir. Bu dində orucluq yaşı 21-dən başlayır və 60 yaşa qədər davam edir, amma oruc tutmaq istəyən şəxsin ən azı 14 yaşı olmalıdır. Xristianlar həftənin çərşənbə,



cümə və şənbə günləri də oruc tutur. Çünki bu günlərin İsa Peyğəmbərə xəyanət edilməsi, onun çarmıxa çəkilməsi və dəfn edilməsinə təsadüf etdiyi bildirilir. Həmçinin onlar üçün Pasxa ərəfəsində 2 gün oruc tutmaq vacib hesab olunur.

"Tövrat"da da bəzi günlərdə oruc tutmaq nəzərdə tutulub. Yəhudilikdə əsasən Musa Peyğəmbər tərəfindən əmr edilən "Kəffarə" orucu əsas qəbul edilir. Bundan başqa, yəhudi təqvimində müəyyən oruc günləri var. Yəhudilikdə oruc tutmaq özünü tərbiyə etmək və Allaha yaxınlaşmaq vasitəsi kimi qəbul edilir. Babil dövründə oruc matəm və kədər simvolu kimi yerinə yetirilirdi. Yəhudilər Allahın onlara müsibətlər verdiyinə inandıqları zaman oruc tutublar.

Yəhudilərin məskunlaşdıqları müxtəlif ölkələrə görə dəyişən yerli oruc qaydaları da mövcuddur. Bəzi yəhudi qrupları arasında ilin əvvəlində oruc tutmaq ənənəsi geniş yayılıb. Bundan başqa, əhali ölkədə yağış yağmayanda, qıtlıq olanda dua etmək məqsədilə də oruc tuturlar. Bu dində qorxulu yuxu görən şəxsə də oruc tutmaq buyurulur.

Yəhudilikdə oruc tutma 12 yaşdan sonra başlayır və onlarda yeganə vacib oruc Yom Kippur adlanan kəffarə orucudur. Kippur peşmanlıq deməkdir. İbrani dilində isə "tövbə günü" mənasına gəlir. İnanclara görə, Yom Kippur tövbəni nümayiş etdirmək üçün son şansdır. Yom Kippurda oruc tutanlar üçün imsak axşam gün batanda başlayır və ertəsi gün ilk iki ulduz görünənə qədər yemək və içmək qadağandır. Bu müddət təxminən 25 saat çəkir.

Oruc müddəti uzun çəkdiyi, orucu mümkün qədər asanlaşdırmaq üçün həmin şəxslər əvvəlcədən sağlamlıqlarına, qidalanmalarına xüsusi diqqət yetirirlər.

## *İki aydan bir oruc*

Hinduizmdə oruc tutmaq özünü tərbiyə etmək mənasını daşıyır. İnsanlar oruc tutmağı pəhrizlə eyniləşdirərək xüsusi günlərdə bəzi qidaları yemirlər.

Taoizm dinində oruc daha geniş mənada qəbul olunur. İnsanlar oruc tutaraq sağlamlıqlarını qoruyur və qocalmanı gecikdirirlər.

Hindistan dinlərindən olan Brahmanizmdə hər ayın 12-si və 13-ü oruc tutmaq nəzərdə tutulub. Bu dində yaşlılar da, xəstə və uşaqlar da oruc tuturlar. Dinə görə bir qurtum sudan başqa hər şey orucu batil edir.

Buddizmdə oruc tutmaq çox vacib sayılır, hətta bu, oruca çox önəm verən dinlərdən biridir. Buddizmin qaydalarına görə, iki aydan bir oruc tutmaq və bu müddət ərzində bütün günahlarını camaat qarşısında etiraf etmək lazımdır. Buddaya görə, Nirvanaya əngəl olan yeganə şey arzulardır. Qurtuluş yalnız arzuları tərk etməklə qazanılır. Arzulardan qurtulmağın birinci yolu isə oruc tutmaqdır.

## *Yapon alimin kəşfi - orucun faydaları*

2016-cı ildə tibb sahəsində Nobel mükafatı alan 71 yaşlı yaponiyalı molekulyar bioloq Yoşinori Osumi autofagiyanı nizamlayan genləri aşkar edib. Araşdırmaya görə, bu genlərdəki yalnışlıq xəstəliyə səbəb olur. Autofagiya lazımsız komponentləri təmizləməklə yeni hüceyrələrə yol açır. Alimin araşdırmaları bir sıra xəstəlikləri daha yaxşı anlamağa kömək etməklə yanaşı, eyni zamanda müəyyən müddət ac qalmanın faydasını da sübut edir.



Orqanizm ac qalanda hüceyrə enerjini öz daxili resursları, yığılmış zərərli maddələr hesabına istehsal edir. Bu zərərli maddələrə ziyanlı, xəstəlik yarada bilən bakteriyalar da daxildir. Yapon alimin kəşfi göstərir ki, ac qalmaq, oruc tutmaq faydalıdır və orqanizmin təmizlənməsinə kömək edir.

Nobel Komitəsinin məlumatında da Osuminin kəşfinin hüceyrələrin lazımsız komponentləri necə məhv etdiyini anlamaq baxımından yeni paradiqmanın formalaşmasına yol açdığı qeyd olunur. Onun araşdırmaları ilə autofagiyanın aclığa adaptasiya və infeksiyaya reaksiya kimi bir çox fizioloji prosesdə vacib rol oynadığı göstərilir.

Alim qeyd edir ki, insan bədəni özünü parçalama prosesini daim təkrarlayır. Yaranış və parçalanma arasında incə sərhəd mövcuddur və həyat elə bundan ibarətdir.

## *Ən qısa və uzun müddətə oruc tutan ölkələr*

Saat qurşaqlarına görə müsəlman ölkələrində oruc tutmaq üçün imsak və iftar vaxtları fərqlənir. Oruc müddəti müxtəlif illərdə fərqli ola bilir, çünki ramazan ayının hansı fəslə, aya düşməsi burada əsas rol oynayır. Ümumilikdə imsak və iftar vaxtları arasında fərqlər ölkələrlə yanaşı, şəhərlərə görə də ola bilir.

Bu il ramazan ayı ərzində ən qısa oruc Çilidə tutulur. Belə ki, oruc müddəti 11 saat yarım təşkil edir. Yeni Zelandiya, Argentina və Cənubi Afrikadakı müsəlmanlar da orta hesabla 11-12 saat oruc tuturlar. Ən uzun oruc tutmaq müddəti isə İslandiyanın paytaxtı Reykyavikdə qeydə alınıb. Bu da 16 saat 50 dəqiqə çəkib.

Türkiyə, Əfqanıstan, Pakistan, İraq, ABŞ, Portuqaliya, Yunanıstan, Suriya, Misir, Hindistan, Honk-Konq, Qətərdə bu müddət 14 saat, Kanada, İtaliya, İspaniya, Bolqarıstan, Rumıniyada isə 15 saatdır. Bəzi Asiya və Afrika ölkələrində isə oruc tutmaq müddəti 13 saat təşkil edir.

Ümumiyyətlə, Şimal yarımkürəsində oruc tutma saatları getdikcə qısalır və bu, 2031-ci ilə qədər davam edəcək. Ekvatorun cənub tərəfində isə əksinədir.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***



Sağlıq olsun

# Şəfalı aclıq

**İnanclı insanlar üçün çox əhəmiyyətli ibadət olan orucun sağlamlıq baxımından da çoxlu faydaları var.**

Hələ qədim dövrlərdən qısamüddətli aclığın köməyi ilə müxtəlif xəstəliklərdən sağalmağın mümkün olduğu bilinirdi. Müasir tibb isə insan bədəninin ac olduğu zaman zəif və xəstə hüceyrələrdəki lazımsız hissəcikləri məhv edən proqrama çevrildiyini kəşf edib. Bununla bağlı məlumat verən türkiyəli pəhriz və qidalanma mütəxəssisi Haluk Saçaklı bildirib ki, üçgünlük orucdan sonra bədən bütün immunitet sistemini yeniləyir. Bu baxımdan orucu bədənin tam bərpa proqramı da adlandırmaq olar.



Ramazan ayında oruc tutanlara faydalı məsləhətlər verən mütəxəssis qeyd edib ki, orucluq zamanı halsızlıq, yorğunluq, unutqanlıq, yuxululuq, əsəbilik, şişkinlik, təzyiqin qarşısını almaq üçün iftar və sahur arasında kifayət qədər qida, maye və duz qəbul edilməlidir.

"İstənilən sağlam insan oruc tuta bilər" deyən həkim qeyd edir ki, ancaq səhhəti oruc tutmağa uyğun olmayan insanlar bu məsələyə həssas yanaşmalıdırlar. Ürək-damar, böyrək, şəkərli diabet, mədə, yüksək təzyiq, qaraciyər çatışmazlığı, şiddətli infeksiyası olan qızdırmalı xəstələr, öd daşı olanlar, əzələ xəstələri, çox zəif və qan azlığı olanlar, xərçəng xəstələri müəyyən aralıqlarla dərman istifadə etmək məcburiyyətindədirlər. Belə insanlar terapevtik diyetə ehtiyac duyurlar. Bundan əlavə, hamilə qadınlar, inkişaf çağında olan uşaqlar və qocalar üçün oruc tutmaq təhlükəlidir.

Oruc tutarkən bədən hərəkətləri yavaşıyır və maddələr mübadiləsinin sürəti azalır. Bəzi insanlar ramazan ayının ilk günlərində şiddətli başağrılarından əziyyət çəkirlər. Başağrısı aclıqdan daha çox nikotin və kofein çatışmazlığı ilə əlaqədardır. Səhərlər siqaret çəkməyə və kofe içməyə öyrəşmiş insanlar daha güclü başağrıları hiss edirlər.

## *Xərçəngdən xilas olun*

Orucun sağlamlığa faydalarından biri də otofagiya prosesini, bədənin hüceyrə emal sistemini tətikləyə bilməsidir. Hüceyrələr üçün bir növ keyfiyyətə nəzarət rolunu oynayan otofagiya orqanizmə köhnə hüceyrə hissələrini parçalamağa və yenidən istifadə etməyə imkan verir ki, onlar daha səmərəli fəaliyyət göstərə bilsinlər.

Bu proses bədənin bir növ təmizlənməsidir. Bədən alsheymer, parkinson və ya xərçəngə səbəb olan mutasiyaya uğramış hüceyrələrdən xilas olur.

Oruc tutmaq orqanizmin qan şəkərinə nəzarət edən insulin hormonuna reaksiyasını tənzimləyir. Qan şəkəri tənzimləndikdə ürək-damar xəstəlikləri və ürəklə əlaqəli digər sağlamlıq problemləri üçün iki risk faktorunu - çəki artımı və diabet riskini azaldır.

Alışdığımız qidalanma rejimindən çıxmaq bədənə xəstəliyin qarşısının alınması da daxil olmaqla digər vacib funksiyalara diqqət yetirmək üçün vaxt verir. Bəzi araşdırmalar oruc tutmağın ürək xəstəlikləri, dağınıq skleroz və romatoid artrit kimi xəstəliklərin riskini azaltdığını ortaya çıxarıb.

Araşdırmalar oruc tutmağın yağ itkisinə kömək etdiyini və qan lipidlərini yaxşılaşdıra biləcəyini göstərir. Elmi tədqiqatlara əsasən məlum olub ki, oruc metabolizmin yağ yandırmaq fəaliyyətinə yaxşı təsir göstərir, əzələ kütləsini qoruyur və artıq çəkili insanlarda bədən quruluşunu yaxşılaşdırır.

# Sağlam qidalanma

**Mütəxəssislər bildirirlər ki, ramazan ayında balanslı və sağlam bəslənmənin ilk addımı imsakdır. Toxluq hissinin daha uzun sürməsi, qan şəkərinin erkən düşməməsi və yorğunluq hissinin baş verməməsi üçün imsak vacibdir. Sağlam qidalanmaq üçün günün oruc tutulmayan hissəsində ən azı iki dəfə qidalanmalı və mütləq imsak edilməlidir.**



Səhər yeməyini əvəz edəcək imsak yeməyində yüngül, lakin uzun müddət tox tutan qidalara üstünlük verilməlidir. Tərkibində yüksək protein olan qidalar mədənin boşalma müddətini uzatmaqla aclığı gecikdirir. Bu səbəbdən imsakda zülalla zəngin, süd, qatıq, pendir, yumurta kimi qidalar yeyilməli, qızardılmış yeməklər, xəmir məmulatları, şirniyyatlar, çox duzlu və ədviyyatlı qidalar qəbul edilməməlidir. Əlavə duz istehlakından qaçılmalı, kolbasa və sosiska kimi işlənmiş ət məhsullarına yer verilməməlidir.

İftara pendir, pomidor, zeytun kimi səhər yeməyi məhsulları və ya şorba kimi yüngül yeməklərlə başlayıb 10-15 dəqiqə sonra az yağlı ət, tərəvəz yeməyi və ya salat ilə davam edə bilərsiniz. Ağ çörək, düyü plovu, qızardılmış kartof kimi qan şəkərini sürətlə artıran qidalardan uzaq durmaq lazımdır. İftar və imsakda mümkün qədər badam, qoz və digər faydalı quru meyvələrdən istifadə etmək lazımdır.

İftarda həddindən artıq şərbətli və yağlı desertlər yerinə südlü desertlərə və ya meyvəli desertlərə üstünlük verilməlidir.

İftarla imsak arasında susuzluq hiss edilməsə belə tez-tez su içilməlidir. Su ilə yanaşı, tərkibində kofein olan içkilərin yerinə süd, ayran, təzə sıxılmış meyvə və tərəvəz şirələri, cökə, qızılgül kimi bitki çaylarına üstünlük verilə bilər.

İftarda yeyiləcək yeməklərin bişirilmə üsulları da çox vacibdir. Belə ki, xüsusilə qaynatma, buxarda bişirilmə kimi sağlam üsullarla hazırlanmış qidaların seçilməsi məsləhətdir. Qızardılmış və hisə verilmiş qidalardan imtina etmək vacibdir.

İftardan 1-2 saat sonra qısa gəzintilər etmək həzmi yaxşılaşdırır.

# Su həyatdır



**Türkiyəli diyetoloq Eda Honça Türe ramazan ayını sağlam keçirmək üçün bol su içməyin vacibliyini vurğulayaraq bildirib ki, insan bədəninin yüzdə 60-dan çoxu sudan ibarətdir.**

Ramazan ayında kifayət qədər su içmək çətinləşdiyi üçün bədəndə maye itkisi baş verdikdə metabolik tarazlıq pozulur. Bu vəziyyət aşağı təzyiq, başgicəllənmə, başağrısı, ürəkbulanma və yorğunluq kimi simptomları da bərabərində gətirir. Bədən gün ərzində sidik ifrazı, tərləmə və bir çox başqa yollarla müəyyən miqdarda su itirir. Yaz-yay aylarında havanın temperaturu yüksək olanda isə su itkisi daha çox olur. İftardan imsaka qədər olan müddətdə bu itkini qarşılamaq üçün kifayət qədər su içilmədiyi zaman orqanizmdə su nisbətinin azalması, yəni susuzluq səbəbi ilə müxtəlif sağlamlıq problemləri yaranır.

Mütəxəssis çay və qəhvənin həddindən artıq içildiyinə görə su içməyin unudulmasına diqqət çəkərək qeyd edir ki, belə içkilər sidikqovucu xüsusiyyəti olan içkilərdir. Bilməliyik ki, bu cür içkilərdən istifadə içməli suyu əvəz etməyəcək və sidik ifrazının artması səbəbindən suya tələbat artacaq.

Diyetoloq onu da bildirir ki, iftarla imsak arasında sözügedən içkilərdən başqa 10-12 stəkan su içilməlidir. Uzun müddət oruc tutandan sonra su içməkdə çətinlik çəkən və ya ürəkbulanma problemi olan insanlar iftarda suyuna az miqdarda limon, nanə kimi yüngül dadlı qidalar əlavə edərək suyu daha içilə bilən edirlər: "Yəni susuzluq hissi müxtəlif növ içkilərlə qarşılanmamalı və ilk olaraq su içdikdən sonra başqa qidalara müraciət edilməlidir".

# İdmanı iftardan əvvəl və ya sonra edin

**Əgər oruc tutarkən müşayiət olunan sağlamlıq problemi yoxdursa, fiziki fəaliyyət göstərməyin və idman etməyin heç bir zərəri yoxdur. Həmçinin orqanizmin fiziki fəaliyyət zamanı su və minerallar itirməsi oruc tutmayan dövrdə də özünü göstərir. Ancaq burada əsas məqam oruc tutmayan dövrdə itirilən maye və mineral dəstəyinin dərhal göstərilməsi, insanın məşqi daha səmərəli şəkildə davam etdirməsidir. Bu baxımdan oruc tutarkən nə zaman idmanla məşğul olmağın əhəmiyyəti var.**



Bədənin məşqdən sonra itkilərini əvəz etmək növbəti məşq üçün çox vacibdir. Fiziki fəaliyyətdən sonra sürətli bərpa üçün, boş karbohidrat (şəkər) anbarlarını doldurmaq, maye-mineral itkilərini əvəz etmək və hüceyrələrin yenilənməsi (xüsusilə əzələ) üçün zülal ehtiyacını ödəmək çox vacibdir.

İdman üçün tövsiyə ediləcək ən uyğun zaman isə iftardan əvvəl və ya sonrakı saatlardır (1-2 saat əvvəl və ya sonra). Bu zaman ediləcək yüngül məşqlər və gəzintilər kifayət qədər idealdır.

İftar yeməyindən sonra fiziki fəaliyyət göstəriləcəksə, çox yağlı və həzmi çətin olan qidalara üstünlük verilməməli və yeməkdən sonra 1-2 saat gözlənilməlidir. Qeyd edək ki, idmanla məşğul olandan sonra sonra yüngül qidalar qəbul edilə bilər.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

**Dünya durmadan dəyişir, ildırım sürəti ilə hər yanda yeni texnologiyalar tətbiq edilir və onların gələcəkdə insanların yaşam tərzinə necə təsir edəcəyini də demək olmur.**



# Süni intellekt dostdur, yoxsa düşmən

İnsan zəkası ilə süni intellekt arasında sezilməyən çəkişmələr səbəbindən gələcək maraqlı olduğu qədər də müəmmalı və qəliz görünür. Reallıq isə ondan ibarətdir ki, bu gün süni intellekt geniş yayılır, həyatımızin bir çox sahələrinə müxtəlif adlar altında müdaxilə edir.

Süni intellektin Çat-bot adlı yeni forması artıq bütün dünyanı inanılmaz nəticələri ilə silkələyib heyrətləndirməkdədir. Çat-botun isə nə demək olduğunu izah etmək üçün bir qədər ətraflı danışmaq lazımdır. Gündəlik həyatımıza insan ağlına sığmayan yeniliklər daxil olur və biz demək olar ki, gözlənilmədən onlarla qarşılaşırıq, birgə yaşamaq və onlardan istifadə etmək məcburiyyətindəyik. CatGPT və ya Çat-bot adlı yeni süni intellektin nə olduğunu təsəvvür edə bilməsək də, o, artıq həyatımızın bir hissəsinə çevrilmişdir. Bu gün həmin çat intellektual və kommunativ məsələlərin həllində asanlıqla insanla yarışa və onu arxada qoya bilir. Artıq məsələ o qədər ciddidir ki, bəzən ortaya belə məkrli bir sual da çıxır: Çat-bot insanı əvəz edə biləcəkmi?





Beləliklə, Çat-bot süni intellektin bazasında yaradılmış geniş sistemlərin vahid ad altında fəaliyyət göstərən modelidir. O heç kim tərəfindən idarə olunmadan real vaxt rejimində sizinlə dialoq apara, nə haqqındasa danışa bilər, mübahisə edər, diskussiyaya girər, yaradılmış ssenari və proqramlardakı səhvləri sərbəst üzə çıxararaq aradan qaldırmağı bacarar. Bundan başqa, Çat-bot hətta roman, şeir yazır və hətta daha mürəkkəb mətnləri hazırlaya bilir.

Çat-bot "Open Ol" şirkəti tərəfindən təklif edilən texnoloji məhsuldur. Qeyd edək ki, onun yaradıcıları arasında həm də məşhur İlon Mask da var. Universal çat 2022-ci ilin sonlarında buraxılan kimi ildırım sürəti ilə yayıldı və bütün dünyada məşhurlaşdı. Onun işə düşməsi üçün Azure AI super kompüter də yaradıldı. Bu çatı yaradanlar onu maksimum dərəcədə "insana yaxın" və istifadə etmək üçün daha rahat yaratdılar. Bu gün Cat-bot şeir yazmaqdan başqa, həm də aşağıda sadalanan daha ciddi işlərlə də məşğuldur:

- maliyyə analizlərinin aparılması,
- sadə kodun generasiya edilməsi, yaradılması;
- proqnozlaşdırma;
- texniki məqalələrin yazılması;
- fərdi məsləhətlərin verilməsi və sair.

Yəni siyahı kifayət qədər genişdir və onunla tanış olduqca heyrətlənməmək mümkün deyil. ÇatGPT-nin tətbiq sahələri də genişlənir. Artıq yaxın gələcəkdə Çat-botun interfeysinin yaradılması nəzərdə tutulur. Gələcəkdə tətbiqi proqramlaşdırma əsasında yaradılan Çat-botun interfeysi tərtibatçılara onu həm tətbiqdə, həm də sayt strukturlarında yerləşdirməyə imkan verəcək.

Çat-botun bacarıqları yalnız sadaladıqlarımızla bitmir! Bütün bunlardan başqa, o ən mürəkkəb suallara cavab verə bilir; müxtəlif dillərə tərcümələr edir; müxtəlif suallara Googldan daha sürətlə və daha ətraflı cavab verir; yeni ssenarilər yaradır, qəhrəmanların hərəkət və davranış modellərini qurur; filmlər əsasında oyunlar yaradır və hətta başqa neyron şəbəkələri də idarə edir.

Bütün sadalananlara baxmayaraq, hələ ki, Çat-bot tam şəkildə mütəxəssisləri əvəz edə bilmir. Ancaq Çat-bot eyni zamanda kompüter proqramçılarına xüsisi tapşırıqları həll etməyə kömək edə bilir.

Bir sözlə, yaradılmasından cəmi 4-5 ay keçən Çat-bot müəyyən qüsurlara malik olsa da, bütünlükdə dünyanı heyrətləndirməkdədir. Çat-botun intellektual imkanları mütəxəssislər tərəfindən öyrənilməkdədir. Onlardan bəzilərini nümunə gətirək. Çat-bot vəkilliklə bağlı sualların 88 faizinə düzgün cavab verib, biznes-testlərdən, heç bir əlavə hazırlıq keçmədən ABŞ-də həkim işləməyə icazə verən imtahanlardan keçib.

Bir sıra mütəxəssislər belə qənaətə gəlirlər ki, ÇatGPT-nin əsas problemi bəzən öz fantaziyalarını reallıq kimi qələmə verə bilməsidir. O bəzən düzgün tərtib edilməyən suallara sayıqlama ruhunda cavab verə bilir.

Bütün bunlara baxmayaraq, ÇatGPT böyük elmi tapıntıdır. Lakin onun ən ciddi problemi və ya qüsuru odur ki, o, yalan deyə bilər. Mütəxəssislərdən biri ÇatGPT-dən istifadə edərək elm haqqında esse yazır. Çat isə cavab verir ki, "Qotfrid Leybnit nisbilik nəzəriyyəsini kəşf edib və buna görə Nobel mükafatını alıb". Əslində isə Eynşteynə Nobel mükafatı başqa şeyə görə verilib. Bu tipli səhvləri aradan qaldırmaq o qədər də asan deyil. "Open AI" şirkəti hazırda bu çatışmazlıqların üzərində çalışır və ola bilsin ki, qarşıdakı modellərdə bu səhvlər aradan qaldırılsın.

Süni İntellekt Agentliyinin elm və texnologiyalar üzrə direktoru Poman Duşkin yazır ki, ÇatGPT-yə uydurma tarixi epizod haqqında danışmağı təklif edirlər: "1733-cü ildə başlayan Braziliya-Yapon müharibəsinin səbəbləri, gedişatı və nəticələri barədə məlumat ver". Əslində, Çat-bot belə bir hadisənin olmadığını deməli idi. Lakin ÇatGpt belə cavab verir: "Məşhur Braziliya-Yapon müharibəsi 1733-cü ildə baş verir... 1739-cu ildə qurtarır..." Əfsus ki, bəzən bot-çat düzgün cavab vermək əvəzinə uydurmağa da üstünlük verir.

Belə xırda qüsurların mövcudluğuna baxmayaraq, CatGPT bütün təhsil sisteminə də təsir edə bilər. Pedaqoqlar həyəcan təbili çalırlar ki, bu çatın hazırladığı testlər təhsilə nəzarət proqramları tərəfindən aşkar edilə bilinmədiyi üçün təhsildə ciddi çətinliklər yaradacaq.

ÇatGPT çox ciddi alətdir və ondan tam istifadə etməyə yiyələnmək lazımdır. Artıq bu çatın təsiri altında yaranan promit-mühəndisliyi kimi yeni peşələrə şagirdlərin elə məktəb illərindən alışması vacibdir. Bu halda çat təhsil sistemində şagirdlərin ən yaxın köməkçilərindən biri olacaq. Belə ki, promit-mühəndis kimi çıxış edə bilən məktəbli süni intellektin tapşırıqlarını təyin edə bilir, ondan gələcək tekstlərin yarımfabrikatlarını əldə edir. Sonra isə bu xammalı inkişaf etdirərək son mərhələyə çatdırmaq bacarıqlarına yiyələnir.

Amerika, Yeni Zelandiya və İrlandiya alimləri proqramlaşdırma dərslərində böyük dil modellərinin tətbiq edilməsinin perspektivlərini araşdırıblar. Belə qənaətə gəliblər ki, süni intellekt müəllimlərə bir çox hallarda kömək edə biləcək. Şagirdlərə də əyani surətdə müxtəlif konsepsiyalar arasında əlaqələri, yaranan səhvlərin aradan qaldırılması yollarını başa salacaq.

Maraqlısı odur ki, süni intellekt insan beyninin inkişaf etməsinə yardım göstərə biləcək və həm də daha böyük dil modellərinin yaranmasına təkan verəcək. Artıq yaxın illərdə bir sıra ixtisaslarda müəyyən yeniliklər baş verəcək. Mütəxəssislər belə hesab etmirlər ki, CatGPT proqramistləri tam dəyişdirəcək.

Yekunda onu demək lazımdır ki, ÇatGPT süni intellektin inkişafında qapıları yeni və fərqli dünyanın üzünə açır. Bəşər tarixində ilk dəfədir ki, süni dil intellekti belə yüksək səviyyədə yüz milyonlarla insan üçün əlçatan olmuşdur. Bunun özü böyük uğurdur.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# Abşeron Rayon İcra Hakimiyyətinin vəzifəli şəxsi barəsində həbs qətimkan tədbiri seçilib

Abşeron Rayon İcra Hakimiyyəti başçısının Mehdiabad qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəsi Əli Həsənovun qanunsuz əməlləri ilə bağlı keçirilən əməliyyat-axtarış tədbirləri davam etdirilir və Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində cinayət işi başlanıb.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, istintaq zamanı Əli Həsənovun Mehdiabad qəsəbəsində yerləşən kənd təsərrüfatı təyinatlı torpaq sahələrində fərdi yaşayış evlərinin tikintisinə icazələrin, müxtəlif məzmunlu arayışların verilməsi və ümumi himayədarlıq müqabilində çoxsaylı vətəndaşlardan rüşvət almasına əsaslı şübhələr müəyyən edilib.

Əli Həsənova Cinayət Məcəlləsinin 308.1 (vəzifə səlahiyyətlərindən sui-istifadə) və 311.3.2-ci (təkrar rüşvətalma) maddələri ilə ittiham elan edilməklə, barəsində məhkəmənin qərarı əsasında həbs qətimkan tədbiri seçilib.

İbtidai istintaq davam etdirilir.


# OXUCULARIN NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |


AZƏRBAYCAN
Azərbaycan və Gürcüstan Avropanın enerji təhlükəsizliyi üçün önəmli rol oynayan ölkələrdir
Təkbətək görüş
"ASAN xidmət" mərkəzi ilə tanışlıq
Mətbuata bəyanatlar
Prezident İlham Əliyevin adından Gürcüstanın Baş nazirinin şərəfinə nahar verilib
Zərifə Əliyeva - 100
Görkəmli alim, mərhəmətli insan, müqəddəs ana
Azərbaycan ÜST-la səmərəli əməkdaşlığı bundan sonra da davam etdirəcək
Azərbaycan parlamenti İranı təxribatçı hərəkətlərdən çəkinməyə çağırdı
Azərbaycan-Tacikistan iqtisadi əlaqələri qarşılıqlı etimada əsaslanır

**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*




# Ağ günümüzü qara edən "ağ ölüm"

## Ona qarşı hər birimiz mübarizə aparmasaq, məğlub ola bilərik

**Bu gün həyata keçirilən gənclər siyasətinin, gənclərə göstərilən diqqət və qayğının özəyində ölkəyə layiqli, torpağını, millətini sevən, ona candan bağlanan sağlam nəslin yetişdirilməsi dayanır. Çünki Azərbaycanın bu günü və gələcəyi üçün vətənpərvər gənclər lazımdır.**

Vaxtilə Ümummilli Lider Heydər Əliyev müstəqil düşüncə tərzinə sahib vətənpərvər nəslin yetişməsini qürur hissi ilə vurğulamışdır: "Məni hədsiz dərəcədə sevindirən odur ki, Azərbaycanın gələcəyini möhkəm əllərdə saxlayan, daim xətalardan qoruyan, dövlət müstəqilliyini, demokratik dövlətini qoruya bilən gəncliyi var". Bu, doğrudan da, belədir. 44 günlük Vətən müharibəsində qazanılan Zəfər təsdiq etdi ki, millətin gənc övladları Vətənin dar günündə bir yumruq kimi birləşməyi, döyüşməyi, torpaq uğrunda şəhid olmağı bacarırlar. Nə xoş ki, Azərbaycanın qürur duyulası, fəxr ediləsi belə gənc övladları var.

İnsanın gənclik dövrü onun formalaşmasında, vətəndaş kimi yetişməsində, vətənə, millətə faydalı övlad olmasında ilkin mərhələdir. Onun şəxsiyyət kimi formalaşmasında bu dövrün doğru-düzgün istiqamət götürməsi vacib şərtdir. Sağlamlıq, gözəllik, sevgi - gəncliyin ən önəmli atributlarıdır. Bu parametrlərdən düzgün istifadə edən gəncliyin ötən dövrlərdə çox şahidi olmuşuq. Amma nə yazıq ki, indi Azərbaycan gəncliyinin bəzi nümayəndələri bu cür üstün parametrlərin daşıyıcısı kimi deyil, pis vərdişlərin daşıyıcısı kimi özlərini göstərirlər. Xüsusilə də yaxasını narkomaniya kimi bəlanın əlinə verənlər təkcə özünün, ailəsinin deyil, bütövlükdə cəmiyyətin sağalmaz yarasına çevrilirlər.

Narkotika bəlasına düçar olanlar ömürlük işgəncəyə məruz qalırlar. Bəşəriyyətin başı üzərində dolaşan bu ölüm kabusu insanın həyatını məhv edir, ömrünü çürüdür. Son illər isə narkotika növü olan "patı-şüşə" adlı sintetik maddə demək olar ki, Azərbaycanın hər yerindən "boy göstərir". İlk baxışda bəlkə də təhlükəsiz görünən bu maddə heroindən betər faciə törədir. 13-17 yaşlı yeniyetmələrin qənimə çevrilən patı məktəbli qızlar arasında da geniş yayılıb. Demək olar ki, "ağ ölüm" cəmiyyətin üstünü kəsdirib.

Bəs cəmiyyətin bu gününü, gələcəyini və inkişafını əlində saxlaya biləcək gücə malik olan gəncliyi "ağ ölüm"ün ağuşuna atan səbəb, yaxud da səbəblər nədir? Nədən insanlar doğru yoldan çəkinir, narkotikadan asılı vəziyyətə düşürlər? Zəiflikmi, iradəsizlikmi, yoxsulluqmu, işsizlikmi, yoxsa hədsiz dərəcədə zəngin olmaqmı? Təbii ki, sadalanan bu amillərin hər birinin "ağ ölüm"də payı var. Bütün hallarda cəmiyyət bu cür insanların əlində xəstələnir, ölümə sürüklənir.

Narkotik asılılığından əziyyət çəkən xəstələri sağaltmaq, onları normal həyata qaytarmaq üçün hansı üsullarla mübarizə aparılır? Bəri başdan deyək ki, Azərbaycan dövlətinin bu yönümdə proqramları, layihələri var və həmin sənədlər belə şəxslərin normal həyata qayıtmasına xidmət edir. Narkomaniya ilə mübarizə bu gün ölkənin bütün regionlarında qəbul edilmiş dövlət proqramı əsasında həyata keçirilir. "Narkotik vasitələrin, psixotrop maddələrin və onun prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı" Prezident İlham Əliyevin 2019-cu il 22 iyul tarixli Sərəncamı ilə təsdiq olunmuşdur. Sərəncamdan irəli gələn vəzifələri yerinə yetirmək üçün öncə narkomanlığın profilaktikası düzgün aparılmalıdır. Onun üçün də ən səmərəli və ən faydalı vasitə gənclərin asudə vaxtlarının doğru-düzgün təşkil edilməsidir. Bu məsələdə idmanın rolu çox əhəmiyyətlidir, hətta əvəzsizdir. İdman sağlamlıqdır, sağlam ruhdur, sağlam gələcəkdir. Bütün bunları yüksək dəyərləndirən Prezident İlham Əliyevin tapşırığı ilə ölkənin əksər rayonlarında olimpiya idman kompleksləri inşa olunub. Bu komplekslərin inşasında məqsəd sağlamlığın təmin edilməsi ilə yanaşı, gənclərin ağır fəsadlar törədən pis vərdişlərdən, zərərli əməllərdən uzaqlaşdırılmasına nail olmaqdır. Üstəlik, bəzi rayonlarda "Gənclər Evi" tikilib. Onlar da sosial obyekt kimi gənclərin asudə vaxtlarının faydalı keçməsinə xidmət edir.

Təcrübə göstərir ki, idmana maraq göstərən, yaxud "Gənclər Evi"nə cəlb edilən oğlanlar, qızlar narkomaniyadan uzaq olurlar. İdman və sağlam düşüncə bu gənclərin iradəsini möhkəmləndirir. Ona görə də onlar insan sağlamlığını təhlükə altına alan, əxlaqa, eləcə də milli-mənəvi dəyərlərə zərbə vuran, insanı alçaldan, zəlil edən, cəmiyyətin ritmini pozan, eləcə də ictimai və sosial tərəqqini ləngidən narkomaniyadan ikrah edir, onun təsiri altına düşmürlər.

Müşahidələr sübut edib ki, işsizlik narkotik asılılığına yol açan faktordur. Bu məsələnin həllində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyinin üzərinə böyük vəzifə düşür. İşsiz gəncləri əmək bazarına yönləndirmək, onları münasib işlə təmin etmək agentliyin hədəfidir. Agentliyin özünüməşğulluq proqramına, peşə hazırlığı kurslarına cəlb etdiyi gənclər bəzən öz kiçik bizneslərini qura bilmədikləri üçün narazı qalırlar. Halbuki Məşğulluq Mərkəzi müntəzəm olaraq gənclərin əmək bazarına inteqrasiyasına dəstək verən proqramlar, layihələr hazırlayır. Məqsəd də peşə təhsili alan tələbələrin biznes təlimlərinə cəlb olunması və kiçik bizneslərinin qurulmasına yardım etməkdir. 2016-cı ildə start götürən və 2025-ci ilədək davam edəcək "Azərbaycan Respublikasının Məşğulluq Konsepsiyası" da məhz gənclərin məşğulluğunun təminatının prioritet istiqamətlərindən biri kimi nəzərdə tutulub.

Ailədən başlayan pis tərbiyənin pis nəticəsini də qətiyyən gözdən qaçırmaq olmaz. Valideyn düzgün həyat tərzi keçirməyəndə övladının gələcəyini düşünmür, onun hansı yolla getdiyindən, hansı məzhəbə qulluq etdiyindən xəbəri olmur. Bu məsələdə övlad-valideyn münasibətlərinin də rolu az deyil. Ata-oğul, ana-qız münasibətləri düz xətt üzərində formalaşarsa, yeniyetmə gənclərin təhlükəli işlərə meyil etməsinin qarşısı alınar. Ailədə qurulan qarşılıqlı inam vacib şərtdir.

Narkomaniya ilə mübarizə təkcə dövlətin deyil, hər kəsin işidir. Kimin nəyə gücü çatırsa çalışmalıdır ki, ağ günümüzü qara edən "ağ ölüm"dən xilas ola bilək.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman | |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| | | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 5627
Sifariş 815

Qiymәti 40 qəpik